Ш6(5)
G 93

MƏDİNƏ GÜLGÜN

234090

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI–2004

*Bu kitab "**Mədinə Gülgün.** Seçilmiş əsərləri" (Bakı, Azərnəşr, 1985) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Ön sözün müəllifi: **Elçin**

**894.3611 - dc 21**
**AZE**
**Gülgün Mədinə. Seçilmiş əsərləri.** "Şərq-Qərb", Bakı, 2004, 224 səh.

Vətəndaşlıq ilə incə lirikanın bir-birini tamamladığı Mədinə Gülgün poeziyası oxucu rəğbətini çoxdan qazanmışdır. Şairənin yaradıcılığında Cənub həsrəti, xəfif məhəbbət, vətənpərvərlik, zəriflik kimi duyğular özünə daim yer tutmuşdur. Bu kitaba müəllifin şeirlərindən nümunələr və "Apardı sellər Saranı" poeması daxil edilmişdir.

**ISBN 9952-418-03-2**

© "ŞƏRQ-QƏRB", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ƏBƏDİ GÜN SORAĞINDA

Beləcə sahilə can atıram mən...
***Mədinə Gülgün***

Haçansa yenə yaz gələcək... O badam ağacları haçansa yenə də çiçəkləyəcək və o ağ çiçəklər vətənin bütövlüyündən, vətənin vahidliyindən, əbədiliyindən xəbər verəcək.

Haçansa... Nə üçün "haçansa"?

Çünki o gələcək yaz adi fəsil deyil, o badam ağacları da adi ağaclar deyil. Mədinə Gülgünün "Ağ badam çiçəkləri" adlı şerinin epiqrafı mötərizəyə alınmış və cəmi beş sözdən ibarət dünyanın ən sadə bir cümləsidir: "Təbrizdə badam ağacları çox olur". Lakin bu sadə cümlənin nisgili, bu sadə cümlənin könülləri dolduran həsrəti, ürəkləri döyündürən həyəcanı yalnız bir şairin, onun lirik qəhrəmanının yox, yalnız poeziyanın və ümumiyyətlə, sənətin yox, bütöv bir xalqın nisgili, həsrəti, həyəcanıdır.

Təbrizin gülləri də nə vaxtdı eləcə qönçə qalıb:

*Təbrizin gülləri qönçə,*
*Güllər açmaz mən gəlincə.*

Haçansa yenə yaz gələcək... O yazın həqiqiliyi, mütləqliyi şairi ruhdan düşməyə qoymur, ümid yaradır, inam yaradır, arzular misralara çevrilir, eyni zamanda, o nisgil də, həsrət də, həyəcan da şairin bütün varlığını ələ alır və beləliklə də poeziya yaranır.

Mədinə Gülgünün lirik qəhrəmanı: "Mən kiməm?"- sualına "arzusu şirin bir ana" cavabını verir və həmin "şirinlik" indiki halda bizimçün ona görə qiymətli görünür ki, onun daxili tutumunu başqa bir şeirdə söylənən bu istək təşkil edir: "Vətən eşqi hər arzudan ulu olsun".

Həmin poetik arzularda vətənpərvərlik ehtirası, mübarizə əzmi, vətəndaş qayəsi ilə bərabər, bir təmizlik, akvarellə işlənmiş bir zəriflik var: "Quşların vətənə dönən qatarı mənim arzularım, ümidlərimdir".

Mədinə Gülgünün poeziyasında vətəndaşlıq ilə incə lirika bir-birini tamamlayır, biz hətta xüsusi bir zərifliyin, xəfifliyin sinonimi kimi "qadın lirikası" ifadəsini işlətmək istəyirik:

*Qayıdaydıq o Təbrizli günlərə,*
*Arzularım qönçəsindən çıxaydı,*
*Saçlarıma yaz yağışı yağaydı...*

Bu zərifliyin, bu poetik yüngüllüyün, xəfifliyin bizim poeziyamızda köklü ənənələri var, onlar Heyran xanımın, Aşıq Pərinin, Natəvanın, Kəminənin,



Aşıq Bəstinin, cəmi bircə beyti ilə ədəbiyyat tariximizdə işıqlı və eyni zamanda həzin bir iz qoyub getmiş Ağabəyim Ağanın ("Əfsus ki, yarım gecə gəldi, gecə getdi, heç bilmədim ömrüm necə gəldi, necə getdi") yaradıcılığından süzülüb gəlir. Mədinə Gülgün poeziyasında xalqımızın qəhrəman qızı Mərziyə Üskuyinin "göz yaşları" odludur, mübarizə əzmindən doğur və mübarizəyə çağırır, lakin o göz yaşları başqa bir yerə yox, "güllərin ləçəyinə" axır.

Bu poeziyanın lirik qəhrəmanı kövrəkdir, həssasdır, ən kiçik bir fərəhi, ən kiçik bir məyusluğu sezmək və bədii düşüncələrinin predmetinə çevirmək iqtidarındadır.

*Bir körpə quş görsəm açıbdır qanad,*
*Onundur, elə bil, bütün kainat.*
*Könlümdə başlanır sanki toy-büsat,*
*Mən susa bilmirəm, susa bilmirəm.*

Körpə bir quşun qanad açmasına beləcə sevinən, sevincini gizlədə bilməyən, susa bilməyən lirik qəhrəmanın qırx ildən artıq bir müddətdə vətən ağrısını ürəyində gəzdirməyi, əlbəttə, təbiidir, təsirlidir.

Lirik qəhrəman: "Hələ yorulmamışam vətənçün alışmaqdan, yanmaqdan, yanmaqdan..." – deyir və biz də Mədinə Gülgünün qırx yaşlı poeziyasını oxuduqca, mənimsədikcə, söylənən bu fikrin poetik təsdiqini tapırıq.

Lirik qəhrəman bir vaxt "yazı masam bir parça daş idi, yatağım tozlu səngər" – dedikdə, biz həmin poeziyada gördüyümüz və qiymətləndirdiyimiz o incə lirikaya, o kövrək təhkiyəyə, zərif obrazlar aləminə baxmayaraq, bu gün də bunu hiss edirik, şairin ən yaxşı şeirlərində o daş sərtliyini, səngər ehtirasını duyuruq.

Hərgah şair: "Məni ozan etdi vətənin dərdi" deyirsə, elə bilirik ki, bu sözlərin məsuliyyəti çox böyükdür, çünki həmin şairin poeziyasının bədii-estetik səviyyəsi, təfəkkür tərzi və ehtiva dairəsi siyasi-ictimai məzmunu bir tərəfdən vətənin dərdini göstərməyi (yəni vətəni sevməyi!) bacarmalıdır, digər tərəfdən isə öz misraları, hətta sözləri ilə həmin ozanlığı əyani şəkildə göstərməlidir, iddia iddia kimi də qalmamalıdır (bu əlbəttə, gülünc olardı!), imkanla vəhdətdə olmalıdır.

Biz, uzun illərdən bəri ədəbi prosesimizdə fəal iştirak edən Mədinə Gülgün poeziyasının ən yaxşı nümunələrində həmin vəhdəti görürük. Onun lirik qəhrəmanı "yora bilməz yollar məni" deyəndə də buradakı "yol" bizim nəzərlərimizdə adi yol kimi yox, gözlərin çəkdiyi yol, sabaha aparan yol, xalqımızı birləşdirəcək yol kimi mənalanır və məhz bu mənada da biz lirik qəhrəmana inanırıq.

Bəzən bu lirik qəhrəman da xəyala dalır, "həsrətsiz günlərlə əkiz olaydım" – deyir, çünki həsrətin ağrısı-acısı ona yaxşı məlumdur, bu ağrı-acı onun güzəranının, yaşayışının tərkib hissəsidir və buna görə də məhz həmin lirik qəhrəmanın söylədiyi, deyək ki, aşağıdakı misraların emosional təsiri güclüdür:

*Saxla darda həsrəti,*
*Yandır oda həsrəti!*
*Qoyma yata həsrəti,*
*Yenə oyanar birdən...*

Gərək həsrətin "oyanmağını" dəfələrlə hiss edəsən, yanasan, yaxılasan ki, ondan beləcə qorxasan və həmin qorxunu beləcə poetik (və sadə!) şəkildə ifadə edə biləsən.

Bizim tənqidimiz müasir Azərbaycan poeziyasını tədqiq edərkən, tez-tez belə bir cəhətlə rastlaşır ki, söylənən poetik mülahizələr şəxsən yaşanmış hiss-həyəcanlardan, şəxsi təcrübədən doğmur, bəzən iddia çox böyük olur, lakin bir tərəfdən şerin versifikasiya səviyyəsi, digər tərəfdən isə mövzunun müəllif üçün doğmalıq dərəcəsi həmin iddianı doğrultmur, çünki müəllifin həyatı ilə, yaradıcılığı ilə o iddia arasında üzvi bağlılıq yoxdur. Bu, çox naqis cəhətdir, bədii-estetik təsir səhihliyinə ziyan vurur və təbii ki, sənətin gerçək, həyati, xəlqi bir sərvət kimi qavranmasına mane olur. O zaman ki, belə deyil, o zaman ki, bədii iddia doğma hisslərin, yaşanmış ömrün təbii nəticəsidir, əksinə, həmin təsirin emosional gücü daha da artır. "Mən ölmək istəməzdim adi ölənlər kimi. Buna yox haqqım mənim. Mən gərək ölümümlə doğam bir səhər kimi". – Mədinə Gülgünün lirik qəhrəmanının bu iddiasında heç bir sünilik, təvazökarsızlıq yoxdur, çünki bu məqamda lirik qəhrəmanla şairin şəxsiyyəti tamam birləşir və həmin poeziyanın vətən həsrəti, mübarizə çağırışı, bu keyfiyyətlərin ildən-ilə davam və inkişaf etməsi o "haqq" iddiasını doğruldur.

Eyni zamanda, lirik qəhrəmanla şəxsiyyətin beləcə eyniləşdiyi zaman biz şəxsi səadətlə ictimai qayğıların poetik vəhdətinə təsadüf edirik. Balaş Azəroğluna həsr olunmuş şeirdə lirik qəhrəman-şair deyir: "Nə yaxşı ki, el dərdini qoşa çəkdik". Buradakı "nə yaxşı ki" xoşbəxtliyi Mədinə Gülgün poeziyası üçün əlamətdar bir cəhətdir, çünki həmin xoşbəxtliyin özü də nisgillə yoğrulub... Başqa bir şeirdə lirik qəhrəman-şair yüksək və səmimi hisslərlə hər şeyə hazırdır, hər şeyə gücü çatar, tufan da ola bilər, ümman da, yaz yağışı da ola bilər, lakin "könlün ala bilmirəm, vətən ola bilmirəm səninçin, səninçin..."

Əlbəttə, Şimal da vətəndir, şair bu gün də öz vətənindədir, lakin "bu qürbət nədir bəs? Bu dünyada həm yaxınıq, həm uzaq". Ayrı-ayrı xalqlar bir-birinə yaxın, bir-birindən uzaq ola bilər, lakin eyni bir xalqın eyni bir zamanda həm yaxınlığı, həm də uzaqlığı işıqlı insani ideallara və ümumiyyətlə, insanlığın təbiətinə ziddir, mənəvi-ictimai dərddir. Mədinə Gülgünün bir şerində: "Bircə yol yuxuma gəl barı", "məgər yuxumda da sərhəd var mənim?" – deyə verilən yanıqlı bədii sual məhz həmin mənəvi-ictimai dərdin təzahürüdür. Mədinə Gülgün Şimalda yalnız Cənubun həsrətini çəkmir, bir vətəndaş kimi, vətən təəssübü çəkir və deməliyəm ki, bu vacib cəhət Cənubdan gəlmiş şairlərimizin yaradıcılığı üçün səciyyəvidir.

Mədinə Gülgün poeziyasının diqqəti cəlb edən cəhətlərindən biri də budur ki, bu poeziyada Cənuba bağlılıq, Cənub məhəbbəti, Cənub təəssübü



özünün Şimal qarşılığı ilə tamam müştərəkdir. Bu poeziya Cənub poeziyası deyil, necə ki, bizim şimallı şairlərimizin poeziyası yalnız Şimal poeziyası deyil. Bizim bir poeziyamız var: Azərbaycan poeziyası.

*Bir torpaq üstündə doğulmuşuq biz.*
*Bir qolum Bakıdır, bir qolum Təbriz.*

Belə bir eynilik hissi Mədinə Gülgünün Cənub həsrətini daha da qabarıqlaşdırır, daha artıq təsirli edir, çünki burada məhəlli təəssübkeşlik yox, yuxarıda yazdığımız kimi, vətən təəssübkeşliyi var. Bu cəhət şairin "Nənələr və nəvələr", "Xatirələrimin nəğməsi", "Ürəklərdə, nəğmələrdə yaşayanlar", "Dastana çevrilmiş həyat" kimi poemalarına da xasdır.

Mədinə Gülgünün ən yaxşı şeirlərində bədii ümumiləşdirmə gücü şəxsi hiss-həyəcanlara ümumxalq mahiyyəti verə bilir: Təbrizdə yaşayan ana ilə Bakıda yaşayan qızı uzun ayrılıqdan sonra telefonla danışırlar, "telefon xətlərində bir səs düşdü dünyaya, telefon xətlərində birləşdi ana, bala. Bir ananın səsindən sanki üşüdü dünya, bir balanın səsindən göy ağladı az qala". Artıq burada söhbət konkret anadan və konkret baladan getmir. Cənubdan və Şimaldan gedir.

Mədinə Gülgün ya Təbrizə, Savalana, Marağaya müraciət edəndə ya Mərənddən, Salmasdan danışanda bu qədim toponimlərimiz müəyyən bir coğrafi ərazini bildirmir, Cənubun rəmzinə çevrilir: "Siz ey Ərdəbildə qalan günlərim, illərin əlində talan günlərim" – uzun-uzun illərin əlində talan olan o günlər yalnız Ərdəbildə qalmayıb, bütöv cənubda qalıb və o günlər yalnız Mədinə Gülgünün lirik qəhrəmanına yox, bizim hamımıza məxsusdur.

Burası da diqqətəlayiqdir ki, bütün bu dərdə, həsrətə, nisgilə baxmayaraq, *Mədinə Gülgün poeziyası nostalgiya xəstəliyinə tutulmayıb*, əksinə, buradakı nostalgiya, hərgah belə demək olarsa, ümidlə nəfəs alır, arzuyla yaşayır; bu poeziya bədbin, əlacsız bir poeziya deyil ("hər gün məni oyadarlar qızıl rəngli səhərlərim") mübarizəyə çağıran, yada salan, qəzəb oyadan bədii-estetik təbliğat vasitəsidir. Mən bu söz birləşməsini "bədii-estetik təbliğat vasitəsi" – yazdım və ani olaraq duruxdum: poeziyaya belə bir meyarla yanaşıb onu "təbliğat vasitəsi" hesab etmək olarmı? Bu sualın cavabında mənim üçün mübahisəli bir şey yoxdur: o yerdə ki söhbət vətəndən gedir, o yerdə ki poeziya xalqı ifadə etməyə çalışır, olar və olmalıdır.

"Elimin, vətənimin sabahına inandım" dedikdə, biz də o lirik qəhrəmanla birlikdə bu inam hissini bölüşürük.

Əlbəttə, hərdən bədbinlik notları özünü göstərir: "yaxındır Təbrizin yolu" və o yaxın yolu qət etməkçün "bir ömür də çatmadı",

Yaxud "dərdli-dərdli ötərəm Təbrizi görməyincə" yaxud "gözümdə dünyanın həsrəti, qəmi" və biz bunu başa düşürük, yəqin ki, bu notlarsız mümkün deyil, çünki ayrılıq böyük ayrılıqdır, lakin səciyyəvi və bizim təqdir etdiyimiz cəhət budur ki, həmin bədbinlik bu poeziyanı ələ ala bilmir, çünki

şanlı bir keçmişdən gedən mübarizlik ruhu var, inam var: "Bir görüş yerinə gün doğar bir yaz...".

O gün doğacaq, doğmalıdır, şairlə bərabər, biz də buna inanırıq, heç vaxt Təbrizi görməsəm də, atamı, anamı, bacımı, qardaşımı cənublu qələm dostlarım kimi, orada qoyub gəlməsəm də, elə bil ki, mənim də o lirik qəhrəmanın dediyi kimi "çalınmamış toylarım var o tayda, yaşanmamış aylarım var o tayda, deyilməmiş boylarım var o tayda".

Mədinə Gülgünün lirik qəhrəmanı: "Can qurtara bilmərəm köksümdə baş qaldıran tufanların əlindən, dalğaların əlindən" – deyir və əslində biz bunu yaxşı duyuruq, o tufanların, dalğaların əlindən qurtarmaq istəmir də, çünki hisslərində, təfəkküründə bir qətiyyət var və buna görə də başqa bir şeirdə: "Gəzməyincə Təbrizin küçələrini, həmişə beləcə yanan, alovlanan görəcəksiniz məni..." – deyir.

Mən Mədinə Gülgün poeziyasının doğurduğu bu təəssüratları yazıram və düşünürəm: "Axırdı önümdən Astara çayı..." – bircə bu sadə misra kifayətdir ki, ürəklərdəki hissləri təlatümə gətirsin, qəlbləri kövrəltsin, "həsrəti oyatsın", təsir etsin, lakin buradan heç vəchlə belə bir nəticə çıxarmaq olmaz ki, bu mövzu konyuktura mənasında poeziya üçün sərfəli və asandır (belə bir hasilatın qeyri-poetik ifadələrini biz, çox təəssüf ki, mətbuat səhifələrində, ayrı-ayrı kitablarda az oxumuruq), əksinə, bu yerdə mövzudan sui-istifadə etmək, bir tərəfdən vətəndaş qayələrinin kasıblığıdırsa, digər tərəfdən də poetik imkanların məhdudluğu, bədii məğlubiyyətdir.

...Xalqlar azadlıq uğrunda, müstəqillik uğrunda, böyük arzular naminə mübarizələr aparır və bu zaman o şərəfli tarixin yaranmasının şahidi olan dağlar, qalalar həmin xalqların mənəvi rəmzinə çevrilir.

Ərk qalası...

Təbriz üsyanları Azərbaycan tarixinin işıqlı səhifələrindəndir və o üsyançı qəhrəmanların son istehkamı Ərk qalası oldu.

Mədinə Gülgün "arzuları şirin" o ana ehtirası ilə: "Mən inanıram, bir gün Ərkin sinəsinə əbədi gün düşəcək. Gün düşəcək..." – deyir.

Biz də inanırıq...

***Elçin***



# Sabahınız xeyir olsun

## AZƏRBAYCAN

Qızıl günəş göy üzündə güləndə,
Nəğməsini quşlar bağ-bağ böləndə,
Mən göz açıb bu dünyaya gələndə
Bəxt ulduzum burda yanan olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Tappur-tappur addım atıb gəzmişəm,
Gülə batıb, şehə batıb gəzmişəm.
Əllərimdən anam tutub, gəzmişəm,
Sevincimiz coşğunümman olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Yollar açıb qucağını gəl, deyib,
Səninlədir oba deyib, el deyib.
Ürəyimin sözləridir, dil deyib,
Könlüm sözlə dolu cahan olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Bəzən yolum yoxuş olub, qalxmışam,
Haray salıb şimşək kimi çaxmışam.
Nəğmə olub ürəklərə axmışam,
El sevgisi mənə bəyan olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Sevincimə gözdolusu gülənim,
Nisgilimi, istəyimi bilənim,
Dar ayaqda harayıma gələnim,
Havadarım hər bir zaman olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Çağlamağı bulaqlardan almışam,
Boy atmağı qovaqlardan almışam.
Əzəməti bu dağlardan almışam,
Gül-çiçəyi dərdə dərman olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Bəxtimizi qızıl günəş oyatdı,
Biz həyatı, həyat bizi ucaltdı.
Elim, obam zəfərlərlə boy atdı,
Dünya bildi təzə dövran olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Laylalarım qüvvət verib canıma,
Laylayımçün qurban olum anama.
Bu analı, bu laylalı dünyama
Doğma torpaq nə mehriban olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

Yuvası var körpəcə bir quşun da,
Mənası var qayanın da, daşın da.
Nə yaxşı ki, könlüm coşub-daşanda
Nəğməm burda havalanan olubdur,
İlk beşiyim Azərbaycan olubdur.

*1978*

## SABAHINIZ XEYİR OLSUN

Siz ey sübhün özündən tez oyananlar,
*Dan yerinin şəfəqinə boylananlar,*
Ey həyatın keşiyində dayananlar,
Sabahınız xeyir olsun.

Neçə dərdə dərman olan həkim dostlar,
Dərdimizə yanan olan həkim dostlar,
Məhəbbəti ümman olan həkim dostlar,
Sabahınız xeyir olsun.

Siz ey ömür dünyamızın anaları,
Siz ey şirin röyamızın anaları,
Siz ey gəlin anamızın anaları,
Sabahınız xeyir olsun.



Siz ey yaşıl tarlalarda tər tökənlər,
Məhəbbətlə yer şumlayıb, yer əkənlər,
Ey yurd salıb, oba salıb ev tikənlər,
Sabahınız xeyir olsun.

Siz ey coşqun dalğaları ram edənlər,
Nəfəsiylə sal buzları əridənlər,
Addımları yer titrədən igid ərlər,
Sabahınız xeyir olsun.

Siz ey vətən torpağından güc alanlar,
Baykal, Amur çöllərində yol salanlar,
Zəhmətiylə, hünəriylə ucalanlar,
Sabahınız xeyir olsun.

Siz ey sübhün özündən tez oyananlar,
Dan yerinin şəfəqinə boylananlar,
Ey insanlar, ey insanlar, ey insanlar,
Sabahınız xeyir olsun.

*1977*

## YORA BİLMƏZ YOLLAR MƏNİ

Gah aranda, gah dağdayam,
Gah çəməndə, gah bağdayam.
Yaxındayam, uzaqdayam,
Yora bilməz yollar məni.

Gah bahar, gah qarlı qışam,
Bu həyatdan doymamışam.
Səfərdəyəm səhər-axşam,
Yora bilməz yollar məni.

Gah analar anam olar,
Gah bulaqlar laylam olar.
O laylalar dünyam olar,
Yora bilməz yollar məni.

Gah ümidim çiçəklənər,
Gah bir günüm ilə dönər.
Həyat dəniz, qalxar, enər,
Yora bilməz yollar məni.

Gah buludtək dolar könlüm,
Gah tək-tənha qalar könlüm
Gah bələdçi olar könlüm,
Yora bilməz yollar məni.

Yollar dönə bir kitaba,
Varaqlaram oba-oba.
Tablaşaram hər əzaba,
Yora bilməz yollar məni.

Gah quşlarla yarışaram,
Gah sellərə qarışaram.
Dərə keçib, dağ aşaram,
Yora bilməz yollar məni.

Nəğmə dolu bir ürəyəm,
Gah coşqunam, gah kövrəyəm.
Bir ümidli gələcəyəm,
Yora bilməz yollar məni.

Babam Qorqudun sazıyam,
Nənəm Tomrisin qızıyam.
Zaman-zaman yanasıyam,
Yora bilməz yollar məni.

El arxamdır dar ayaqda,
Bir məna var yaşamaqda.
Doğulduğum bu torpaqda
Yora bilməz yollar məni.

Gah dönərəm sönməz oda,
Arzum dəniz, mən bir ada.
And içirəm bu həyata,
Yora bilməz yollar məni.



## İNSANAM MƏN

Məni nə bənövşəyə,
Nə laləyə oxşadın.
Nə dumana, nə çənə,
Nə küləyə oxşadın.
İstəmirəm desinlər
Dolmusan bulud kimi.
Sızlayan bir kamana
Bənzətməyin qəlbimi.
Deməyin dəniz kimi
Coşqunam, ya dilsizəm.
Sahilim varmı, yoxsa
Əzəldən sahilsizəm.
Deməyin ki, Günəşdən
Aldım odu, atəşi.
İnsanam, bu torpağın
Mənəm əsl günəşi!
Həsrəti bənövşəyə,
Laləyə mən vermişəm.
Qanadlanıb coşmağı
Küləyə mən vermişəm.
Buludlar dolmağı da
Məndən öyrəndi, məndən.
O kamanın simləri
Qopmuş mənim sinəmdən.
Dənizə coşmağı da,
Mahnılar qoşmağı da,
Mən öyrətdim bir səhər.
Mənimdir o dalğalar,
Mənimdir o ləpələr.
Ayrılıq da özüməm,
Vüsal da öz payımdır.
Bu səs adi səs deyil,
Yaşamaq harayımdır,
Yaşatmaq harayımdır.
Çətin, bu yaşamaqdan

Yorulub, usanam mən.
Gah qəmlənən, gah gülən
İnsanam, insanam mən.
Gecə Günəş batsa da,
Mən yanaram hər axşam.
Həyatın, gözəlliyin
Keşiyində durmuşam.
Torpağın sünbülü də,
Tarlası da özüməm.
Zəfər dolu illərin
Mənası da özüməm!
Çətin bu yaşamaqdan
Yorulub usanam mən.
Gah qəmlənən, gah gülən,
Yaradan insanam mən.
İnsanam, insanam mən.

*1965*

13090

## ŞERİM MƏNİM

Qəzəbi şimşəklərdən,
Atəşi ürəklərdən,
Ətrini çiçəklərdən
Alıbdır şerim mənim.

Dözümü qayalardan,
Coşmağı dəryalardan,
Şəfqəti analardan
Alıbdır şerim mənim.

Əzəməti dağlardan,
Bərəkəti bağlardan,
Ahəngi bulaqlardan
Alıbdır şerim mənim.

Kövrəkliyi buluddan,
Lal durmağı sükutdan,



Odu bu doğma yurddan
Alıbdır şerim mənim.

Saflığı pənbə qardan,
Təravəti bahardan,
Gücü doğma diyardan
Alıbdır şerim mənim.

İlk nəğməni anamdan,
Həvəsi söz dünyamdan,
Ümidini inamdan
Alıbdır şerim mənim.

Söhbəti babalardan,
Hikməti babalardan,
Şərbəti babalardan
Alıbdır şerim mənim.

Sadəliyi nənəmdən,
Nağıl dolu aləmdən,
İlk yuvanı sinəmdən
Alıbdır şerim mənim.

Ömrünü aydan, ildən,
İlhamı doğma dildən,
Xeyir-duanı eldən
Alıbdır şerim mənim.

*1977*

## HARDA BİR ATƏŞ GÖRSƏN...

Harda bir atəş görsən
Alovu dilim-dilim,
O mənim ürəyimdir
Alovlanır, sevgilim!



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Harda bir tufan görsən
Səsindən dinir aləm,
Bil ki, həyat eşqiylə
Coşan o tufan mənəm.

O dolmuş buludlarda
Gurlayıb çaxsa şimşək,
Elə haray qoparan
Mənim könlümdür demək.

Harda bir torpaq görsən
Yanır çöllər, zəmilər,
Mənim çarpaz yaralı,
Dərdli sinəmi göstər.

Dağlara səsi düşsə
Sabah igid ərlərin,
Məni də ön cərgədə
Görəcəksən sən, yəqin...

Qaranquş dimdiyində
Gəzdirsə bir tər çiçək,
Baharın müjdəçisi
O quş da mənəm demək...

*1964*

## SİZİ DEYİB YAŞARAM

Yaşaya bilməyirəm
Sizsiz bircə an belə,
İnsanlar, ay insanlar.
Nə qədər deyilməmiş
Nəğməm, sözüm var hələ,
İnsanlar, ay insanlar.
İstər yaxın olaq biz,



İstər uzaq, qəmim yox.
Sizə özgə, sizə yad
Bir ayrı aləmim yox.
Kiçik güzaranımla
Sizi deyib yaşaram.
Desələr keç ömürdən,
Ömrümü bağışlaram.
Təki insan arzusu
Tufanlarda sönməyə.
Ürəklər ayrılığı
Əlində körpə quştək
Çırpınıb döyünməyə.
Budaqlar qırılmaya,
Yarpaq yaralanmaya.
Təki mən yaralanım,
Torpaq yaralanmaya.
Mən min-min anaların
Səsindən səs alıram.
Sünbüllü tarlalardan
İlıq nəfəs alıram.
Haray çəkib deyirəm
Qoruyun bu dünyanı.
İnsanlar, ay insanlar!
İnsan silah götürüb
Heç qırarmı insanı,
İnsanlar, ay insanlar?
Gəlin, gəlin qoymayaq
Ağlaya mahnılar da,
İnsanlar, ay insanlar.
Qoymayaq insan ömrü
Sönüb gedə yarıda,
İnsanlar, ay insanlar.

*1966*

## DÜNYAMIZIN SABAHI

Yer üzündə insan qalacaq, –
Qurub, yaradan insan.
İnsanı sevirəm.
Yer üzündə quşlar qalacaq,
Bir də geniş asiman.
Quşları,
Asimanı sevirəm...
Yer üzündə rənglər qalacaq,
Öz çalarıyla.
Rənglərin çalarını sevirəm.
Anamız torpaq qalacaq,
qışıyla, baharıyla.
Torpağın
qışını, baharını sevirəm.
Yer üzündə
qanadlı nəğmələr qalacaq,
Ümid dolu, arzu dolu
nəğmələr...
Nəğmələri sevirəm.
Bir də
Günəş anasıyla
səhər qalacaq.
Günəşi, səhəri sevirəm.
Yer üzündə
beşiklər qalacaq.
Körpələrin
ılıq nəfəsiylə dolu,
şəfəqlə dolu...
Səngərlərdə yox,
hünər meydanında yaşayacaq,
qalacaq
Torpağın qızı, oğlu...
Nurlu sabaha getdikcə,
dünyamız,
bir də bəşər aləmi,



Yəqin kəsəcəklər kökünü
şər qüvvələrin.
Açılacaq qaşı-qabağı
göyün, yerin..
Barıt qoxusu,
körpələrin
həresan yuxusu,
İnsan cildli qurdlar
Dağılan
obalar, yurdlar,
ata möhnəti,
qadın həsrəti,
qan rəngli gecələr,
daha nə bilim
nələr, nələr...
Nağıla dönəcəklər, nağıla.
İnsanlar heyrətlə,
dönə-dönə
bu olmuş nağılları
danışacaqlar bir-birinə...

*1977*

## NƏĞMƏLƏRİMİN ÜNVANI

Mənim təzə nəğməmin
Ünvanını soran kəs,
Hələ indi dil açır
Sinəmdə arzu, həvəs.
Neçə şeir, neçə söz
Düymə-düymə olubdur.
Neçə mahnı fikrimdə
Təzəcə doğulubdur.
Deməyin susdu şair,
İlhamı söndü yəqin.
Yox, şeirsiz yaşamaq

Mənə çətindi, çətin.
Gecəmi, gündüzümü
Şerə bağışlamışam.
Həyatımı, özümü
Şerə bağışlamışam.
Qəlblərə yol açınca
Qəlbim boşalıb, dolu.
Şerim doğulan günü
Mənə toy-bayram olub.
Sən, ey təzə nəğməmin
Ünvanını soran kəs,
Xəyalın qanadında
Yer üzünü dolan, gəz.
Təzə bir zəmi görsən
Köksünün atəşiylə,
Kama, murada çatmış
İki sevgili görsən,
Bil ki, onlarla birgə
Mən də fərəhlənirəm.
Silinir bircə anda
Ürəyimdən qüssə, qəm...
Harda min-min insanın
Qanını axan görsən,
Topların nərəsindən
Yeri darıxan görsən
Sınan bir könül görsən,
Dağılan oba görsən,
Körpələrin ahından
Tutulan səma görsən,
Bil ki, dözə bilmirəm,
Haray çəkirəm mən də.
Elə bil od qalanıb,
Atəş var bu sinəmdə.
Harda körpə gülüşü,
Körpə nəfəsi olsa,
Məftillərin yerində
Göy çinarlar ucalsa,



Harda alın təriylə
Yaşıllanan bağ görsən,
Harda açıq ürəkli
Bir dost, bir qonaq görsən,
Harda ucalan divar,
Göyərən bir ot görsən,
Harda təzə bir şəhər,
Abad olmuş yurd görsən,
Məni o yerdə axtar,
Bil ki, orda mən varam.
Tər töküb, əmək çəkib,
Nəğmələr yaradıram,
Nəğmələr yaradıram...

*1967*

## DÜŞMÜŞƏM BİR TƏZƏ NƏĞMƏ EŞQİNƏ

Ehey, uca dağlar eşidin məni,
Başı haça dağlar eşidin məni.
Gəlsəm haçan, dağlar, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

Ehey, geniş düzlər, eşidin məni,
Lalələr, nərgizlər, eşidin məni.
Könlüm sizi səslər, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

Ehey, yaşıl bağlar, eşidin məni,
Yaxınlar, uzaqlar, eşidin məni.
Ey sözlü bulaqlar, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

Ehey, günlər, aylar, eşidin məni,
Ey yollar, dolaylar, eşidin məni.
Bir sinə sözüm var, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

Ehey, əziz dostlar, eşidin məni,
Qəlbi təmiz dostlar, eşidin məni.
İlqarı düz dostlar, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

Ehey, ey yağışlar, eşidin məni,
Körpə qaranquşlar, eşidin məni.
Ey qayalar, daşlar, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

Ehey, ey ləpələr, eşidin məni,
Nağıl xatirələr, eşidin məni.
Laylalı sinələr, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

Ehey, ey insanlar, eşidin məni,
Həyatı quranlar, eşidin məni.
Arzusu ümmanlar, eşidin məni,
Bilin, havalanıb ürəyim yenə,
Düşmüşəm bir təzə nəğmə eşqinə.

*1976*

## MƏNİM GÖZLƏRİMLƏ BAXIN BAKIYA

Eyvanım Bakıya açılır mənim,
Eyvanım bir görüş yerinə bənzər.
Bakı söz aləmim, şeir aləmim,
Hər an bu görüşə könlüm tələsir.



Səhərlər şəfəqlər oyadır məni,
Axşamlar ulduzlar qonar köksümə.
Bakı o füsunkar nəğmələrini
Əlvan güllər kimi səpir üzümə.

Alar salamımı geniş küçələr,
Gəzər saçlarımda səhər nəsimi.
Qızılı bir dona girmiş küçələr,
Coşar, dalğalanar ümmanlar kimi.

Yenə Qız qalası o, vüqar rəmzi,
Başlar kərpic-kərpic öz söhbətini.
İllər arxasından ucalan səsi,
Danışar bir əsrin həqiqətini...

Xəzər quş qanadlı ləpələrini
Sahil daşlarına səpər zər kimi.
O şıltaq, inadlı ləpələrini,
Yazar sahillərə nəğmələr kimi.

Milyon addımların milyon sədası,
Bakının ahəngdar nəbzinə dönər.
Güldükcə insanın arzu dünyası,
Ürəyim sevinər, gözüm sevinər.

Bakı – özümüzün daş kitabəsi,
Andımız, sözümüz, hünərimizdir.
Bakı – əsrimizin qurtuluş səsi,
Bakı – beynəlmiləl şəhərimizdir.

Dəmir gövdəlidir, polad ayaqlı,
Şərqin ilkin doğan səhəridir o.
Bir bahar nəfəsli, qızıl bayraqlı,
Nəğmələr, nəğmələr şəhəridir o.

Mənim gözlərimlə baxın Bakıya,
Çırpınan qəlbimin ahəngidir o.
Eşitsin səsimi qoy bütün dünya,
Qəşəng şəhərlərin qəşəngidir o...

*1974*

## QIZIL RƏNGLİ SƏHƏRLƏRİM

Hər gün məni oyadarlar
Qızıl rəngli səhərlərim.
Ləhzə-ləhzə boy atarlar
Qızıl rəngli səhərlərim.

Alışarlar dörd yanımda,
Nəğməli asimanımda.
Coşub daşarlar qanımda,
Qızıl rəngli səhərlərim.

Sinəm üstə cəm olarlar,
Bir nurlu aləm olarlar.
Könlümə məlhəm olarlar,
Qızıl rəngli səhərlərim.

Yaşayırlar sözlərimdə,
İşıqlanar izlərim də.
Gülümsərlər gözlərimdə
Qızıl rəngli səhərlərim.

Günəşdən qüvvət alarlar,
Odlu məhəbbət alarlar.
Ürəyimdə yurd salarlar,
Qızıl rəngli səhərlərim.

Yollarımı naxışlar,
Arzumu hey alqışlarlar.
Mənə ümid bağışlarlar,
Qızıl rəngli səhərlərim.

Dan yerində doğularlar,
Saçaq-saçaq dağılarlar.
Ömrümə yelkən olarlar,
Qızıl rəngli səhərlərim,
Qızıl rəngli səhərlərim...

*1982*



## ŞİRİN BİR LAYLAYAM

Dağların başında bitən çiçəyəm,
Hər əsən küləyə baş əymərəm mən.
Şirin arzularla çarpan ürəyim,
Ölərəm, dönmərəm bu əməlimdən.

Vətən torpağında qaynar bulağam,
Arxam – uca dağlar, önü – göy meşə.
Kim deyir dünyada mən bir qonağam,
Gələcək nəğməli səsim həmişə.

Təzə dənə dolmuş sarı sünbüləm,
Əyərəm başımı ana torpağa.
Sevilən könüləm, sevən könüləm,
Sevgimdən ürəyim dönübdür dağa.

Şirin bir laylayam, doğma bir səsəm,
İsti beşiklərdən ucalacağam.
Mən nəğmə deməsəm, ötə bilməsəm,
O zaman, o zaman qocalacağam.

Bir evin gəlini, anasıyam mən,
Bir evin ocağı, oduyam dеmək.
Həmişə-həmişə yanasıyam mən,
Həmişə çırağım şölələnəcək...

İnanma susdura zaman qəlbimi,
İnanma desələr, öləcəyəm mən.
Bu elə, bu yurda körpə quş kimi,
Həmişə baharla gələcəyəm mən...

*1976*

## QALIR OCAĞIMIZ, KÖZÜMÜZ

Külək bir yarpağı aldı, apardı,
Dedim, təbiətdə bu tufan nədi?
Yarpağın ömründə fırtına vardı,
Tufan da, külək də bir bəhanədi.

Qırılan yarpağın zümrüd görkəmi
Bir xəzan rənginə çalırdı indi.
Tufanlara düşən sanki bir gəmi
Dalğalar qoynunda qalxıb, enirdi.

Yarpağı dağ-daşa çırpırdı yellər,
Yarpağın sinəsi xal-xal olmuşdu.
O bahar çağları dönən deyillər,
O çağlar indi bir xəyal olmuşdu...

Ovulub torpağa qarışan yarpaq,
Hökmü dəyişməzdir həyatın – dedi.
Zamanın əmriylə barışan yarpaq
Bildi ki, tufanlar bir bəhanədi.

O bir də inandı, bildi ki, yəqin –
Ömrün payızı var, ömrün qışı var.
Ömür saydığımız bu təbiətin,
Payız yağışı var, yaz yağışı var.

Vaxt olur şəfəqə bürünürük biz,
Vaxt olur qapını qarlı qış alır.
Yarpaq timsalında olan ömrümüz
Qarışıb illərə bir nağıl olur.

Beləcə vururuq illəri başa,
Zərrə ömrümüzün çatır son çağı.
Fəqət sinə gərib qara, yağışa
Həmişə yaşayır vətən torpağı.

Yarpaqtək ovulub parçalansaq da,
Yenə laylamızı bu torpaq çalır.
Bizik o zəmi də, tarla da, bağ da,
Həyatda hər kəsdən bir nişan qalır.

Qalır nişanımız, izimiz bizim,
İzi olmayanlar heç yoxmuş demək.
Qalır ocağımız, közümüz bizim,
Yanır çırağımız şölə çəkərək...

*1979*



## ÖMÜR KİTABA BƏNZƏR

Ömür kitaba bənzər,
Bəzən sona yetməmiş
Qapanar, unudular.
Ömür kitaba bənzər,
Bəzən sona çatanda
İnsana niskil olar...
Mənim ömür kitabım
Qapansa bir gün tamam,
Neçə ömürdə, gündə
Görüşünə gələrəm.
Bir axşam körpə quştək,
Yuvamda ayrılarsam,
Təzəcə pərvazlanan
Quşlarla uçub mən də
Görüşünə gələrəm.
Gecə göyün üzündən,
Axıb getsəm ulduztək,
Qarışıb ulduzlara
Görüşünə gələrəm.
Göyərib çəmən-çəmən,
Açılıb çiçək-çiçək,
Dönüb ılıq bir mehə
Görüşünə gələrəm.
Gələrəm, ey vətənim,
Ey yurdum, yuvam mənim.
İlhamımın qanadı,
Ey şeir dünyam mənim,
Gələrəm görüşünə
İlıq yaz havasında.
Gələrəm görüşünə,
Neçə xatirətdə mən.
Sanaram yaşayıram
Yenə bu həyatda mən.
Gələrəm, heç bir tufan
Söndürməz bu eşqimi.

Ey vətənim, vətənim,
Mən səni unutmaram
Sən məni qucağında
Əzizlədiyin kimi...
Gələrəm görüşünə
Təzəcə ayaq tutan
Nəvəmin qədəmində.
Mənim bu ülvi eşqim
Zərrə deyil əriyə,
İtə dumanda, çəndə...
Gələrəm görüşünə
Neçə-neçə şairin
Arzusunda, sözündə.
Bir daha inanarsan,
Mən sağam, yaşayıram
Bu geniş yer üzündə...

*1976*

## İTİRMƏYİM BU QİSMƏTİ

Demirəm ki, zirvələrdə qartalam mən,
Köksü şirin nəğməli bir körpə quşam.
Deyirəm ki, nə nağıl, nə xəyalam mən.
Bu torpaqda yaşamaqçün doğulmuşam.

Demirəm ki, çiçək olum büllur qabda,
Dağda, daşda bitsəm, yenə yaşayaram.
Demirəm ki, adım qalsın hər kitabda,
Bir nəğmə ötsəm, yenə yaşayaram.

Demirəm ki, hər ulduzda qismətim var,
Mən heç kəsin ulduzundan almaram nur.
Öz körpəcə bəxt ulduzum göydə yanar,
Mənim üçün hər ulduzdan o, nurludur.



Demirəm ki, ümmanlarda sal qayayam,
Qayalara səpələnən zərrəyəm mən.
Demirəm ki, sonbeşiyəm, ya qocayam,
Torpaq anam, anam üçün körpəyəm mən.

Demirəm ki, şəfəqlərin zər qanadı
Təkcə mənim saçlarıma vursun naxış.
Deyirəm ki, duyan gündən bu həyatı,
Bu həyatdan mənə sevmək, sevmək qalmış.

Demirəm ki, qaranquşlar dönən zaman
Yuva salsın təkcə mənim pəncərəmdə.
Deyirəm ki, gurlayıb dinən zaman
Yuyunum yaz yağışında mən də, mən də.

Qanadımdır el sevgisi, məhəbbəti,
Bu sevgidir isindirən ürəyimi.
Şeir yazım, itirməyim bu qisməti,
Ömr eləyim yer üzündə nəğmə kimi...

*1976*

## MƏN TƏNHA DEYİLƏM

Çox zaman deyirlər tənha qalma sən,
Tənhalıq kövrəldir insanı bəzən.
Tənhalıq yaraşmır çinara belə,
Tənhalıq yaraşmır çiçəyə, gülə...
Tək qalan dağın da dərdi dağ olar,
Tək qalan bulağın gözləri dolar.
Yaş tökər gözündən hey gilə-gilə,
Tənhalıq dərdindən o gələr dilə.
Siz ey yollarıma hey baxanlarım,
Siz ey mənim üçün darıxanlarım,
Heç zaman mən tənha qalmıram, düzü.
Bu fikir yormasın ürəyinizi.

Qalıram "filçəkməz" kədərlərimlə,
Qalıram ümidli səhərlərimlə.
Mən yollar gedirəm, yollar aşıram,
Narahat fikrimlə qoşalaşıram.
Məndən soruşsalar əgər nəyim var.
Deyərəm işıqlı bir ürəyim var.
O, mənim dünyamdır, sahilsiz dünyam.
Onu dinləməkçün hər an yoldayam...
Ey duyan insanlar, ey mərd insanlar,
Siz ey mənə məndən əziz olanlar,
Dinləyin sahilsiz, dəniz dünyamı...
Bu qəmli dünyamı, qəmsiz dünyamı...
Dinləyin, dinləyin, bilin hardayam,
Mən tənha deyiləm, bu torpaqdayam.
Bu diyardayam...

*1976*

## ON SƏKKİZ YAŞINIZ QAYIDIR GERİ

*1941-45-ci illər müharibəsində iştirak edən bacılarıma*

Dedin, cəbhələrdə itirmişəm mən,
Ömrün ən gözəl bahar çağını.
Dedin, cəbhələrdən gətirmişəm mən,
Neçə nisgilimi, ürək dağımı.

Ata nəvazişi, ana şəfqəti
Dedin, görməmişdim öz diləyimcə.
Vətən məhəbbəti, el məhəbbəti
Məni də səfərbər etdi bir gecə.

Bir zülmət gecədə ayrıldım, dedin,
On səkkiz yaşımdan, zərifliyimdən.
Anamdan necə də ayrıldım, dedin,
Belə bir ayrılıq görməmişdim mən.



İlk dəfə bağları yanan görmüşəm,
Səma dəyişmişdi mavi rəngini.
Yaşıl çinarları sınan görmüşəm,
Həyat itirmişdi öz ahəngini.

Sular qan rəngində, çöl, çəmən solğun,
Yağan güllələrdən divarlar göz-göz.
Təbiət hərasan, təbiət yorğun,
Hər daşda bir nida, bir üsyan, bir söz.

Mən belə ayrıldım, belə ayrıldım,
On səkkiz yaşımdan, şirin xülyamdan.
O gündən bir əsgər çağrıldı adım,
Ayrıldım röyaya dönən dünyamdan.

Ayağımda çəkmə, əynimdə şinel,
Çiynimdə boz çantam, bir də silahım.
Girdim döyüşlərə, bu, nağıl deyil,
Dedim günəşlə bir doğsun sabahım.

Mənim çiçək ətrim, mənim gül ətrim
Bu şəfa qaynaqlı dərmanlar oldu.
Mənim mavi donlu qızıl səhərim
Tüstülər, dumanlar ardında qaldı.

Hər vətən övladı düşəndə oda,
Hər yara alanda bir cavan əsgər,
On səkkiz yaşıma eylədim vida,
Böyüdüm cəbhədə mən səngər-səngər.

Oğullar gördüm ki, sonuncu anda
Ağ günə çıxacaq dünya, dedilər.
Oğullar gördüm ki, yaralananda
Mənə dönə-dönə ana, dedilər.

Qardaşlar gördüm ki, ömürlük ona
Bu dünya işığı bir nağıl oldu.

Qar yağdı ömrünün bahar çağına,
Atalar mənimçün bir oğul oldu.

Unuda bilmirəm ötən günləri,
O illərdə qaldı on səkkiz yaşım.
Onlar deyil ömrün itən günləri,
Sonsuz dastan oldu on səkkiz yaşım...

Danışdın, dinlədim səni aramla,
Sandım, analardır danışan belə.
Gözündə yaş dondu ikicə damla,
Dağıtdın onları kirpiklərinlə.

Üzündə parlayan sevinc yaşları
Oldu nəğmələrin naxışı indi.
Mən əziz saxlaram bu daş-qaşları,
Sandım yağdı bahar yağışı indi...

Min-min on səkkiz yaş cəbhədə qaldı,
Fəqət bahar gəldi torpağa, suya.
Gəldiniz, hər yanda toy-bayram oldu,
Dincəldi hərasan, yuxulu dünya...

Yox olub göylərdən duman da, çən də,
Bahardır bəzəyən səmanı, yeri.
Xoşbəxt insanların bahar ömründə
On səkkiz yaşınız qayıdır geri...

*1976*

## ÇAĞIR

*Xalq şairi Süleyman Rüstəmə*

Nə zaman ki, könlün düşdü tufana,
Süleymanı, Süleymanı çağır sən.
Hər kəlməsi bir məlhəmdir insana,
Süleymanı, Süleymanı çağır sən.



Arzuların dilə gəlib dinəndə,
Qoyma sönə nə dumanda, nə çəndə.
Əgər zaman od qalasa sinəndə,
Sülyemanı, Süleymanı çağır sən.

Təbriz üstü Miyanadı sevgilim,
Sorma yolun hayandı, sevgilim?
Yolum burdan oyanadı, sevgilim.
Süleymanı, Süleymanı çağır sən.

Birgə keçək bu yolları, izləri,
Alovladaq kül altdakı gözləri.
Xonça tutub yenə Təbriz qızları,
Süleymanı, Süleymanı çağır sən.

Qalxaq bir də Savalana, Səhəndə,
Yol eyləyək Marağaya, Mərəndə.
Həsrətləri sən görüşən görəndə
Süleymanı, Süleymanı çağır sən.

Enək Şibli gədiyindən Təbrizə,
Həsrətsiz yollara gül düzə-düzə.
Sevgililər dayananda üz-üzə,
Süleymanı, Süleymanı çağır sən.

Bir torpaq üstündə doğulmuşuq biz
Bir qolum Bakıdır, bir qolum Təbriz.
Pişvaza çıxanda şairlərimiz
Süleymanı, Süleymanı çağır sən.

Ağsaqqal şairlər dayansın öndə,
Silinsin illərdən duman da, çən də.
Həsrət çəkdiyimiz belə bir gündə
Süleymanı, Süleymanı çağır sən.

Mən də nəğmələrdən bir dəstə tutum,
Ürəyim doludur, onu ovudum.

Bizsiz qala bilmir nigaran yurdum,
Süleymanı, Süleymanı çağır sən.

Ömrümüz vüsaldan şərbət içəndə,
Həsrətdən vüsala yollar keçəndə,
"Dumanlı Təbriz"dən duman köçəndə,
Cənub dərdli o insanı çağır sən,
Süleymanı, Süleymanı çağır sən.

*1982*

## HƏYATDAN İSTƏYİM

Birce içimlik su, bir ovuc torpaq,
Bir çinar kölgəsi bəs edər mənə.
Bir lətif bənövşə, bir yaşıl yarpaq,
Həzin bir ney səsi bəs edər mənə.

Bir sünbül dənəsi, bir aydın səma,
Bitməz bir xatirat bəs edər mənə.
Bir həsrətsiz ömür, bir sonsuz vəfa,
Bir ömürlük həyat bəs edər mənə.

Bir körpə gülüşü, bir toy sədası,
Bir dost sədaqəti bəs edər mənə.
Bir qaranquş səsi, bir yaz havası,
Bir də el şəfqəti bəs edər mənə.

*1969*

## YER ÜZÜNDƏ BİR EVİM VAR...

Yer üzündə bir evim var
Pəncərəsi günəşə.
Nəğmə deyib, quşlar qonar
Pəncərəmə həmişə.
Yer üzündə bir evim var,



Min zəhmətlə qurmuşam.
Ordan iki körpə qartal
Böyüdüb uçurmuşam.
Yer üzündə bir evim var,
Ocağı daim yanır.
Onun sönməz şöləsindən
Ürəyim işıqlanır.
Yer üzündə bir evim var,
Xatirələr məskənim.
İlqarında düz olana
Açıqdır qapım mənim.
Yer üzündə bir evim var,
Orda neçə illərdir,
Taleyi bir, arzusu bir
İki şair ömr edir.
Yer üzündə bir evim var,
Orda qəmim, sevincim.
Ordan gedər əlçatmayan
İllərə ömür köçüm.
Yer üzündə bir evim var,
Sanki xəyala dalmış.
O, mənimçün ən müqəddəs,
İsti aşiyan olmuş.
Yer üzündə bir evim var,
Batmaz tufanlar ona.
Bünövrədən bağlıdır o,
Bu vətən torpağına,
Bu vətən torpağına.

*1980*

## AİLƏ KİÇİK BİR DÜNYAYA OXŞAR

Həyatı əyləncə sanma sən nahaq,
Bu gün yuva qurdun, sabah dağıtma.
Qəlbinin sözünə qulaq as, ancaq
Hər ötəri sözlə sevgini atma.

Sevgi bir ömürdür, günlər naxışı
Naxışlar qara da, ağ da olur, bil.
Əsl məhəbbətin bilinmir yaşı,
O hər qasırğadan dağılan deyil.

Sevdim, indi artıq sevmirəm deyib,
O sevgi adına ləkə salma sən.
Gözünə aldanıb, üzdən bəyənib,
Yəqin ki, ürəkdən heç sevməyibsən.

Sevsəydin, sevgidən yapışıb bərk-bərk
Qalxardın həyatın naxışlarını.
Sən "yaz yağışına yozaydın gərək
Ötəri ər-arvad savaşlarını"...

Fəqət aciz oldun bu döyüşlərdə sən,
Bu, həyat döyüşü deyildir, düzü.
Vətən də, oba da, el də, bil hökmən
İlkin ailədə sınayıb bizi.

Ailə kiçik bir dünyaya oxşar,
Əməklə, inamla ucalar o da.
Onda qəm də yaşar, sevinc də yaşar,
Qayğısız ailə olmur dünyada.

Sevdim, indi artıq sevmirəm deyib,
O sevgi adına ləkə salma sən.
Gözünə aldanıb, üzdən bəyənib,
Yəqin ki, ürəkdən heç sevməyibsən.

*1974*

## BİR TARA BƏNZƏYİRƏM

Hər simi min nəğməli,
Bir tara bənzəyirəm.
İstəsən, gəl çal məni.
Şəfqətdə, məhəbbətdə



Bahara bənzəyirəm,
Sanma bir xəyal məni.

Bir elin həsrətindən
Səsim gah zilə qalxır,
Eşidir dağlar məni.
Qəlbimi coşan görüb
Elə bil ki, çağırır
Coşqun bulaqlar məni.

Bəzən bəmdə yurd salıb
Fikirimlə danışıram,
Dinləyir könlüm məni.
Xəyalən quşa dönüb
Uca dağlar aşıram,
Görsün öz elim məni.

Əsir başımın üstən,
Hərdən soyuq, sərt külək,
İstəyir yıxsın məni.
İstəyir buz əliylə
Xəzan yarpaqları tək
Vurub dağıtsın məni.

Bir dağ timsalındayam,
Bağlıyam bu torpağa,
Tanıyır ellər məni.
Qoy çapsın sola, sağa –
Yenə məhv edə bilməz
Əsən o yellər məni.

Yurdumun hər daşında
Ayağımın izi var.
Tanıyır yollar məni.
Yəqin dərdi, sözü var,
Səsləyir anam kimi
O sel, o diyar məni.

Göydən çəni, dumanı
Şəfəqlərlə silərəm.
Əyməz ölüm, dar məni,
Neçə darda qalanın
Köməyinə gələrəm,
Ellər tanıyar məni.

Həyatda adi haldır,
Qara saçım olur ağ;
Tərk edir bahar məni.
Sən gəl qəlbimdə açan
Arzuya, ümidə bax.
Ümid yaşadar məni,
Arzu yaşadar məni.

*1964*

## HƏR OBADA BAYRAM OLA

Nə yaxşıdır yaz yağışı içində
Bənövşələr ürpək-ürpək yuyuna.
Boz buludlar göy üzündən köçəndə
Dağ laləsi kaş vüqarla dayana.

Nə yaxşıdı duman keçə, çən keçə,
Şəfəqlərdən naxışlana dərə, düz.
Ayrılığın tufanına düşüncə,
Həsrət nədi heç bilməyə qəlbimiz.

Nə yaxşıdır çinarların sırası,
Sanki körpə əlləridir yarpaqlar.
Bir çinar da olsa torpaq ayrısı,
Bu həsrətə çəmən ağlar, çöl ağlar.

Nə yaxşıdır şitilliklər çoxala,
Başdan-başa göylər tamam durula.



Dan sökülə, qaranlıqlar dağıla,
Hər obada bayram ola, toy ola.

Nə yaxşıdır ayrılanlar görüşə,
Dönməyələr yurdsuz quşa insanlar.
Nə yaxşıdır yer üzünə gün düşə,
Ölkə-ölkə qardaşlaşa insanlar.

Nə yaxşıdır sarı sünbül zəmisi,
Dalğalana, ətir yaya hər yana.
Süd qoxulu körpələrin nənnisi,
Qızıl rəngli şəfəqlərə boyana.

Nə yaxşıdır hey çağlaya bulaqlar,
Nəğmə-nəğmə ömrə, günə qovuşaq.
Kitab-kitab söz bağlaya bulaqlar,
O nəğməli bulaqlarla yarışaq.

Nə yaxşıdır ayın sirli gecəsi,
Qaçaq düşmüş yuxuların qayıda.
Dan sökülə, körpə quşların səsi
Bizi səhər yuxusundan oyada.

Nə yaxşıdır maviləşə dünyamız,
Qan-qadadan dünyamızı qoruyaq.
Yer kürəsi çox övladlı anamız,
Anamızı, anamızı qoruyaq...

*1978*

## ATAMIN MƏKTUBUNA CAVAB

Ata, əzizim ata,
Məktubun gəldi, çatdı.
Ürəyimdə nə qədər
Xatirələr oyatdı...

Oxudum hər cümləni,
Hər sözü dönə-dönə.
Elə bil qulaq asdım
O qayğılı səsinə.
Elə bil ki, əllərin –
Saçımda gəzdi, ata.
Bizi həsrət qoymağa
Üzü dönmüş ayrılıq
Yaman tələsdi, ata.
Söylə, mən necə susum
Necə ovunum, ata.
Gözlərin yolda qalıb
Qurbanın olum, ata.
Oxudum məktubunu,
Hər kəlmədə qəlbinin
Vurğusunu eşitdim.
Anamın üsyan dolu
Sualını eşitdim,
Balasından aralı
Kim dözər, siz dözdünüz.
Günləri həftə-həftə,
Ay-ay sapa düzdünüz...
Aylar da gəldi keçdi,
İllər də, işə bir bax.
Gözünüz yorulmadı,
Yollara baxdı ancaq.
Oxudum məktubunu,
Yazırsan "təzə ağac
Əkmişəm neçə-neçə.
Yəqin çiçəkləyəcək,
İnşallah, sən gəlincə"...
Yazırsan "sən gedəndə
Baba deyildim hələ.
İndi babayam, qızım.
Baxanda uşaqlara
Düşünürəm ki, özüm –



Bir el-obayam, qızım"...
Mənim mehriban atam,
Gücüm çatmır səndəki
O dərya ülviyyətə
Mən nəğmələr yaradam.
Hər sözündə bir ümid,
Hər cümləndə inam var.
Ümid, inam olmasa,
Necə yaşayar görən
Yer üzündə insanlar!
Nə yaxşı ki, ümid var-
O mənə dayaq oldu...
Təlatümlü yollarda
Yapışıb əllərimdən
Yolumda çıraq oldu...
Daşlı-kəsəkli yollar
Əzsə də ayağımı,
Qaldırım başım üstə
Mən arzu bayrağımı.
Yormadı yollar məni,
Dayanmadım yarıda.
Bu həyat yollarında,
Qarşıladım can ata,
Qışı da, baharı da...
Bu inamı, bu səbri
Səndən öyrəndim, ata.
Gül açdı arzularım
İradəmin qüdrətli
Əlindən tuta-tuta...
Oxudum məktubunu,-
Azaldı yanğım mənim.
Bu əl boyda kağızlar
Darıxanda, inan ki,
Oldu dayağım mənim.
Yazırsan ki, "ömrümün
Ötdü altmış beş yazı,

Çatdı altmış beş qışı.
Saçımda, saqqalımda
Bu illərin naxışı" –
Sonra yenə ümidlər,
Sonra yenə təsəlli...
Can ata, nəyə gərək
İndi mənə təsəlli?
Mən səndən ayrılanda
Sən mən yaşdaydın, ata.
Mən də yaşadım, ata,
Sən də yaşadın, ata.
İnandıq babaların
Hikmət dolu sözünə.
Qalib gəldik neçə yol
Ölümün də özünə.
Arabir kövrəlsən də,
Qınamaz heç kəs səni.
Əsla söndürmək olmaz
Bu ata şəfqətini,
Ata məhəbbətini.
Yazırsan, "o sevdiyin
Nərgizə, bənövşəyə
Qoymuram soyuq əllər,
Soyuq nəfəslər dəyə".
Yazırsan, "ananın da
Qoymuram bir yol belə
Saçı hənasız qala.
Küskünlük nəyə gərək,
Dost-düşmən var, ay bala.
Eşidirəm dünyanın
Yaxşısını, pisini.
Eşidirəm mən yenə
Haqqın böyük səsini.
Dünyanın sabahına
Ürəkdən inanıram.
Bu inamla, ay qızım,



Sanki, cavanlaşıram..."
Oxudum məktubunu,
Bu iradən, inamın,
İlhamım oldu, ata.
Sahilsiz arzulardan
Sahili görünməyən
Nəğmə doğuldu, ata.
Hər şeirdə, nəğmədə
Vətəni, eli andım,
Ata yurdunu andım,
Elimin, vətənimin
Sabahına inandım,
Sabahına inandım.

*1971*

## NARAHAT DÜNYA

Narahatdır insanlığın ürəyi,
Pozulubdur rahatlığı dünyanın.
Günəş içmək istər gülü, çiçəyi,
Çəməni, bağçası, bağı dünyanın.

Haqq yolunda bənzəsək biz selə də,
Qovuşsaq da neçə aya, ilə də,
Sağalmayıb, sağalmayıb hələ də
Sinəsində çarpaz dağı dünyanın.

Sülh düşməyir bircə an da dilimdən,
Bu tufanlar silinməyib yolundan.
Haray çəkir nadanların əlindən,
Haray çəkir solu, sağı dünyanın.

Balası var neçə-neçə biçimdə,
Arzuları gül açmasın neçin də.

Rəvamıdır bircə anın içində,
Dağılsın sütünü, tağı dünyanın.

Çatsın səsim milyon qıza, oğula,
Hökmü verək işıq saçan ağıla.
Gəlin, gəlin qoymayaq biz dağıla
Ömrünün bu gözəl çağı dünyanın.

Narahatdır insanlığın ürəyi,
Pozulubdur rahatlığı dünyanın.
Günəş içmək istər gülü, çiçəyi,
Çəməni, bağçası, bağı dünyanın.

*1983*



# Əbədiyyət nəğməm

## SEVİNCİM, KƏDƏRİM

Sevincim dünyaya sığmayır bəzən,
Sanki sevincimə qərq olur aləm.
Bir dünya qəmimi, nisgilimi mən
Bəzən də olur ki, tənha çəkirəm.

Bəzən qəhqəhəmdən göylər də gülür,
Yağış nəğməsini oxuyur yazın.
Bəzən çəkilərəm könül dünyama,
Odlu göz yaşımı görən olmasın.

Bəzən oxşayıram körpə gülləri,
Güllərin ləçəyi pardaqlanırlar.
Güllər sığınanda isti sinəmə
Özünü analı körpə sanırlar.

Qibtə eləyirəm güllərə bu an,
Gözümdə yaş donur, iki damla yaş.
Deyirəm anamın isti köksünə
Nə ola, bircə yol sığınaydım kaş.

Bəzən söykənirəm bir sal qayaya,
O, sanır özünə həsbhal məni.
Ötən əsrlərə qulaq asdıqca,
Aparır ardınca bir xəyal məni.

Bəzən körpə quşlar qapıma qonur,
Bəzən mən qururam quşlara yuva.
Nəyəsə, kiməsə gərək olduqca,
Sevinir könlümdə, gözümdə dünya.

Bəzən bağçaların yarpaq tökümü
Qəlbimə həzinlik gətirir mənim.
Dolub boşalıram buludlar kimi,
Sanıram, saralır ömür çəmənim.

Bir xoşbəxt ananın laylay səsindən
Sevincimin sanı birdi, yüz olur.
Yox, elə sevinir, sevinirəm ki,
Sevincim sahilsiz, sahilsiz olur.

Bir ana görürəm, bəzən üzündə
Həsrət naxış salıb, həsrət iz salıb.
O şəvə saçlarda zamanın əli
Bəyaz yollarını necə tez salıb.

İtər rahatlığım, itər dincliyim,
Fikrimin çaları neçə rəng olar.
Belə bir aləmdən ayılsam əgər,
Mənə üsyan edən bu ürək olar...

Sevincim, kədərim həyatdan gəlir,
Bunlarsız ömrüm də olar quru səs.
Bunlarsız ürəyim susar əbədi,
Ağlaya da bilməz, gülə də bilməz.

*1976*

## ƏBƏDİYYƏT NƏĞMƏM

Arzular çeşid-çeşid,
Arzular rəng-rəng olur.
Arzu var hay-haraylı,
Arzu var kövrək olur.
Mənim azadlıq arzum
Hər arzumdan uludur.
Mən arzumun əsgəri
Yolum döyüş yoludur...

Mən ölmək istəyərdim,
Sıldırım qayalarda –
Hər qaya səngər olsun.



Mən ölmək istəyərdim,
Tufanlı dəryalarda –
Mənə matəm saxlayan
Coşqun ləpələr olsun.

Mən ölmək istəyərdim,
Ağ çalamlı dağlarda,
Dağlar başdaşım olsun.
O haraylı dağlarda,
O havalı dağlarda
Əbədi yaşamaqçün
Həyat savaşım olsun.

Mən ölmək istəyərdim,
Qoynunda meşələrin.
Hər yarpağa, hər gülə
Sinəmin qanı düşsün.
Yaralı lalələrin
Körpə bənövşələrin
O yol çəkən gözləri
İlk baharla görüşsün...

Mən ölmək istəyərdim –
Qorxulu dərələrdə.
Qıy vurum harayımdan
Göylər lərzəyə gəlsin.
O xəyallı, sehrli,
Yuxulu dərələrdə,
Son anda, son ləhzədə
Vüsal üzümə gülsün.

Mən ölmək istəyərdim,
Günəşə, suya həsrət.
Çəmənim, çölüm üçün,
Mən ölmək istəyərdim.
Yol çəkən baxışları
Şirin yuxuya həsrət
Vəfalı elim üçün.

Mən ölmək istəyərdim,
Qocaman çinar kimi
Əyilməyim, sınım mən.
Mən ölmək istəyərdim...
Ölüm nədir ki, ona
Yalvarım, sığınım mən.

Mən ölmək istəyərdim –
Ərk olsun son yatağım,
Rahat-rahat uyuyum.
İstəyərdim döyüşdə
Keçsin döyüşmək çağım.
Öləndə də torpağa
Mən ağ üzlə baş qoyum.

Mən ölmək istəməzdim
Adi ölənlər kimi.
Buna yox haqqım mənim,
Mən gərək ölümümlə
Doğam bir səhər kimi.
Şəfəqlərə bürünə
Yanan torpağım mənim,
Yanan torpağım mənim...

*1970*

## ARZULARIM, ÜMİDLƏRİM

Ömrüm payız ilə, qış arasında,
Yol saldım dağ ilə, daş arasında.
Ömrüm deyil gözlə qaş arasında,
Mənim arzularım, ümidlərimdir.

Yağış sevdasıyla dolan buludlar,
O hünər yazılı ünvanlar, adlar,
Torpağın köksündə cücərən otlar,
Mənim arzularım, ümidlərimdir.



Aylara, illərə həmsəfər olan,
Aylara, illərə körpülər salan,
İlhamı, şəfqəti ellərdən alan
Mənim arzularım, ümidlərimdir.

Bir gəlin ananın sevgi dünyası,
Bir körpə balanın şirin röyası,
Bəhərli bağların payız xonçası
Mənim arzularım, ümidlərimdir.

Vətənin çağlayan buz bulaqları,
Vətənin bal dadan öz bulaqları,
Vətənin tükənməz söz bulaqları
Mənim arzularım, ümidlərimdir.

Göylərin ulduzlu, aylı aləmi,
Yerdə yaşıl tarla, kəhrəba zəmi,
Dalğalar qoynundan yol açan gəmi
Mənim arzularım, ümidlərimdir.

Ömrümün tufanlı, yağışlı yolu,
Narahat günlərdən naxışlı yolu,
Ömrün daşlı yolu, yoxuşlu yolu
Mənim arzularım, ümidlərimdir.

Nanəli, mərzəli, reyhanlı ləklər,
Qövsi-qüzehlərdən süzülən rənglər,
Vətən göylərində çaxan şimşəklər
Mənim arzularım, ümidlərimdir.

Güllərin üstündə şehlərdən inci,
O uca dağlara qalxan el köçü,
Bir həsrət ürəyin vüsal sevinci
Mənim arzularım, ümidlərimdir.

Çöllərin, düzlərin zümrüd paltarı,
İnsanın insana əhdi, ilqarı,
Quşların vətənə dönən qatarı
Mənim arzularım, ümidlərimdir.

Üzümə açılan hər aydın səhər,
Nəğməmə nur çilər, qol-qanad verər.
Saçıma tökülən bu ağ çiçəklər
Mənim arzularım, ümidlərimdir.

Ömrüm payız ilə, qış arasında,
Yol saldım dağ ilə, daş arasında.
Ömrüm deyil gözlə qaş arasında,
Mənim arzularım, ümidlərimdir.

*1979*

## TELEFON XƏTLƏRİNDƏ

Telefon xətlərində bir səs düşdü dünyaya
Telefon xətlərində birləşdi ana, bala.
Bir ananın səsindən sanki üşüdü dünya,
Bir balanın səsindən göy ağladı az qala.

Fırtınalı sinəmdə neçə söz, neçə nida,
Telefon xətlərində anamı harayladım.
Fırtınalı sinəmdən yol saldım doğma yurda,
Dolandım o yerləri elə bil addım-addım.

Anam sakit dəryaydı, dərya lərzəyə gəldi,
Telefon xətlərində danışdı dəryam mənim.
Fəqət onu bildim ki, belə coşqun deyildi,
Otuzillik həsrətə tablaşan anam mənim.

Anam sakit dəryaydı, susa bilmədi artıq,
Dərya tüğyana gəldi, dalğalar şahə qalxdı.
Telefon xətlərində dalğalandı hıçqırıq,
Telefon xətlərinə göz yaşımız da axdı.

Telefon xətlərində arzu, ümid, gümanla
Dedi, qoy saçlarını oxşayım bir də, bir də.
Anam döyüşə girdi elə bil ki, zamanla,
Səsi ilişib qaldı telefon xətlərində...



Otuzillik həsrətin bir anlıq şərbətini
Telefon xətlərində anam içdi, dedilər.
Bir inamla, gümanla hələ öpməmiş məni,
Sona çatdı vaxtınız, gecdi, gecdi, dedilər.

Sona çatdı, nəhayət, telefon görüşümüz,
Elə bil ki, qəriblik yayıldı yer üzünə.
Görüşərkən təzədən ayrılmalı olduq biz,
Anam da, mən də sonsuz nağıla döndük yenə...

*1977*

## ÇAĞLA, ARAZIM, ÇAĞLA

Sularında damlanam,
Başına mən dolanam.
Həsrət çəkmiş balanam,
Çağla, Arazım, çağla.

Söndürmədin odumu,
Qismətimiz budumu?
Dağıt qəm buludumu,
Çağla, Arazım, çağla.

Nə acıymış həsrətin,
Nə şirinmiş şəfqətin.
Səni unutmaq çətin,
Çağla, Arazım, çağla.

Dənizlər bizdən desə,
Kəhrizlər bizdən desə,
Sən də susma bir ləhzə,
Çağla, Arazım, çağla.

Ey arzumun məbədi,
Eşit qəlbi həsrəti.

Laylayım ol əbədi,
Çağla, Arazım, çağla.

Al şəfəqə boyanım,
Ey arzumu duyanım,
Sularında yuyunum,
Çağla, Arazım, çağla.

İlk bahar elçim olsun,
Quşlar xəbərçim olsun.
Hər arzumuz çin olsun,
Çağla, Arazım, çağla.

Apardı xəyal məni,
Səsləyir vüsal məni.
Sinən üstə al məni,
Çağla, Arazım, çağla.

Qalmayım tamarzıtək,
Nə qışı, nə yazı tək.
Ələsgərin sazıtək,
Çağla, Arazım, çağla.
Çağla, Arazım, çağla.

*1977*

## SİZƏ UĞURLAR DEDİM

Mən sizi ürəyimin başında gəzdirmişəm,
Mən sizə ürəyimin atəşini vermişəm.
Ömrümün mənasını sizdə, sizdə görmüşəm,
Ay mənim gah ağlayan, gah gülən nəğmələrim.

Siz mənim qanadlarım olmusunuz hər yerdə,
Sizə uğurlar dedim bir uğurlu səhərdə.
Yaşarsınız nə qədər doğma xatirələrdə,
Ay mənim gah ağlayan, gah gülən nəğmələrim.



Bir körpənin gülüşü bal dadıbdır sizinçün,
Bəzən təşnə insana su oldunuz bir içim.
Yanmısınız bir həsrət anaya için-için,
Ay mənim gah ağlayan, gah gülən nəğmələrim.

Dağlar qızıl lalədən bir qızıl don biçəndə,
Yaşıl cığırlar boyu el yaylağa köçəndə,
Haldan-hala düşərsiz siz də bir an içində,
Ay mənim gah ağlayan, gah gülən nəğmələrim.

Nağıllaşan çöllərdə dönərsiniz nağıla,
Gəzib dildə, ağızda bənzərsiniz noğula.
Qoymaram düzümünüz ayrı düşə, dağıla,
Ay mənim gah ağlayan, gah gülən nəğmələrim.

Dünyanın sevincindən pay düşübdür sizə də,
Hay verdiniz bir kövrək, bir inadlı sözə də,
Dünyanın dərdlərindən düşdüz oda, közə də,
Ay mənim gah ağlayan, gah gülən nəğmələrim.

Hər kiçik vurğunuzda havası var vətənin,
Sizi başsız küləklər əyərmi, çətin, çətin.
Tərcümanı oldunuz bir xalqın, bir millətin,
Ay mənim gah ağlayan, gah gülən nəğmələrim.

*1978*

## BİR DƏ YUXULARDA GÖRÜŞMƏYƏK BİZ...

Yuxuma gəlirsən tez-tez ay ana,
Yuxumdan aşkara çıxıb, gələydin.
Səndən uzaqlarda qalan balana
Çöllərdən ot-ələf yığıb, gələydin.

Sərəydim sinəmə ələfi, otu,
Əlinin ətrini duyaydım bir də.

Yandırıb sinəmi ayrılıq odu,
Ömrümün baharı gül açan yerdə.

Gündüzüm nigaran, gecəm nigaran,
Hərasan yuxuma gələnim ana.
Olmuşam fikrimlə yolları yoran,
Ay mənim dərdimi bilənim, ana.

Ümid bir gözümdə, qəm bir gözümdə,
Ağlayıram olmur, gülürəm olmur.
Heyrətdə qalmışam inan, özüm də,
Gözlərim bir an da yoldan yığılmır.

Ömrün zülmətlərdə keçir yenə də,
Ayağın altında yanır torpaq da.
Arzun açılmamış qaldı sinədə,
Sənə bir yük oldu bu yaşamaq da.

Bilmədin nə idi günahın görən,
Hey fərman verildi "günahlarına".
Hardaymış, hardaymış allahın görən,
Qaranlıq çökəndə sabahlarına!?

Mən işıq gəzirəm sənə, ay ana,
Mən işıq gəzirəm o çölə, düzə.
Mən işıq gəzirəm laylalarına,
Arzumu yollara hey yaza-yaza...

Körpə balalara işıq gəzirəm,
Bu yolda nə qədər havadarım var.
Yenə inanıram, mən müntəzirəm,
Çıxacaq işığa darda qalanlar.

Mən işıq gəzirəm, hey alovlansın,
Yollara nur səpsin, gülsün ömrümüz.
Mən işıq gəzirəm, əbədi yansın,
Bir də yuxularda görüşməyək biz...

*1984*



## ƏS, EY YAZ KÜLƏYİ

Nə ola, dönəydim ötən illərə,
Nə ola, qalxaydım dağlara bir də.
Nə ola, qarışıb tər şitillərə
Təzədən açaydım geniş çöllərdə.

Ömrümün payızlı dünyasına kaş
Ömrümün baharı gələ biləydi.
Mənə yaz küləyi olaydı yoldaş,
Bəxtimin ulduzu gülə biləydi.

Gəzəydim Təbrizi küçəbəküçə,
Bir də yaşayaydım o çağları mən.
Yığaydım dövrəmə mən bircə-bircə,
O cığal, o dəcəl uşaqları mən.

Çoxlu şeir deyib bəhsə girəydik,
Uca qələmələr nəğmələnəydi.
Yaşıl bağçaları sevindirəydik,
Quşlar yuvasına uçub dönəydi.

Bir az nənəmizin nağıllarından,
Söhbətlər açaydıq biri-birinə.
Babaların igid oğullarından,
Dastan danışaydıq qürurla yenə.

Bir az özümüz də nağıllaşaydıq,
Ürəkdə qəhrəman olmaq arzumuz.
Bir az igidləşək, oğullaşaydıq,
Duraydı cərgəyə uşaq ordumuz.

Yolları yoraydıq bir an içində,
Nə ola, qan-tərə bataydıq yenə.
Axşam qaş qaralıb günəş köçəndə,
Qayıdıb gələydi hər kəs evinə.

Ata qayğıları, ana şəfqəti
Uşaq ömrümüzə zər səpəydi, zər.
Döndərib şərbətə doğma şəfqəti
Kaş ki, bir də bizə içirəydilər...

Yanımızdan külək keçdimi, gərək,
Dalaşaydı körpə bacı, qardaşlar.
Gözümüzün yaşı quruyanadək
Barışaydı körpə bacı, qardaşlar...

O gündən bir sinə xatirat qalmış,
O günə qovuşmaq həvəsim artar.
Əs, ey yaz küləyi, əlimdən yapış,
Məni o əlçatmaz dünyama qaytar...

Qovuşum uşaqlıq adlı dünyama,
Açılsın könlümün qaşı, qabağı.
Əs, ey yaz küləyi, məni qınama,
Hər kəsə şirindir uşaqlıq çağı...

Sadəcə xatirat deyilsiz, axı,
Ey mənim analı keçən illərim.
Dağ *selləri kimi* çağlayıb, *axıb*,
Ömrümdən, günümdən köçən illərim...

*1977*

## ÇİNAR OLAYDI XİTABAT KÜRSÜMÜZ

45-ci il idi.
Bahar qoxulu,
inqilab duyğulu il.
Möhrə divarlar da,
Kərpic evlər də
sevinirdi.



Çəkilən dumanların yerinə
qapıya, pəncərəyə
pillə-pillə
günəş enirdi.
Elə bil
küçələrin sinəsinə yazılmışdı
şadlıq.
Vətənin hər yerinə
azadlıq gəlirdi,
azadlıq!
O zaman
nallı çəkmələrimin
səsini eşidirdi yurdum.
Qəlbimdə
qızıl köynəkli,
milyon biləkli
inqilabın
odlu nəfəsini duyurdum.
Yazı masam
bir parça daş idi,
yatağım tozlu səngər.
Hər şeydən keçərəm
indi,
o günümü qaytarsalar əgər.
*Xitabat kürsümüz*
bir çinar ağacı idi.
Nitqimizdən çox idi
işimizin silqəti.
Qanımız bahasına aldıq
o torpağı, o suyu,
o səadəti...
Xitabət kürsümüz
bir çinar ağacı idi.
Neçə vətən oğlu
oradan danışdı,
mətin-mətin.
Danışdı taleyini

dili bağlı bir millətin.
Fəhləyə dəzgah,
kəndliyə torpaq verdik.
Nitqimiz qısa oldu,
biz dərdli ürəkləri,
solğun çöhrələri
sevindirdik.
Yel qanadlı
çaparlarımız vardı.
Neçə telefona,
düyməli zəngə,
daha nəyə, nəyə
dəyərdilər.
Danışan baş qərargah idi,
Cavab verən səngər.
Xəbərlər
təkərlər üstündə
yəhər qaşında idi.
Hamı
Azadlıq döyüşündə,
vəzifə başında idi.
Azadlıqçın
oddan, alovdan keçərdi
fədailər,
təki əllərindən
alınmayaydı
döyüşmək haqqı,
bir də tozlu səngər.
Xitabət kürsümüz
çinar ağacı idi.
Qalxdıq,
and içdik.
Endik,
andımıza əməl etdik.
Biz cəbhəyə, düşmənlə
döyüşə getdik.
Getdik,



Gəlinlərin, qızların
sevincini qaytaraq özünə.
Qoymayaq duman çökə
Xətibin,
Saibin Təbrizinə!
İllər keçib...
Deyirəm, kaş
indi də çinar ağacı olaydı
xitabət kürsümüz.
Kürsüdən enib,
əməl edə biləydik
andımıza, sözümüzə biz.
Çinar ağacı olaydı
xitabət kürsümüz...

*1966*

## DİZLƏRİM ƏYİLSƏ

Ömrün bahar çağı tufanda keçdi,
Nə bir yol tövşüdüm, nə dizim əsdi.
Gəncliyim sürgündə, zindanda keçdi,
Dəstbəndlər, zəncirlər qolumu kəsdi.

Dözdüm mən hər şeyə qəlbimdə vulkan,
Dilimdə qanadlı nəğmələr gəzdim.
Boynumda şahların verdiyi fərman,
Gözümdə açılan bir səhər gəzdim.

Gəzdim, daşlar əzdi ayaqlarımı,
Alnımda zamanın izləri qaldı.
Bəzən tiksələr də dodaqlarımı
Nəğməmi susdurmaq dedim mahaldı.

Çiynimdə bir dünya dərdin siqləti,
Dizlərim əyilsə kəsərəm, dedim.

Qəlbimdə xalqımın eşqi, şəfqəti,
Torpağın önündə fəqət əyildim.

Mən ana olsam da anam torpağın
Önündə baş əymək adətim oldu.
O doğma obanın, doğma ocağın
Yolunda döyüşmək qismətim oldu.

Döyüşmək! Nə qədər güclüdür bu səs!
Döyüşdüm könlümcə gülmək eşqinə.
Qıy vurdum, səsimi eşitdi hər kəs,
Döyüşdüm şərəflə ölmək eşqinə.

Döyüşdüm, kamımca torpaq becərim,
Qövsi-qüzeh olsun göyün kəməri.
Bir də yarpaq açım, bir də cücərim,
Təzə nəğmələrlə açım səhəri.

Döyüşdüm mən haqqım, həyatım üçün,
Dözdüm hər əzaba, hər işgəncəyə.
Döyüşdüm qırılmaz qanadım üçün,
O, məni göylərə qaldırsın deyə...

O döyüş yolundu, tufanlı çağda
Nə yorulmaq bildim, nə də tövşümək.
Fəqət günlər keçir rahat otaqda
Görən niyə belə tövşüyür ürək?

Bəli, tövşüyürəm, tükəndi səbrim
Dəniztək lal durdum mən coşmaq üçün.
İstərəm döyüşdə keçə günlərim
Yurduma, elimə qovuşmaq üçün.

İstərəm qəlbimin ağrılarına
Səngər tozlarından bir məlhəm qoyam.
Üfüqlər girdikcə qızıl bir dona
Dincələm, kamımca nəğmə oxuyam...

*1964*



## DÖZƏ BİLMƏSƏM DƏ

*Oğlum Araza*

İlk dəfə arxanca su atdım, oğul,
Getdin, evimizə həzinlik doldu.
Yatmış həsrətimi oyatdım, oğul,
Yenə ana qəlbim halbahal oldu.

İlk dəfə süfrədə yerin göründü,
İlk dəfə xörəyin bilmədim dadın.
İlk dəfə...
eh sənə nə deyim indi,
Məni qınamazdın ata olsaydın.

Üz-üzə dayandı hiss ilə ağıl,
İlk dəfə hissimi boğdum özüm mən.
Kamil görmək üçün səni, ay oğul,
Dedim, ayrılığa gərək dözüm mən.

Dedim, get həyatı öyrən dərindən,
Yoxla dönə-dönə hər cücərtini.
Hali ol torpağın öz sirlərindən,
Qoy torpaq böyütsün, ucaltsın səni...

Dedim, get, qəlbimdə arzular rəng-rəng,
Təbiət nə nağıl, nə həvəs olsun.
Gördüyün hər yarpaq, hər ot, hər çiçək,
Sənə təzə məktəb, təzə dərs olsun.

Dözə bilməsəm də sənsiz bircə an,
Sən get öz arzunun dalınca, oğul.
Get, qorxma həyatın yoxuşlarından,
Get, kamil bir insan olunca, oğul.

Varaqla kitabtək bu torpağı sən,
Canlı da, cansız da sözlə doludur.
Zəhmətə əyilsən, yüksələcəksən,
Torpaq ən müqəddəs həyat yoludur...

Təki bu vətənə, bu elə yara,
Yüz həsrətim olsa dözərəm, inan.
Dincliyi sən işdə, hünərdə ara,
Get, qorxma həyatın imtahanından...

*1972*

## BİRLİK İSTƏYİRƏM

Bir gülşən istəyirəm,
Çiçəkləri təzə, tər-
Hüsnünü soldurmasın
Vaxtsız əsən küləklər.

Bir xırman istəyirəm,
Tər tökəm, dərz bağlayam.
Bir bulaq istəyirəm
O axa, mən çağlayam.

Bir ömür istəyirəm,
Vüsal ilkin qonağı.
Bir sinə istəyirəm
Onda yox hicran dağı.

Bir dünya istəyirəm,
Qələm çəkə möhnətə.
Sülh bayrağı bəxş edə
Bütün bəşəriyyətə.

Bir nəğmə istəyirəm,
Nəğmələrə baş ola.
Yer üzündə kaş hamı,
Dost ola, qardaş ola.

Bir vüsal istəyirəm,
Anama çatmaq üçün.
Yaşamaq istəyirəm
Sabahkı günlərimdən
Nəğmə yaratmaq üçün.

*1963*



## ÇALINMAMIŞ TOYLARIM VAR...

Mən istərəm o dağlarda keçməyə,
Kaş yarıda qalmayaydı bu yollar.
Əyilib buz bulaqlardan içməyə
Kaş yarıda qalmayaydı bu yollar.

Savalanın zirvəsi qar olar hey,
Zaman-zaman orda duman qalar hey.
Mən getməsəm, bənövşələr ağlar hey,
Kaş yarıda qalmayaydı bu yollar.

Biçənəklər ellərimin həsrəti,
Aylarımın, illərimin həsrəti.
Bağım, bağçam yollarımın həsrəti,
Kaş yarıda qalmayaydı bu yollar.

Çalınmamış toylarım var o tayda,
Yaşanmamış aylarım var o tayda.
Deyilməmiş boylarım var o tayda,
Kaş yarıda qalmayaydı bu yollar.

Deyən yox, bu, sinən üstə nə közdü,
Ayrılığı taleyinə kim yazdı.
Loğmanım da, dərmanım da Təbrizdi,
Kaş yarıda qalmayaydı bu yollar.

Çaxılmayan şimşəklərdə gücüm var,
Tufanlarda, küləklərdə gücüm var.
Əyilməyən biləklərdə gücüm var,
Kaş yarıda qalmayaydı bu yollar.

Sellər, sular durulmasa, nə fayda,
O zəncirlər qırılmasa, nə fayda,
Durulası çaylarım var o tayda,
Kaş yarıda qalmayaydı bu yollar.

*1983*

## SƏSİMƏ SƏS VERƏR...

Ömrün yollarında yoxuşlar olar,
Əsla qorxutmayır yoxuşlar məni.
Arzum nə saralar, nə də ki, solar,
Döysə də tufanlar, yağışlar məni.

Kiçik bir damlayam, beşiyim ümman,
Bu böyük ümmana neyləyər tufan.
Bir an da döndərə bilməz yolumdan.
Nə o sərt qayalar, nə daşlar məni.

Səsimə səs verər vətənim, elim,
Həmişə nəğmələr deyəcək dilim.
Açıb zəmi-zəmi qızıl sünbülüm,
Hər səhər şəfəqlər naxışlar məni...

*1982*

## KÖNÜL DÜNYAM

Könül bir dünyadır – yazı, payızı,
Könlümdə fəsillər nəğmələnərlər.
Sahili bilinməz nə qədər arzu
Yenə pərvazlanıb, yenə dinərlər.

Könlüm bir dünyadır, çeşidli dünya,
Könlümdə gün doğar, yağar yağış da.
Könlümdə ucalar bir şirin layla,
Könlümdə dil açar bir körpə quş da.

Könlüm bir dünyadır – dumanı, çəni...
Könlümün səması boşalar, dolar.
Xəyallar ardınca aparar məni,
O duman da, çən də bir nəğmə olar.



Könlüm bir dünyadır – atəşi, odu,
Başsız külələri ram edər odum.
Könlümdə o gün ki, nəğmə doğuldu,
Sandım mən özüm də o gün doğuldum.

Könlüm bir dünyadır, narahat dünya,
Dəniztək kükrəyər, çağlayar dünyam.
Onu bənzətmərəm lal axan çaya,
Özündə dənizlər saxlayar dünyam.

Bu könül dünyamda fəsillər yaşar,
Sevgim fəsillərə bölünməz təkcə.
Sevgimdən dərə, dağ, düz yaşıllaşar,
Mən nəğmə deyərəm səsim gəlincə.

Könlümdə bir sevgi adlı dünyam var,
Vətən sevgisindən qurulan dünyam.
Keçsə də ömrümdən həftələr, aylar,
Bu ülvi dünyamdan çətin ki, doyam...

O sevgi yolumu işıqlandırıb,
O sevgi köməyim olubdur mənim.
O sevgi könlümdə işıq yandırıb,
Könlümdə əbədi qalıbdır mənim.

*1975*

## ELDƏN VÜQAR ALARAM

Təpədən yol salaram
Dağlara qalxmaq üçün.
Təbiəti sevirəm
Sadəcə baxmaq üçün.
Torpağa baş qoymaram
Yalnız dincəlim deyə.

Lazım gəlsə, gedərəm
Onun üçün ölməyə.
Darıxaram, dağınıq
Görəndə durnaları.
Göyə yaraşıq verir
Durnaların qatarı.
Qürub çağı istərəm
Mən susam, bulaq dinə.
Qulaq asam suların
Sonsuz hekayətinə.
Əlim gəlməz dərim mən
Hər çiçəyi, hər gülü.
Bənövşəni dərərəm
O körpə dayanmasın
Təki boynu bükülü.
Yalnız dənizdir deyə
Sevməyirəm dənizi.
Dincəlirəm sulardan
Qalxdıqca nəğmə səsi.
Eldən vüqar alıram
Təbiətdən şeriyyət.
Həyatı duya-duya,
Həyatı sevə-sevə
Nəğmə yazmışam fəqət...

*1974*

## QURBAN OLUM

Vətən, sənin sal qayana,
Boz daşına qurban olum.
Hamar yolların bir yana,
Yoxuşuna qurban olum.

Dağ başını alanda çən,
Bulud-bulud yağıb keçən,



Ətək-ətək dolu tökən
Yağışına qurban olum.

Ayrılıq dağ çəkdi mənə,
Vətən, deyib dözdüm yenə.
Sənin ana şəfqətinə,
Qarğışına qurban olum.

Səhərinə, axşamına,
Dadlı, şirin kəlamına,
Tükənməyən ilhamına,
Alqışına qurban olum.

Həsrətiyəm güllərinin,
Aylarının, illərinin,
Şırıl-şırıl sellərinin
Axışına qurban olum.

Hey coşaram ləpə-ləpə,
Nağıllaşar dərə-təpə,
Bu könlümə şeir, nəğmə --
Baxışına qurban olum.

Biz sonu yox ayıq, ilik,
Biz doğmayıq, yad deyilik,
Taleyin bu, əbədilik
Naxışına qurban olum.

Vətən, sənin sal qayana,
Boz daşına qurban olum.
Hamar yolların bir yana,
Yoxuşuna qurban olum,
Qurban olum.

*1980*

## ƏRK QALASI

Yenə düşdün yadıma sən,
Su çilədin oduma sən.
Özün söndür odumu sən,
Ərk qalası.

Bitmir intizarın sənin,
Öz yaramdır yaran sənin.
De, sağ qaldı haran sənin,
Ərk qalası.

Güllələrdən göz-göz oldun,
Bir dodaqda min söz oldun.
Mən sənsiz, sən mənsiz oldun,
Ərk qalası.

Dumanlar don biçdi sənə,
Zaman həsrət seçdi sənə.
Bu nə paydı düşdü sənə,
Ərk qalası!?

Bəzən güldün çiçək-çiçək,
Şəfəqlərdən aldın min rəng.
Bəzən dindin kövrək-kövrək,
Ərk qalası.

Qala dinməz, sənsə dindin,
Eşidin, mən varam, dedin.
Ərk adlı nidaya döndün,
Ərk qalası.

Kaş ki, nağıl ola dərdin,
O dağ dərdin, qala dərdin.
İstəmərəm qala dərdin,
Ərk qalası.



Ləçəkləndi neçə nəğməm,
Körpə nəğməm, incə nəğməm.
Olaydı könlüncə nəğməm,
Ərk qalası.

Bu ayrılıq ötəridir,
Həsrəti vüsal əridir.
Könlüm ümid şəhəridir,
Ərk qalası.

Sən Təbrizin balasısan,
Sən zəfərlər çalasısan.
Sən əbədi qalasısan,
Ərk qalası.
Ərk qalası...

*1977*

## XATİRƏLƏRİM

Yenə də kövrəldi körpəcə könlüm,
Dil açdı danışdı gör necə könlüm.
Həsrətdən dağılar indicə könlüm,
Havalı könlümə nə cavab verim,
Siz ey acı, şirin xatirələrim.

Ayaq izlərimi yudumu sellər,
Çətin ki, söndürə odumu sellər.
Bəlkə, bir danışın, dondumu sellər,
Yananda, donanda havalı şerim,
Siz ey acı, şirin xatirələrim.

Mənimlə boy atıb yaşa doldunuz,
Mənimlə ya qəmli, ya şad oldunuz,
Ötən günlərimlə yaşıd oldunuz.
Ay könül əzbərim, ay dil əzbərim,
Siz ey acı, şirin xatirələrim.

Arzusu gül açan bir gəlin idim,
Səsi könül açan bir gəlin idim,
Neçə müşkül açan bir gəlin idim.
Yenə o günləri yaşayar ömrüm,
Siz ey acı, şirin xatirələrim.

Nə vaxt ki, alarsız yuxumu məndən,
Yuxusuz gözümdə yaş donar dən-dən.
Sübhədək baş-başa qalarıq hərdən,
Günlərdən qurulan məskənim, yerim,
Siz ey acı, şirin xatirələrim.

Canlanır gözümdə Əhrab, Küçəbağ,
Qəlbimdə dağılmaz, sönməz gücə bax.
Ömür karvanımla gedən köçə bax,
Qürubum, axşamım, doğan səhərim,
Siz ey acı, şirin xatirələrim.

Aparın Təbrizə, Salmasa məni,
Ölərəm, el yada salmasa məni.
Bənzətməyin adi almasa məni,
Nəğmədir həyatda qızılım, zərim,
Siz ey acı, şirin xatirələrim.

Nə ola nəğməylə çıxaq biz yola,
Nə ola qovuşaq yenə vüsala.
Bu nağıl xəyallar həqiqət ola.
Çağlaya Arazım, çağlaya Kürüm,
Siz ey acı, şirin xatirələrim.

*1977*

## TƏBRİZİM

Səni neçə-neçə nəğməkar ötdü,
Sazında, sözündə, Təbrizim mənim.
Şöhrətin ucaldı, adın ucaldı
Bütün yer üzündə Təbrizim mənim.



Fəqət taleyində bahar az oldu,
Arzun sinən üstə qanla yazıldı.
Nərgizin, bənövşən niskilli qaldı,
Çölündə, düzündə Təbrizim mənim.

Min-min yara aldın, dirildin yenə,
Alqış sinəndəki həyat eşqinə!
Yolumda bir məşəl olmuşdur mənə
Kül altda gözün də, Təbrizim mənim.

Ey mənim müqəddəs ümid şəhərim,
Ey mənim qəhrəman, igid şəhərim,
De, kimi göstərim, mən nişan verim,
Olsun sən dözümdə, Təbrizim mənim.

Sənin öz adın var, öz ehtişamın,
Yenə də doğacaq aylı axşamlar.
İnanma, desələr istəyin, kamın
Qalacaq gözündə, Təbrizim mənim.

Arzun naxış-naxış, ümidin rəng-rəng,
Eşit, gör nə deyir bu qəlbi kövrək.
Nə olar məni də bir xatirətək
Sən yaşat özündə, Təbrizim mənim.

*1972*

## AĞ BADAM ÇİÇƏKLƏRİ

*Təbrizdə badam ağacları çox*

Borana düşdü yenə,
Ağ badam çiçəkləri.
Səpildi yer üzünə,
Ağ badam çiçəkləri.

Dağım-dağım oldular,
Açılmadan soldular.
Yellərə sovruldular
Ağ badam çiçəkləri.

Necə dözsün bu torpaq,
Yandı bağça, yandı bağ.
Bir də nə vaxt açacaq
Ağ badam çiçəkləri.

Təzəcə gülürdülər,
Riqqətə gəlirdilər.
Sanki dil bilirdilər
Ağ badam çiçəkləri.

Birdən dara düşdülər,
Tufanlara düşdülər.
Hardan-hara düşdülər
Ağ badam çiçəkləri.

Keçdim alovdan, közdən,
Yol saldım, dağdan, düzdən.
Yenə ayrıldım sizdən
Ağ badam çiçəkləri.

Şahid edək ərzi də,
Görsün ərzin özü də.
Zülm etdilər sizə də,
Ağ badam çiçəkləri.

Nə idi günahınız
Günahsızsız axı siz.
Yerdə qalmaz ahınız
Ağ badam çiçəkləri.

Arzular gülər bir də,
Durular göy də, yer də.
Yaz gələr, gələr bir də
Ağ badam çiçəkləri.
Ağ badam çiçəkləri.

*1983*



## AYRILA BİLMƏRƏM

Gah şəfəq düşübdür üstümə, gah çən,
Bir sözdən ürəyim sınıbdır bəzən.
Fəqət, bu həyatdan, bu təbiətdən,
Bir an da ayrıla bilmərəm, bilin.

Düşübdür yadıma yollar, yoxuşlar,
Bağça-bağça ötən sevdalı quşlar.
Sizdən, ey vəfalı dostlar, tanışlar,
Bir an da ayrıla bilmərəm, bilin.

Ey şirin balalar, noğul balalar,
Bu dünya dolusu nağıl balalar.
Sizdən, qız balalar, oğul balalar,
Bir an da ayrıla bilmərəm, bilin.

Ay Savalan dağım, ay dağlar dağım,
Ay mənim niskilli uşaqlıq çağım,
Sizdən, ata yurdum, ana qucağım,
Bir an da ayrıla bilmərəm, bilin.

Siz ey Ərdəbildə qalan günlərim,
İllərin əlində talan günlərim,
Sizdən, ey dərbədər olan günlərim,
Bir an da ayrıla bilmərəm, bilin.

Ey Kəhrəlan yolu, ey Niyar yolu,
Ey ümidlər yolu, arzular yolu,
Sizdən, ey dağların şaxta, qar yolu,
Bir an da ayrıla bilmərəm, bilin.

Mahnı yarışına girən qızlardan,
Şəklini sularda görən qızlardan,
Saçını çiçəklə hörən qızlardan
Bir an da ayrıla bilmərəm, bilin.

Təbrizin köksündə ucalan Ərkdən,
Qəlbimdə oyanan neçə diləkdən,
Dostlarla kəsdiyim o duz-çörəkdən,
Bir an da ayrıla bilmərəm, bilin.

Kərpic döşəməli həyətimizdən,
Anam yandırdığı ocaqdan, közdən,
Atam danışdığı söhbətdən, sözdən,
Bir an da ayrıla bilmərəm, bilin.

Bəzən acı dadan xatiratımdan,
Bəzən bala batan xatiratımdan,
İldən-ilə çatan xatiratımdan,
Bir an da ayrıla bilmərəm, bilin.

Sizdən, ey ürəkdə yurd salanlarım,
Könlümdə, gözümdə ucalanlarım,
Sizdən, ey el-obam, doğma diyarım,
Bir an da ayrıla bilmərəm, bilin,
Ayrıla bilmirəm, bilin...

*1982*

## TƏBRİZİ GÖRMƏYİNCƏ

Könlümdə tufan olar,
Könlüm boşalar, dolar,
Gözüm yollarda qalar
Təbrizi görməyincə.

Sazdan, neydən betərəm,
Nə susar, nə yataram.
Dərdli-dərdli ötərəm
Təbrizi görməyincə.

Bilin, ey əzizlərim,
Yuxu görməz gözlərim.



Alov saçar sözlərim
Təbrizi görməyincə.

Sınasınlar kaş məni,
Bu torpaq doğmuş məni.
Yormaz yol, yoxuş məni
Təbrizi görməyincə.

El dərdinə qalanam,
Hər gün oda qalannam.
Vüsal deyib dolannam
Təbrizi görməyincə.

Sözlə doludur sinəm,
Şam deyiləm mən sönəm.
Bir dərdli quşa dönəm
Təbrizi görməyincə.

Qırılmazdır qanadım,
Məni yaşadar andım.
Belə keçər həyatım
Təbrizi görməyincə.

Hələlik gəlmirəm mən,
Kamımca gülmürəm mən.
Ölmərəm, ölmərəm mən
Təbrizi görməyincə.

*1983*

## DÜNYANIN SEVİNCİ DÜNYANIN DƏRDİ

Deyirəm mən bir də görsəm Təbrizi,
Ömrümün baharı qayıdar yəqin.
Gülər həsrət çəkmiş könlümün gözü,
O gün sona çatar ömrü həsrətin.

Qəlbimin ağrısı, acısı keçər,
Artar dünyamızın bir sevinci də.
Qızılı şəfəqlər mənə don biçər,
Göy üzü durular bir an içində.

Deyirəm mən bir də dönsəm Təbrizə,
Təbrizi bağrıma basaram vallah.
İnsanlar fərəhlə baxarlar bizə,
Fərəhlə açılar hər açan sabah.

Dünyanın qoynunda bir ovuc dənəm,
Beş addım zəmiyəm, bağam, tarlayam.
İstəmirəm dən-dən mən səpələnəm,
Doğma torpaqdadır həyatım, dünyam.

Dünyanın qoynunda münbit torpağam,
Şöhrətim böyükdür, kiçik də olsam.
Öz halal haqqımı yaşayacağam
Zamanın əlindən incik də olsam.

Dünyanın qoynunda bir coşqun çayam,
Dünyanın qoynunda bir Arazam mən.
Belə dərdli-dərdli çağlayacağam,
Çalxanıb, bulanıb, durulmasam mən.

Dünyanın qoynunda səsəm, fəryadam,
Bir körpə gözündə donan yaşam mən.
Dünyanın qoynunda bir sönməz odam,
Dünyaya övladam, vətəndaşam mən.

Dünyanın dərdləri doğmadır mənə,
Dünyaya dərd olub mənim də dərdim.
Əgər lazım gəlsə mən dönə-dönə
Dünyamız yolunda qurban gedərdim.

Dünyanın qoynunda çalxanan gəmi,
Dodağı müjdəli körpə quşam mən.



Haqqın, ədalətin əsgəri kimi
İlkin amalımla qovuşmuşam mən.

Dünyanın qoynunda silinməz andam,
Bir də vətənimin körpəsiyəm mən.
Keçib neçə-neçə alovdan, oddan
Elimə, obama dönəsiyəm mən.

O zaman qəlbimin ağrısı keçər,
Artar dünyamızın bir sevinci də.
Qızılı şəfəqlər mənə don biçər,
Göy üzü durular bir an içində.

Əskilər dünyadan bir həsrət, bir qəm,
Torpaq da sevinər nəğmə səsimdən.
Bir ovuc dən olub səpələnərəm
Başdan-başa vətən torpağına mən...

*1978*

## GƏLƏCƏYƏM

Səhər-səhər ötən bülbül,
Dinlə məni bir sən, bülbül.
Dərdli olan öz dərdini
Sənə deyər bəzən bülbül.

Mən nə güləm, nə çiçəyəm,
Nə də əsən bir küləyəm.
Ötsən bizim ellərə, de –
Mən yenə də gələcəyəm.

Qon bağçamda bir gül üstə,
Sən o güldən könül istə.
Gül bülbülü, bülbül gülü,
Danışdırın asta-asta.

Belə qalmaz zaman, deyin,
Dağılacaq duman, deyin.
Ayrılanlar görüşəcək,
Vardır buna güman, deyin.

Ağlamasın anam daha,
De, son qoysun dərdə, aha.
Gecə uzun olsa yenə
Ümidimiz var sabaha.

Ağlamasın de anama
Mənim o ülvi dünyama.
Məsəl var: sular göl olar
Dama-dama, dama-dama...

Uç o taya, ey körpə quş,
Yormasın səni yol, yoxuş.
İndi bildim yer üzündə –
Həsrət nə ağır olurmuş.

Uç, qanadın yorulmasın,
Nəğmələrin qırılmasın.
Heç kəs, heç kəs bu dünyada
Bir-birindən ayrılmasın.

Uç, ey quşcuğazım mənim,
Dilə gəlib arzum mənim.
Qoyma qala ürəyimdə
Bu nisgilim, sözüm mənim.

Mən nə güləm, nə çiçəyəm,
Nə də əsən bir küləyəm.
Uç bizim ellərə, söylə –
Mən yenə də gələcəyəm,
Mən yenə də gələcəyəm.

*1947*



## "QARAGİLƏ"

Ey məni qanadında,
Uzaqlara aparan
Əziz, doğma mahnılar.
Köksümdə min təlatüm,
Min fırtına qoparan
Mahnılar, ay mahnılar.
Sizi əsən yellərmi
Otağıma gətirdi?
Dağdan axan sellərmi
Füsunkar səslərində
Sizi mənə yetirdi?
Bəlkə ötən quşlarla
Pərvaz elədiniz siz?
Ey Təbrizli mahnılar,
Evimə xoş gəldiniz.
Gəldiniz, ilhamım da
Qanadlandı bu axşam.
Ürəyim bir həsrətlə
Elə yandı bu axşam.
Düşdü "Qaragilə"dən
Sinəm üstə od mənim.
Oxu, Təbriz gözəli,
Elə kövrəlmişəm ki,
Bir anlıq ovut məni.
Oxu, sən oxuduqca
Azadlığım, şadlığım,
Dincliyim düşür yada.
Oxu, Təbriz gözəli,
Sən belə oxuyanda
Alışıram, yanıram.
Fədayi dostlarımı,
Bir də dağ döşündəki
Tonqalları anıram.
Yadıma şirin-şirin

Mahnı dediyim düşür.
Elə bil Üçdərədə
Axan çaydan keçirəm.
Elə bil Qırxbulağın
Buz suyundan içirəm.
Oxu, sənin səsinlə
Çağırır vüsal məni.
Çəkib doğma yerlərə
Aparır xəyal məni.
Oxu, Təbriz gözəli,
Qoy dolsun otağıma
O Təbrizli mahnılar,
O vüqarlı mahnılar,
Şirin, duzlu mahnılar.

*1963*



# *Qəlbimdə bahar doğmasa*

## BİR DAMLAYAM

Mənim azadlığım dumansız səma,
Təzə dənə dolmuş tər sünbüllərdir.
Mənim səadətim bu el, bu oba,
Bir də şəfəq içən körpə güllərdir.

Mənim arzularım min-min gəncliyim
Həyat yollarında addım səsidir.
Mənim ümidlərim neçə körpənin
Beşik-beşik qalxan qəhqəhəsidir.

Mənim hünərim də, mənim gücüm də
Birlikdir, birliyin öz səsiyəm mən.
Bu birlik eşqiylə hey zaman-zaman
Bəxtəvər-bəxtəvər ötəsiyəm mən.

Mənim nəğmələrim ana laylası,
Ana nəfəsindən almışdır qida.
Şerim müjdə verən qaranquşlartək
Yenə qanadlanıb uçur havada...

Mənim dəyanətim Tomris nənəmin
Düşmənə bac verməz vüqarındandır.
Mənim məhəbbətim elin, elatın
Pozulmaz andından, ilqarındandır.

Bir zərrə varlığam, bir damlayam mən
Bu dərin dənizdə, coşqun sularda.
Sənə minnətdaram, vətən, ay vətən,
Yaşasam da harda, olsam da harda.

*1971*

## DƏNİZİN SAHİLİ VAR

Dənizin nəhayəti
Mənə yaxın görünür.
Ləpələr körpəm kimi
Mənə sarı sürünür.

Mən fikirlər içində,
Ləpələr sakit, dilsiz.
Dənizin sahili var,
Xəyalımsa sahilsiz!..
Dənizi coşan, daşan,
Dincələn də görürəm.
Dənizi gah ağlayan,
Gah gülən də görürəm.
Yorğun düşmüş quzutək
Yatar xumar-xumar o.
Titrəşən ləpələrdən
Sanki laylay umar o.
Fəqət ona laylanı
Mən çalaram anatək.
Gözləyərəm göy dəniz
Yatıb, oyananadək,
Dincələ bilməyirəm
Dəniz kimi bir an da.
İnsan necə dincələr
Ürəyi çağlayanda?
Dənizdən dəliqanlı,
Dənizdən coşqunam mən.
Dincələ bilməyirəm
Bir elin həsrətindən.
Neçə qışdır, bahardır
Yumulmayır gözüm də.
Yox, dəniz ola bilməz
Mən səbirdə, dözümdə!
Mən fikirlər içində,
Ləpələr sakit, dilsiz,
Dənizin sahili var,
Xəyalımsa sahilsiz...

*1963*



**KAŞ DURNA OLAYDIM**

Nə ola qanadlı ləpələr kimi
Səfərim sahilə ani olaydı.
Rahatlıq tapaydım körpələr kimi,
Dəniz əbədilik nənnim olaydı.

Qapalı Savalanın ayağı altda
Həmişə çağlayan kəhriz olaydım.
Arzuma çataydım mən də həyatda,
Həsrətsiz günlərlə ekiz olaydım.

Bir yelkən olaydım mavi sularda,
Qayığım vüsalla yüklənəydi kaş.
Bir haray olaydım dilsiz yollarda,
Görüş düşərgəsi olaydı dağ-daş.

Bir tonqal olaydım Səhəndin üstə,
Şöləm dilim-dilim qalaydı mənim.
Hər şəhərin üstə, hər kəndin üstə
Yansaydım, olmazdı nisgilim, qəmim.

Həyatda hər şeyin nəhayəti var,
Mənim həsrətimin sonu hanı bəs?!
Nəfəsim alovlar, atəşlər saçar,
Fəqət həsrətimi əridə bilməz.

İstəmirəm daha nağıla dönüm,
Həyatda ömrün də vardır sərhədi.
Məni gəl qınama, ay ömrüm-günüm,
Məni ozan etdi vətənin dərdi.

Bir çinar əkmişdim öz əllərimlə,
O məndən ayrıdır, mən ondan ayrı.
Nə aylara sığar, nə də ki, ilə
Bu çinar, bu budaq ayrılıqları.

Kaş ki, söykənəydim doğma çinara,
Çinarla danışıb dinə biləydim.
Kaş durna olaydım, uçsam da hara
Yenə vətənimə dönə biləydim...

*1976*

## SAVALAN

Səni neçə şair saldı nəğməyə,
Növbə mənə çatdı indi, Savalan.
Sənə arxam deyə, ümidim deyə,
Könlüm qanadlandı, dindi, Savalan.

Ümidim olsa da görüşümüzə,
Yenə də ürəyim döndü bir közə,
Ovutmaq istədim, baxmadı sözə
Sinəmdə şişməyə döndü, Savalan.

Kaş ayağın altda gül də, çiçək də
Bir süfrə açaydı al-əlvan rəngdə.
Yediyim bir tikə pendir, çörək də
Deyəydim canıma sindi, Savalan.

Sən bizim ellərin vüqar rəmzisən,
Müdrik babaların müdrik sözüsən.
İgid oğulların odu, közüsən,
Kim deyir atəşin söndü, Savalan?

Vətən dağlarının ağsaqqal dağı,
Gah ayrılıq dağı, gah vüsal dağı.
Sabahkı günlərin istiqlal dağı,
Demə bu nə aydı, gündü, Savalan.

Demə bu arzudur, xəyaldır, sözdür,
Əriyən gecədir, doğan gündüzdür.
Sənin peşmək qarın noğulumuzdur,
Neynirik noğulu, qəndi, Savalan.



Ayağın altına düzərəm xonça,
Yığılar dövrənə qız, gəlin, qoca.
Səndən güc alaram, səsim çatınca
Səslərəm şəhəri, kəndi, Savalan...

Kim deyir köməksiz, naəlac oldu,
Kim deyir gəlmələr ondan bac aldı?
Gah yumruğa döndü, gah qılınc oldu,
Düşmənin başına endi Savalan.

Dözürəm ümidlə həsrət acıma,
Qarlar birəm-birəm qonur saçıma.
Mən şirin xəyalda, birdən bağçama
Bir körpə qaranquş endi, Savalan.

*1976*

## İNANAR BİRDƏN

Könlüm körpə bənövşə
Tək qalsa dönər birdən.
Könlüm nazik bir şüşə
Əl dəysə sınar birdən.

Yolun çatmır başamı,
Vüsal dönüb daşamı?
Qurut bu göz yaşımı,
El görsə qınar birdən.

Bənzəməz ömrün şama,
Əriyə damla-damla.
Mən inanmıram, amma
Yadlar inanar birdən.

Çinar əkmişdik qoşa,
Nəğmələr qoşa-qoşa.
Sənsiz qara, yağışa
Düşər o çinar birdən.

Gəl, səsin düşsün ərzə
Gəl, nur dolsun evmizə
Gəlməsən, yenə kimsə
Məni tək sanar birdən.

Saxla darda həsrəti,
Yandır oda həsrəti!
Qoyma yata həsrəti,
Yenə oyanar birdən.

Vüsalı tök gül cama,
Ver cavana, qocama.
Gəl ki, könül bağçama
Qəm tozu qonar birdən.

Külək dörd nala çapar,
Könlümdə tufan qopar.
Göz yaşım yerə hopar,
Torpaq da yanar birdən.
Torpaq da yanar birdən.

*1977*

## İLK YURDUM, İLK NƏĞMƏM

Fikrim yolda, qərar tuta bilmirəm,
Ötən günü heç unuda bilmirəm.
Yuxumda da sizə çata bilmirəm,
Ay atamın kasıb evi, koması,
Ay anamın baldan şirin laylası...

Güclə gəlir xatirimə o çağlar,
Tanış deyil, deyin kimə o çağlar!
Söhbət açar kəlmə-kəlmə o çağlar.
O çağlarda qalmış ata koması,
O çağlarda bir ananın laylası.



Bir beşikdə neçə körpə böyüdü,
Bir beşiyi gəlin anam yüyrüdü.
İlk dərsimiz oldu ata öyüdü,
İlk yurdumuz kasıb ata koması,
İlk nəğməmiz anamızın laylası.

Bir beşikdən ayaq açdı yeddi qız,
Muradına, arzusuna yetdi qız.
Pərvazlanıb bir gün gəlin getdi qız,
Yeddi qızsız qaldı ata koması,
Yeddi evdən gəldi ana laylası.

Neçə-neçə nəvə gəldi həyata,
Nənə çatdı, baba çatdı murada.
Fikrim açdı öz köçünü burada,
Könlüm ötdü bir ayrılıq havası,
Haradasan, ay anamın laylası?

Əlim çatmır, ünüm yetmir heç sizə,
Qorxuram ki, qovuşaram gec sizə,
Bağrım çatlar kimsə baxsa kəc sizə,
Ay atamın nağıllaşan koması,
Ay anamın baldan şirin laylası.

Xatirimdə qalarsınız əbədi,
Sizdən aldım ömrüm, günüm şəfqəti.
Nəğməm olsun sizə övlad dəməti,
Ay atamın kasıb evi, koması,
Ay anamın baldan şirin laylası.

Dörd yanımda oğlum, qızım, nəvəm var,
Nə ehtiyac, nə sıxıntı, nə qəm var.
Öz çırağım, öz ocağım, evim var,
Düşür yada yenə ata koması,
Düşür yada o uşaqlıq dünyası...

*1976*

## NAZİM HİKMƏTƏ

Bizi tanış etdilər gözəl bir yaz axşamı,
Sevincimdən titrədi dodağım yarpaq kimi.
O mavi gözlərindən ayırmadım gözümü,
Sən dayandın önümdə başı qarlı dağ kimi.

Qəlbinin hərarəti axdı qəlbimə ey dost,
Elə bil İstanbulla Təbriz yanaşı durdu.
Salon alqışladıqcı hər nəğməni, sözünü,
İki xalqın ürəyi bir döyündü, bir vurdu.

Dedin ki, qalmamışam Cənub elində qonaq,
Sərin bulaqlarından əyilib içməmişəm.
O Arpa təpəsinin, o Şibli gədiyinin,
Qayalı yollarından ömrümdə keçməmişəm.

Dedin: eşitməmişəm mən Təbriz gözəlinin
Nə qəmli nəğməsini, nə şən mahnılarını.
Oranın havasıyla heç nəfəs almamışam,
Görməmişəm o yerin qışını, baharını.

Dedin: dayanmamışam mən Araz qırağında,
Onun ılıq nəfəsi nəfəsimə dəyməyib.
Yayda isti günəşdən qorumaqçün şairi
Söyüdlər yol üstünə başlarını əyməyib.

Dedin: fəqət duymuşam hər zaman, hər an sizi,
Şaxtalı qış günündə, gözəl bahar çağında.
Gah səngərə yatmışam, gah da bir aşıq kimi
Gəzmişəm azadlığın, xoş günün sorağında.

Dedin ki, inanmışam haqqın qalib səsinə,
Yenə Təbriz güləcək nurlu bir səhər kimi.
Mənim İstanbulum da azad olacaq yəqin,
Bu qoşa ad gəzəcək şərqi nəğmələr kimi...



Danışdın, bircə anda xəyalən səfər etdim,
Gəzdim dost elimi mən, gəzdimdoğma yurdumu.
Neçə körpə balanın şən səsini eşitdim,
Bu səslər elə bil ki, söndürdü qəm odumu.

Gördüm Gecəqonduda evlər nur içindədir,
Gördüm Gəcilqapısı başqalaşmışdır artıq.
Gördüm başımız üstə al şəfəqlər rəqs edir,
Əlləri qabarlılar haqqın almışdır artıq.

Danışdın aram-aram, danışdın mətin-mətin,
Sanki neçə arzumuz qovuşdu ilk baharla.
Gördüm sən Təbrizdəsən, yanında Məhəmmədin,
Mən İstanbuldayam Arazla, Etibarla.

*1957*

## BİLƏR

Həsrət ağrısını, vüsal qəmini
Ayrılıq oduna yananlar bilər.
Dənizdə qərq olan tənha gəminin
Tənha fəryadını ümmanlar bilər.

Mənə söyləməyin az alışıb-yan,
İnanın, daşı da ağladar hicran.
Dağların ahıdır o çən, o duman,
Dağların dərdini dumanlar bilər.

Məni sorğulara tutma sən əbəs,
Arzumu qəlbimdə, baxışımda gəz.
Könlümü hər naşı oxuya bilməz.
Onu dünya görmüş insanlar bilər.

*1967*

## BİR OVUC QAR

Həkim çox qulaq asdı,
Ürəyimi yoxladı.
Həssas barmaqlarını
Nəbzim üstə saxladı.
Qəlbinin döyüntüsü
Artmış bir qədər, – dedi.
İçsən bu dərmanları
Yəqin düzələr, – dedi.
Söylədim, aman həkim,
Əbəsdir dərman, həkim.
Qulaq as ürəyimin
Tellərini dindirən
Həsrətə, qəmə, həkim.
İçsən bu dərmanları
Sağaldar demə, həkim.
Vətəni darda qalan,
Gözü yollarda qalan
Bir elin xəstəsiyəm,
Nüsxə yazma nahaqdan.
Mənə bir çiçək gətir
O eldən, o torpaqdan.
Boynu bükük bənövşə,
Bağrı yanıq lalə dər.
Məni dərmanlar deyil,
O çiçəklər dirildər.
Savalanın qarından
Bircə ovuc tap, həkim.
Bu vaxtsız ayrılıqdan
Çəkməyim əzab, həkim.
Qoyum sinəmin üstə
Yanğım azalsın barı.
Sanım ki, Təbrizdəyəm,
Unudum ağrıları,
Uunudum ağrıları...



* * *

Amandır toxunma qəlbimə qafil,
Yandırıb sinəmi söz asta-asta.
Qoy axsın gözümün yaşları sel-sel,
Sönsün sinəm üstə köz asta-asta.

Həsrət duyğuludur gecəm, gündüzüm,
Mən eldən, obadan necə əl üzüm?
Aylar, illər ötür, yoldadır gözüm,
Elə deyirlər ki, döz asta-asta.

Keçdi neçə bahar, keçdi neçə yaz,
Ömrümdə olmadı ürəyimcə yaz.
Bir daha cavanlıq qapımı açmaz,
Düşdü öz tovundan göz asta-asta.

Dedilər vüsaldır dərdinə əlac,
Kimsəyə nə yalvar, nə də ki, əl aç.
Oldum vüsalına yenə təşnə, ac,
Qəmim birdi, oldu yüz asta-asta.

Gülgün, ürəyini açma hər kəsə,
Qaysaq tutmuş yaran çıxmasın üzə.
Günləri, ayları çevirib sözə,
Şeir dəftərinə düz asta-asta.

*1968*

## HİCRAN AĞLA DEDİ, VÜSAL GÜL DEDİ

Dənizsahilində dayanmışam tək,
Ani tənhalıqdan sıxıldı ürək.
Səmadan, sulardan qalxdı bir ahəng
Bulud ağla dedi, dəniz gül dedi.

Gah coşqun çay oldum, gah dilsiz axdım,
Odlu şimşək kimi göylərdə çaxdım.
Bir görüş eşqiylə yollara baxdım,
Hicran gəlmə dedi, vüsal gəl dedi.

Halal bir əməklə açdım qol-qanad,
Mənasız keçmədi ötən hər saat.
Hikmətli kitaba bənzəyir həyat,
Kimi bilmə dedi, kimi bil dedi.

Hər kəsə açmaram ürək sözümü,
Gülgünəm, tufanlar əyməz dizimi.
Göydə şimşək çaxdı, ayaq izimi
Günəş silmə dedi, yağış sil dedi,
Hicran gəlmə dedi, vüsal gəl dedi...

*1966*

## SORUŞ

Mənim kimliyimi, mənim adımı
Vətənimdən soruş, elimdən soruş.
Bu coşqun, bu qaynar ehsasatımı
O dağlardan enən selimdən soruş.

Xəzan da görmüşəm, çiçəkli yaz da,
Nəğmətək gəzmişəm dildə, ağızda.
Solub getməmişəm qarda, ayazda,
Məni təzə açan gülümdən soruş.

Coşaram dəniztək, çağlaram sutək,
Könüldə yaşaram saf bir duyğutək.
Məni zəfərlərlə ötüb, gələcək
Günümdən, ayımdan, ilimdən soruş.

Nə vaxt bizim elə səfər eyləsən,
İnanma, desələr daha yoxam mən.
Məni bahar kimi təravətli, şən,
Qılınctək kəsərli dilimdən soruş.

*1964*



## VƏTƏN OLA BİLMİRƏM

Bir nəğməli bulağam,
Uca dağlardır arxam.
Hər an çağlayacağam
Səninçin.

Torpaqdan güc alaram,
Yaşıl çinar olaram.
Yola kölgə salaram
Səninçin.

Sevgim gəlməz hesaba,
Sevgim sığmaz kitaba.
Ötərəm oba-oba
Səninçin.

Odum yandırar daşı,
Saya salmaram qışı.
Olaram yaz yağışı
Səninçin.

Ümman desən, olaram,
Tufan desən, olaram.
Talan, desən olaram
Səninçin.

İnan sevgiyə, anda,
Düşsən alova, oda.
Keçərəm canımdan da
Səninçin.

Göytək halbahal ollam,
Bir şirin xəyal ollam.
Dağlarda tonqal ollam
Səninçin.

Fəqət qala bilmirəm,
Könlün ala bilmirəm.
Vətən ola bilmirəm
Səninçin.
Səninçin...

*1976*

## BU DÜNYADA

Biz görüşdük, uçdu çən də, duman da,
Gözlərimdə dünya güldü bir anda.
Fəqət yenə, yenə bildim mən onda
Bu dünyada həm yaxınıq, həm uzaq.

Çiçəklərdən çələng hördüm səninçin,
O çələngi mən gətirdim səninçin.
Əfsus olsun bilmədim ki, biz neçin
Bu dünyada həm yaxınıq, həm uzaq.

O gün bizdən bəxtəvəri kimdi, kim?
Tale bizə sevinc verdi bir içim.
Ürək duydu ötəridir sevincim,
Bu dünyada həm yaxınıq, həm uzaq.

Biz var ikən nağıl olduq dillərdə,
Harayımız əks elədi sellərdə.
Şahid oldu həsrət dolu illər də,
Bu dünyada həm yaxınıq, həm uzaq.

Oda döndü gözümüzün yaşı da,
Nəfəsimiz qarsdı soyuq daşı da.
Ömrün bahar, ömrün payız yaşında
Bu dünyada həm yaxınıq, həm uzaq.

Biz qıymazdıq ayrılığı gülə də,
Sinəmdəki dağlar idi lalədə.
Taleyə bax, gərdişə bax, hələ də
Bu dünyada həm yaxınıq, həm uzaq.



Dayanmışıq ikimiz də xəyalda,
Fikir yolda, ömür yolda, göz yolda.
Ağladandır bizə düşən vüsal da,
Bu dünyada həm yaxınıq, həm uzaq.

Belə vüsal, belə həsrət nədir bəs,
Belə həsrət, belə şəfqət nədir bəs.
Vətənimiz var, bu qürbət nədir bəs,
Bu dünyada həm yaxınıq, həm uzaq.

*1979*

## YOLLAR HAMAR OLSAYDI...

Ömrüm
tufanlarda keçməsəydi əgər,
haray çəkib dövrəmdə
cövlan etməsəydi küləklər,
həyatın
enişli-yoxuşlu
yollarını görməsəydim,
yaşamaq üçün vuruşa
and içib,
söz verməsəydim
bəzən gündüzlərim,
bəzən gecələrim
hərasan olmasaydı,
ömrün illərində nisgil olmasaydı
hicran olmasaydı,
yollar hamar olsaydı
başdan-binədən,
ey həyat,
səni
indi sevdiyim kimi
sevə bilməzdim mən...

*1974*

## HƏLƏ YORULMAMIŞAM

Bir səs gəldi uzaqdan, uzaqdan,
Səs yoğrulub fəraqdan, fəraqdan.
Azadlığın təşnəsi o səsi
Dinləyirəm nə vaxtdan, nə vaxtdan.
Sinəm üstə yara var, yara var,
Çalın-çarpaz bu dağdan, bu dağdan.
Həsrət dörd nala çapsa qorxuram
Sala məni ayaqdan, ayaqdan.
Ürəyimin səsini dinlədi,
Bir quş ötdü budaqdan, budaqdan.
Dedim, bir də il məni, il məni
Kaş çıxara sınaqdan, sınaqdan.
İllər, aylar ayırıb nə vaxtdır
Məni anam torpaqdan, torpaqdan.
Nə ola bircə ovuc su içəm,
O yarpızlı bulaqdan, bulaqdan.
Bir quşam doymamışam yurdumun
Dağlarına qonmaqdan, qonmaqdan.
Hələ yorulmamışam vətənçün
Alışmaqdan, yanmaqdan, yanmaqdan...

*1980*

## ÖMRÜN PAYIZ DAYANACAĞI

Ömrün payızına
qədəm qoyuram mən.
Ayrılıb
o haylı-haraylı
bahar biçimli aylardan,
illərdən...
Uzaqdan vida yaylığını açmış
yaşıl yarpaqlarım,
əlvan güllərim.



Uzaqdan əl edir mənə
o inadlı,
qanadlı günlərim...
Payızın
qızaran şəfəqlərinə
bürünüb aram-aram
yaşıl yarpaqlı günlərimdən,
aylarımdan, illərimdən,
ayrılıram.
Fəqət
könlümdə nə kədər,
nə qəm var.
Ayrılsam da ömrümün
baharından.
Ayrılmıram
könlümün nəğmə barından.
Sətir-sətir,
kəlmə-kəlmə
bir çələng hörmüşəm.
Ağlı, qırmızılı,
həyat yazılı
Bir çələng
İndi bu kövrək,
bu odlu
mahnılarımı qaldırıb
vida yaylığıtək mən,
Eheyyy... yaşıl yarpaqlı illərim,
alnıaçıq ayrılıram sizdən.
Ömrün
təzə dayanacağında durmuşam.
Sinəmdə sözlərin axını.
Təzə nəğmələrlə
dindirmək istəyirəm
yenə vətən torpağını.
Könlümdə
yenə gənclik hərarətim.
Önümdə

dostlara açılmış süfrəm.
Payız səxavətim ...
Ömrün
təzə dayanacağında durmuşam.
Arxada ağ çiçəkli,
ağ kətan köynəkli
bir fidan.
Qanadı bərkiməmiş insan.
Gənclik çağım.
Öndə:
isti, soyuqlar görmüş,
qızıl şəfəqlərə bürünmüş
payız dayanacağım...

*1969*

## ÖYRƏN İSTİYƏ, SOYUĞA

*Oğlum Etibara*

Yollar hamar deyil oğul,
Öyrən istiyə, soyuğa.
Zəhməti şərəf bil, oğul.
Öyrən istiyə, soyuğa.

Qorxma qardan, sazaqdan sən,
Qüvvət al bu torpaqdan sən.
Ağ üzlə çıx sınaqdan sən,
Öyrən istiyə, soyuğa.

Dost ol qəlbi kövrəklərə,
Meh ol körpə çiçəklərə.
Aç sinəni küləklərə,
Öyrən istiyə, soyuğa.

Yoxuşlarda büdrəmə heç,
Ovuc-ovuc sulardan iç.



Keç yollardan, inamla keç,
Öyrən istiyə, soyuğa.

Şimşəkləri salma saya,
Müjdəçi ol ilə, aya.
Açq gözlə bax dünyaya,
Öyrən istiyə, soyuğa.

Çinar-çinar dinsən də sən,
Quzey-quzey donsan da sən,
Güney-güney yansan da sən,
Öyrən istiyə, soyuğa.

Fikir vermə qarlı qışa,
Qoyma arzun dəysin daşa.
Sən mərdlərlə gir yarışa,
Öyrən istiyə, soyuğa.

Vüqarlı ol sən, dağ kimi,
Daim çağla bulaq kimi.
Dözümlü ol torpaq kimi,
Öyrən istiyə, soyuğa.

*1981*

## ŞAİR ÖMRÜ

Buludların qisməti
kövrəlmək oldu.
Dənizin qisməti
coşub-daşmaq
qartal təpələrə qonmadı,
dağlara qondu ancaq.
Qaranquşlar
Müjdəçisi oldu baharın
Dillərdə nağıla döndü

vüqarı, əzəməti xan çinarın.
Durnalar
göylərdə vüsal rəmzinə döndülər,
həmişə cərgə-cərgə,
qatar-qatar göründülər.
Bir şair qismətinə
Kövrəlmək də düşdü,
coşub dalğalanmaq da.
Bir nəğmə eşqilə
yuxusuz gecələrdə
xısın-xısın yanmaq da.
Bir şair ömrünün
enişli-yoxuşlu yolları da oldu,
xəzansız baharı da.
Əyilmədi hər tufana,
Heyrətdə qoydu xan çinarı da.
Bir şair ömrü eldən vüqar,
torpaqdan qüvvət aldı.
Nəğmə-nəğmə,
ellərdən-ellərə,
illərdən-illərə
körpü saldı,
yol saldı...
Onun könül dünyasında
yoxdur fəsillərin sərhədi.
Onun könül dünyasında
nəğmə eşqi var,
bir də vətən məhəbbəti.
Elə bununçün də
dünyanın səmasında
qaranquşa dönər şair.
Müjdələr payladıqca
bir dünya rahatlıq tapar,
sevinər şair,
sevinər şair...

*1975*



## MƏN KİMƏM

Mən kiməm, arzusu şirin bir ana,
Yanar çıraq-çıraq yolumda arzum.
Mən nəyəm, bənzərəm dan ulduzuna,
Sübhü gözlərimlə açaram özüm.

Mən kiməm, qaranquş timsallı insan,
Müjdəylə uçvaram eldən-elə mən.
Mən nəyəm, sinəsi geniş asiman,
Nur allam günəşin şəfəqlərindən.

Mən kiməm, anamın ilki, əzizi,
Xalqımın bir şair fədaisiyəm.
Mən nəyəm, nəğmələr, sözlər dənizi,
Coşub, dalğalanıb, hey ötəsiyəm...

Mən kiməm, bir şair ömrünə həmdəm,
Yolumuz da birdir, bəxtimiz də bir.
Mən nəyəm, bir dünya sevincəm, qəməm,
Məni qəm dondurur, sevinc isidir.

Mən kiməm, dünənki bir cavan gəlin,
Bu günü oğullu, gəlinli ana.
Mən nəyəm, özüyəm bir xoş əməlin,
Alqış bu əməlin sonsuzluğuna.

Mən kiməm, dostuma dostam, köməyəm,
Xoşdur dost yolunda dara da düşmək.
Mən nəyəm, məhəbbət dolu ürəyəm,
Çağla məhəbbətlə, çağla, ey ürək.

Mən kiməm, bu doğma yurdun övladı,
Gücü bu torpaqdan alıram hər dəm.
Mən nəyəm, bir quşun qoşa qanadı,
Mən bu qanadlarla yüksələcəyəm,
Yüksələcəyəm...

*1982*

## DÜNYAYA ŞEİR GƏLİR...

Bu səhər al günəşin
Qızılı tellərində
Dünyaya şeir gəlir.
Bu səhər budaqların
Çiçəkli əllərində
Dünyaya şeir gəlir.

Güneydə lalə yanır,
Quzeydə qar əriyir.
Körpə güllərin ətri
Yeri, göyü bürüyür.

Dağlardan enən duman
Dərələrə yeriyir.
Çiçəklər ümmanında
Dünyaya şeir gəlir.

Durnalar vida edir
Həsrətə, ayrılığa.
Həsrətin acısını
Yollardan yığa-yığa,
Yeddi rəngə girirlər
Göydə bir an içində.
Durnaların bu ülvi
Qatarında, köçündə
Dünyaya şeir gəlir.

Sanki təzə diş yarır,
Ağaclar ağçiçəkdə,
Bir mahnı bağışlayır
Bizə əsən külək də.
Yanır ümid çırağı,
Şölə çəkir ürəkdə.
Bir gəlinin andında,
Arzular qanadında
Dünyaya şeir gəlir.



Meh əsdikcə qırılır
Lal göylərin aynası.
Yaz gəlir, şirinləşir
Körpələrin röyası.
Çəmən ətri, gül ətri
Hopur laylamıza da.
İstəyirəm mən özüm
Xəbər verim yaza da;
Hansı yana baxıram
Könlüm, gözüm dincəlir,
Dünyaya şeir gəlir,
Dünyaya şeir gəlir...

*1983*

## TƏBRİZİM MƏNİM

*Təbrizim-mənsizim*
R.Rza

Söylədin yuxuma gəlir arabir,
Sənin Təbrizinlə, Təbrizim mənim.
Dərdini ahəstə danışır, deyir,
Sənsizim, sənsizim, sənsizim mənim.

Gəldi xatirimə "Didərginlər"in,
Həsrətim də dərin, yaram da dərin.
Oxşadı könlümü o həzin şerin,
Bildim sənsən doğmam, əzizim mənim.

Eşitdi səsini Əhrab, Küçəbağ,
Sənətin gücünə, qüdrətinə bax.
Bir vüsal eşqilə kövrəldi ancaq..
Süsənim, sünbülüm, nərgizim mənim.

Səni əks elədi öz sinəsində,
Çəmən sinəsində, düz sinəsində.

Qaynadı nə qədər söz sinəsində,
Dindi çeşməm mənim, kəhrizim mənim.

Yandıqca olmusan elin ozanı,
Kədərin, sevincin ulduzlar sanı.
Unudan deyildir Rəsul Rzanı
Gözəlim, göyçəyim, gül üzüm mənim,
Təbrizim, Təbrizim, Təbrizim mənim.

*1970*

## BEŞİK BAŞINDA

Oturub beşik başında
Nəvəmə laylay çalıram yenə.
Deyirəm, bütün nənələr beləcə
Laylay çalsınlar
Gül ətirli,
Süd ətirli nəvələrinə.
Laylay çalıram,
Laylayımda çiçəklərin zərifliyi,
Şəkərin, qəndin şirinliyi vardır.
Laylay çalıram,
Saçlarımda gəzsə də
Payız küləkləri,
Ürəyimdə solmayan bahardır.
Sanı yox arzumla,
Ayrıla bilmirəm
Nəvəmin beşiyindən.
Sinəmi sipər etmişəm,
Qoymaram bu körpə beşiyinə
Kölgə düşə,
Toz qona.
Mən cavabdehəm
Ömrümün, günümün davamı olan
Balamın balasının bu gününə,
Sabahına.



İstəyirəm ona dediyimdən çox
Təzə, tər nəğmələr qoşam.
Axı, balam dünyamdır mənim,
Dünyamın keşiyində durmuşam.
Balamın keşiyində durmuşam...

*1983*

## MƏN YAŞA DOLDUQCA

Sənə dənizləri verərəm, dedin,
Bu sözdən dənizək qabardı sinəm.
Bilmirəm, nə üçün, nədən bilmədin
Səndən dənizləri istəməmişəm.

Sənə çəmənləri verərəm, dedin,
Bu səxavətindən qəlbim üşüdü.
Bu səxavətdənsə duya biləydin,
Bu şair qəlbimə niyə xal düşdü.

Dinləyə biləydin ürəyimi kaş,
Görəydin nə deyir, o yana-yana.
Biləydin dünyada hər nemətdən baş
Həsrətsiz bir ömür gərək insana.

Mən yaşa dolduqca körpələşirəm,
Mən yaşa dolduqca nisgilim artır.
Həyat bir aləmdir, könlüm bir aləm,
Könlümdə lal duran dənizlər yatır.

Bəzən zilə qalxır, coşur dalğalar,
Bəzən bəmdə ötür, bəmə düşürəm.
Bəzən, sən sevginin qüdrətinə bax,
Təpədən dırnağa Təbrizləşirəm...

Yaxşı bil, bu bəmdə, bu zildə nə var
Bəzən pərvazlandım, bəzən uçmadım.
"Dağ-dağa qovuşmaz" dedi babalar,
Dağ-dağa qovuşdu, mən qovuşmadım.

Bir quş qanadında köç edir günüm,
Bir quş qanadıtək kövrəlir sinəm.
Qəlbimi yaxşı duy, başına dönüm,
Mən dəniz, mən çəmən istəyirəm.

Vəd etmə dənizi, çəməni, inan
Onlarsız da keçər günümüz yəqin.
Sən gəl ürəyimi ovundur bir an,
Gün düşsün üstünə qoy bu həsrətin...

*1976*

## ARZULARIM...

Nə olaydı tale bir də güləydi,
Durulaydı göy də, yer də, güləydi.
Könül sazım pərdə-pərdə güləydi,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

Qalmayaydıq çəmən ayrı, gül ayrı,
Olmayaydıq dəniz ayrı, göl ayrı.
Gəzməyəydik vətən ayrı, el ayrı,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

İlim-ilim itirəydik həsrəti,
Gəlməzliyə ötürəydik həsrəti.
Yer üzündən götürəydik həsrəti,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

Qayıdaydıq sazlı, sözlü günlərə,
O laləli, o nərgizli günlərə.
Qayıdaydıq o Təbrizli günlərə,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.



"Bulaq başı yenə də qız olaydı",
Dörd dövrəsi yaşıl yarpaq olaydı.
Torpaq üstə əbədi yaz olaydı,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

Söyüdləri oxşayaydım əlimlə,
Sevinəydim çəmənimlə, çölümlə.
Durnaları əyləyəydim dilimlə,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

Çəkiləydi göy üzündən duman, çən,
Yollar çiçək bitirəydi dizəcən.
Gül ətrindən məst olaydı yol keçən,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

Anam üçün səsə, ünə dönəydim,
Müjdə dolu bir xoş günə dönəydim.
İlk baharın mən özünə dönəydim,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

Çoxalaydı çinarların sırası,
Yox olaydı bu həsrətin tanrısı.
Sağalaydı ayrılığın yarası,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

İllər ilə qovuşaydı nə ola,
Ömrə-günə gün düşəydi, nə ola.
Ayrılanlar görüşəydi, nə ola,
Arzularım qönçəsindən çıxaydı,
Saçlarıma yaz yağışı yağaydı.

*1981*

## SEVİNCİM, UMUDUM

Şiblinin laləsində,
Qızıl piyaləsində,
Mənə su ver bir udum,
Ay sevincim, umudum.

Qışın peşmək qarından,
O saf, kövrək qarından,
Gətir azalsın odum,
Ay sevincim, umudum.

Qar altdan nərgiz gətir,
Dağı-daşı gəz, gətir.
Gülü nəğməyə tutum,
Ay sevincim, umudum.

Şad xəbərçim olaydın,
Arzusu çin olaydın.
Həsrətdən dondum, dondum,
Ay sevincim, umudum.

Görüşümüz nağıldı,
Fikrim yenə dağıldı.
Göz yaşımda yuyundum
Ay sevincim, umudum.

Sular ram ola bildi,
Dincini ala bildi.
Mən nə susdum, ovundum,
Ay sevincim, umudum.

Vüsal ver, yandım, dedim,
Vüsalı şərbət edim.
Mən içim udum-udum,
Ay sevincim, umudum.

*1976*



## QOŞA QALIR İZLƏRİMİZ

*Azəroğluna*

Nə yaxşı ki, sən var idin yer üzündə,
Nə yaxşı ki, ulduzumuz qoşa yandı.
Mənası var gecənin də, gündüzün də,
Biz yandıqca yollarımız işıqlandı.

Nə yaxşı ki, ürəyimiz birgə vurdu,
Nə yaxşı ki, el dərdinə qoşa çəkdik.
Nə yaxşı ki, yer üzündə sevgi vardı,
Bu sevgisiz biz xəyala dönəcəkdik.

Nə yaxşı ki, sənin nəğmən, mənim nəğməm
Qoşa uçdu bağça-bağça, çəmən-çəmən.
Nə yaxşı ki, sənin sinən, mənim sinəm
Gah kədərə, gah sevincə oldu məskən.

Nə yaxşı ki, yer üzündə biz də varıq,
Nə yaxşı ki, haqq yolunda əsgərik biz.
Zərrələrik, dalğalarıq, ümmanlarıq,
Torpaq üstə qoşa qalır izlərimiz...

*1976*

## SƏNİ GÖRSƏYDİM

Səni nə zamandır görə bilmirəm,
Görsəydim, sanardım hər yanda yazdı.
Bilməzdim dünyada nədir qüssə-qəm,
Gizlində, aşkarda heç ağlamazdım.

Görsəydim, oxşardım ağ saçını mən,
Sayardım alnında artan çinləri.
Elə sevinərdim o gün ürəkdən-
Müjdəyə səslərdim göyərçinlər.

Mənim də həyat yolum
Hamar olmayıb əsla.
Arzumun zirvəsinə
Qalxmaqçün, ucalmaqçün
Mən getmişəm o daşlı,
O yoxuşlu yollarla...

*1976*

## FƏSİLLƏR QARIŞMIŞ BİRİ-BİRİNƏ

Sahildə
Qızılgül kolları
qönçə-qönçə.
Açılırlar
günəşin ana dodağından
şəfəq içincə.
Az qala Qara dənizə
qızılı şüası düşür güllərin.
Rəngdən-rəngə çalır
bağça-bağ.
Nə qəribədir bu yerlər,
nə qəribədir bu torpaq.
Ağaclarda heyvalar saralır,
Tək-tək ərik də var hələ.
Səhər bahar günəşi doğur
gündüz
isti yandırır adamı,
axşam yağış yağır
çəmənə, çölə
Bir gündə həm bahar olur,
Həm yay, həm payız.
Fəsillər intəhasız.
Badam, iydə ağacları
bardan başlarını yırğalayır
ağır-ağır



İydələrdən küçə-küçə,
bağça-bağça ətir yağır.
Ey gözümün ilk ovu ağaclar,
Mən sizi harda axtarırdım,
gör harda çıxdınız qarşıma.
Yəqin,
bu görüşə sevinib siz də
noğul yerinə iydə səpirsiniz
başıma,
Badam ağacları,
badamı gözlü Təbriz gözəlləri
yadıma düşdü mənim.
Bu yerlərin fəsillərітək
Qarışdı bir-birinə fikirlərim.
Eh, nə deyim sizə,
qorxuram həsrətli hekayətim
dərd ola ürəyinizə.
Axı kim bilir,
Hələ
siz nə qədər ömür edəcək,
ətir saçacaqsınız bu sahilə.
Kim bilir –
bu dəniz qoxulu torpaqda
nə qədər qızılgüllər bitəcək,
zanbaqlar, nilufərlər açacaq
ləçək-ləçək.
Kim bilir –
nə qədər şirin xatirələrdə
yaşayacaqsınız zaman-zaman.
Hələ nə qədər nəğmələr qopacaq
Qara dənizin dodaqlarından.
Hələ nə qədər hücum edəcək
şıltaq ləpələr.
Sahildə
ayaq izlərimdən qalmayacaq
nişan, əsər.
Fəqət

təzə izlər görünəcək,
yüz-yüz, min-min.
Hər yerdə belədir qanun
həyatın, təbiətin
Təki günəş doğsun
xəzansız keçsin həyat,
Torpaq bar versin təzə-təzə.
Təki günəş doğsun –
qızılgüllərin
qızılı şüası düşsün
Qara dənizə.

*1968*

## BU İNAM QƏLBİMDƏ İŞIQ YANDIRIR

Bir ana gözləyir yolumu mənim,
Həsrətə dönmüşəm bir ana üçün.
İndi yaddaşımda qalan dünənim
Üsyana, haraya dönüb mənimçün.

Bir ata yolumda soraqçı olub,
Adıma gül əkib, gedəndə dərim.
Evimiz qonaqla boşalıb, dolub,
Mənimsə hələ də boş qalıb yerim.

Beş bacı dünyası üşüyür orda,
Məni də üşüdür bu nisgil, bu qəm.
Beş bacı gözləri qalıb yollarda,
Nə vaxtdır onların həsrətindəyəm...

Bir qardaş qəlbinin bir əhdi qalıb,
Nə ola adıma qura bir məclis.
Fəqət, bəxtimizin sərhədi qalıb,
Dözürük taleyin bu əmrinə biz.



Bir körpə gözündə sual olmuşam,
Gərək o gözləri yoldan yığam mən.
Dodağı nəğməli, sözlü bir quşam,
Hələ ölməmişəm, sağam, sağam mən.

Bir nağıllı dünyam mənə əl edər,
Bir laylay səsindən havalanaram.
Göydə qatar-qatar durnalar gedər,
Yerdə bu həsrətdən yanar, yanaram...

Bir fədai ömrüm düşər yadıma,
Bu ömür yarıda qalmasın gərək.
O bahar illərim düşər yadıma,
Bahar arzularım solmasın gərək.

Gərək işıq olum, dumanda, çəndə,
Bu mənim borcumdur vətənə, elə.
Dağ da qaldıraram yeri gələndə,
Qələmə sarılan bu əllərimlə.

Bir Təbriz sevincim, qəmim var mənim,
Bir görüş yerinə gün doğar bir yaz.
El-obamdan özgə kimim var mənim,
Elimi, obamı görməsəm olmaz.

Hazıram sınaqdan çıxam bir də mən,
Bir daşlı səngərdə hələ yerim var.
Düşməni ağladan, dostu güldürən
İnadlı, qanadlı nəğmələrim var...

Bir ana gözləyir yolumu mənim,
Bu inam könlümdə işıq yandırır.
Mənim döyüşlərdə keçən dünənim,
Yenə yollarımı işıqlandırır,
Yenə yollarımı işıqlandırır.

*1984*

## TƏBRİZİN KÜÇƏLƏRİ

Gecə yuxuma gəldi,
Əvvəlkitək gözəldi.
Gah ağladı, gah güldü
Təbrizin küçələri.

Yol saldım Küçəbağa,
Qol saldım Küçəbağa.
Dönübdü neçə bağa
Təbrizin küçələri.

Əhrab, qarağac üstü,
Sürxab de kimdən küsdü?
Sandım yola gül düzdü
Təbrizin küçələri.

Şeşkilan nəğmələndi,
Hər yana nur ələndi.
Mənə xoş gəldin dedi
Təbrizin küçələri.

Şamqazandan addadım,
Qonka başına çatdım.
Ey nağılım, bayatım
Təbrizin küçələri.

Maralan bağça-bağça,
Güllərdən tutdu xonça.
Hey baxdılar dalımca
Təbrizin küçələri.

Çərəndab sözə döndü,
Hər daşı közə döndü.
Haraya, səsə döndü
Təbrizin küçələri.



Lilava çeşmə-çeşmə,
Kim deyər burdan keçmə.
Baxsın həsrət köçümə
Təbrizin küçələri.

Mənim söz dünyamsınız,
Sahilsiz dünyamsınız.
Bir Təbriz dünyamsınız,
Təbrizin küçələri...

Gecə yuxuma gəldi,
Əvvəlkitək gözəldi.
Gah ağladı, gah güldü
Təbrizin küçələri.
Təbrizin küçələri...

*1977*

## BALIQÇI

Balıqçı avar çəkir,
Balıqçı dənizdədir.
Nə sular sakitləşir,
Nə balıqlar üzdədir.
Dənizin bir sahili
Ənzəli şəhəridir.
Şəhər canlı bir əsər.
Gündüzü hay-haraylı,
Gecəsi yorğun şəhər.
Şəhərin arasından
Axır Qaziyan çayı.
Qayalara toxunur
Dalğaların harayı,
Ləpələrin harayı...
Balıqçı avar çəkir,
Avarlar enir, qalxır.

Qocanın ömrü kimi
Avarlar necə ağır...
Külək əsir, dalğanı
Dalğalara bağlayır.
Qocanın əhvalına
Elə bil hönkür-hönkür
Buludlar da ağlayır.
Qayıqda tor uğursuz,
Qoca yorğun, yuxusuz.
Səma tutqun, sahil boş,
Balıqçı qəmdən sərxoş.
Elə bil sərt dalğalar
Qıy vurub dönə-dönə
Balıqları aparıb
Göy suların dibinə...
Balıqçı avar çəkir,
Dalğalar dönür dağa.
Balıqçı avar çəkir,
Evinə bircə günlük
Səadət aparmağa...

Artıq axşam qovuşur,
Evinə dönür hamı.
Balıqçı avar çəkir,
Dənizdə qarşılayır
Kədər dolu axşamı.
Birgünlük səadəti
Tapa bilməmiş hələ.
Boş torla, boş qayıqla,
O necə dönsün evə,
Necə dönsün sahilə?!

*1966*



# Durnalar qayıdanda

## AMANDIR, TOXUNMA YASƏMƏNLƏRƏ

Yazırsan, yamanca darıxmışam mən,
Yenə səndən ötrü, Bakıdan ötrü.
Sənsiz elə bil ki, qərib quşam mən,
Həsrətə dözməyir bu şair ömrü.

Yazırsan, calayıb günləri günə
Sənə çatmaq üçün körpü salaram.
Yazırsan inanıb məhəbbətinə,
Qürbətdə birtəhər dözüb qalaram.

Yazırsan, burada bahardır hələ,
Nazəndə çağıdır yasəmənlərin.
Yazırsan, dağlarda qar vardır hələ,
Qar, ağ örpəyidir zümrüd şəhərin.

Yazırsan, küçələr bağça-bağçadır,
İnsan yaşıllığa bürünür burda.
Yazırsan, kim deyir dağlar qocadır,
Dağlar necə cavan görünür burda.

Sıldırım qayalar çiçək naxışlı,
Çaxan şimşəklərdən dərələr dinir.
Cığırlar, dolayar bahar yağışlı,
Dağlara çən düşür, gah duman enir.

Bir anda neçə yol hava dəyişir,
Munis gözəlliyi görmürəm hərdən.
Sanıram, gözümdə dünya dəyişir,
Özümü tək-tənha görəndə birdən.

Yazırsan, qayıdıb gələndə sənə
Bir dəstə yasəmən gətirib gəlləm.
Yazırsan, başımı qoyub sinənə,
Həsrətsiz günümdür deyib dincəlləm...

Əzizim, nə zaman sən gəldin, bil ki,
Sanaram, bahar da gəldi səninlə.
Könül baharımız solan deyil ki,
Gəl bu ürəyimin səsini dinlə.

Ata qayğıları, ər qayğıları
Evimi şəfəqə bürüyər, inan.
Başlar nəğməmin də əsl baharı,
Nəğməyə çevrilir sanaram hər yan...

Quşu yuvasından, gülü budaqdan,
Aralı görəndə səma da ağlar.
İnsan ayrı düşsə doğma torpaqdan
Onun dərdlərinə dünya da ağlar.

Amandır, toxunma yasəmənlərə,
Budaqdan ayrılan güllər üşüyər.
Ehtiyat etməzsən, göz görə-görə
Təbiətə qəfil bir tufan düşər...

*1977*

## ELƏ ƏVVƏLKİ KİMİYƏM

Mən
elə əvvəlkitək
sadiqəm sənə.
Dönük olmamışam məhəbbətinə.
Qəlbimdə
bir dünya sənə qayğım,
hörmətim
sevgim,
ilqarım.
Elə əvvəlkitək
bir otaq gülüşüm,
qönçə-qönçə



könül mahnılarım.
Sənə dediklərimdən çox
nə qədər şirin arzular.
Səndən gizli çəkdiyim
qəlbimi incidən
ayrılıq, intizar.
Mən elə əvvəlki kimiyəm.
Dəyişməmiş kövrəkliyim,
Dəyişməmiş şerə sevgim,
şairə hörmətim.
Şeirdir
Həyatda mənim sərvətim,
sənə əmanətim.
Mən dəyişməmişəm əsla,
elə əvvəlkitək varam.
Təzədən doğulsam əgər
Yenə
Dünənim, bu günüm kimi yaşaram.
ömrüm, günüm,
dəyişən bilirsən nədir.
Alnımda artan cizgilər,
ürəyimin döyüntüsü,
gecəmin rahat yuxusu,
saçımın qarası.
Dəyişir,
tərk edir məni
cavanlıq dünyası...

*1967*

## DURNALAR QAYIDANDA

Uca dağlar başında
Yenə karvan yol eylər.
Duman keçər, durular
Yenə də mavi göylər.

Köksünə çiçəklərdən
Bəzək vurar güneylər,
Durnalar qayıdanda.

Başlayar bahar ömrü
Yaşıl çəmənin, çölün.
Öz ətri, öz yeri var
Bu torpaqda hər gülün.
Yenə bulaq başında
Qatarlanar qız-gəlin,
Durnalar qayıdanda.

Dağların sinəsində
Cığırlar üzə gülər.
Dağların ətəyində
Fikirlərim dincələr.
Dağlara təzə hava,
Təzə bir nəfəs gələr,
Durnalar qayıdanda.

Hər baxdıqca dağlara
Ürəyim dönər dağa.
Bu yenilməz dağlardır
Sanaram mənə arxa.
Dağlar sanki səf çəkib
Bir də qalxar ayağa
Durnalar qayıdanda.

Quzeydəki qarlara
Gün düşər xal-xal olar.
Buludların gözləri
İndi sevincdən dolar.
Ayrılığın, həsrətin
Qəmi arxada qalar,
Durnalar qayıdanda.

Torpaq qış yuxusundan
Oyanar aram-aram.
Onun hər zərrəsində



Min hekayət araram.
Qayıdan durnalara
Mən nəğmə bağışlaram
Durnalar qayıdanda.

Meh əsər, bağçalardan
Qovar dumanı, çəni.
Öz çiçək dünyasında
Yaşadar bahar məni.
Təbiət də başlayar
Təzə hekayətini
Durnalar qayıdanda.

Qayaların köksünü
Günəş özü naxışlar.
Tökülər dərələrə
Sellər, sular, yağışlar.
Könlümə bu səma, yer
Tər nəğmələr bağışlar
Durnalar qayıdanda.

Günəş bir də zər ələr
Güllərin paltarına.
Düzülər şeh düymələr
Güllərin paltarına.
Baxarıq durnaların
Həsrətsiz qatarına
Durnalar qayıdanda,
Durnalar qayıdanda...

*1979*

## MƏN ELƏ SANDIM Kİ...

Bir səhər, qocalıq döydü qapını,
Əlində əsası, gözündə eynək.
Dedi istəsən də, isitəməsən də
Səninlə günümü keçirəm gərək.

Uzun yollar keçib gəlmişəm, dedi,
Qoyma gözlərindən irağa məni.
Mən gənclik deyiləm vəfasız çıxam,
Bənzətmə gedəri qonağa məni.

Son yurdum alnının qırışlarıdır,
Bir də ki, saçında məskən salmışam.
Cavanlıq atını çapıb gedəndə
Mən səni gözləyib yolda qalmışam.

Gah şaxta vurubdur məni, gah günəş,
Ömür dastanını varaqladıqca.
Çalmalı dağlarla yaşıd olsam da,
Tutmuşam başımı dağlarlan uca!

Həyat çalxalandıqca bir dəniz kimi,
Göyərçin ləpələr saçıma qonmuş.
Sanki qaşlarımda quzey qarıdır
Bir sükut içində beləcə donmuş.

Qocalıq danışdı öz həyatını,
Dinlədim hər sözü bir ehtiramla.
Doğrusu mənə də əziz göründü
O bu əzəmətlə, bu ehtişamla.

Xəyalım bir anda gəzdi illəri,
İllər gah danışdı, gah lal göründü.
Oğlum ana, deyə çağırdı məni,
Gözümdə hicranla vüsal göründü.

İlk dəfə, ilk dəfə mən qoşa gördüm
Hicranla vüsalı. Sevincim artdı.
Mən elə sandım ki, gedən gəncliyim
Oğlumun səsində geri qayıtdı.

Dedim, ey qocalıq, müqəddəs ata!
Mənim darıxmağa heç haqqım varmı?
Ömrümün baharı səslədi məni,
Ömrü bahar olan heç qocalarmı?

*1964*



## SEVİNC YAŞLARI

Budaqlarda
şeh parlayır
Düzüm-düzüm, tək-tək
Elə bil
Budaqlar ağlayır
Göz yaşı tökərək.
Ağacın gövdəsindən
Damcı-damcı
Şeh süzülüb axır.
Görəsən
Ağaclar nə üçün ağlayır,
nə üçün darıxır.
Havada
nə şaxta,
nə çən,
nə duman var.
Bəs nə üçün ağlayır ağaclar?
Meh əsir...
Uzaqdan bir quş sədası
sükutu qırır.
Məni fikirdən ayırır.
Göylərin aynasında
Qövsi-qüzey görürəm
Əlvan-əlvan.
Rənglər
Sarı, qırmızı, narıncı.
Sevinc yaşlarıdır
bəzəmiş hər budağı,
hər ağacı.
Ağac da canlıdır,
Bir kökün
nə qədər budağı,
yarpağı,
bəhəri olur.
Ağacın da ömrü, günü,

Yuxuma gəlsəydin əgər bir axşam,
Hərəsan yuxuma dinclik qonardı,
Səsini, sözünü dinlədikcə mən,
Yuxumda çıraqlar, şamlar yanardı.

Aşkarda görüşdük səninlə ancaq,
Fəqət ani oldu vüsalın sənin.
Getdin, acı, şirin xatirələrlə
Qaldı yaddaşımda xəyalın sənin...

*1974*

## MƏN ÇİÇƏK OLSAYDIM...

Mən çiçək olsaydım, ətirli çiçək
Ətrimlə məst edib oxşardım səni.
Mən ulduz olsaydım şölə çəkərək
Göylərə yazardım məhəbbətini.

Deyirəm, mən dəniz olsaydım inan –
Nəğmələr deyərdim sənə tərtəzə.
Sevdalı dalğalar, mavi asiman
Qibtəylə, həsədlə baxardı bizə.

Nurlu ay olsaydım batmazdım, əsla,
Daima göylərdə işıq saçardım.
Qoymazdım qalasan gülüm, tək-tənha,
Gələrdim, qapını özüm açardım.

Mən günəş olsaydım, qızıl tac olub
Başında parlardım ömrüm boyunca.
Arzulu ürəktək boşalıb, dolub
Mahnılar deyərdim sənə doyunca...

Axar çay olsaydım dərə, dağ aşıb
Bağçana, bağına axıb gələrdim.
Yorulub, dincəlib, kükrəyib, daşıb
Bir anda sədləri yıxıb gələrdim.



Bir yaşıl yarpaqlı çinar olsaydım,
Pəncərən önündə yaşa dolardım.
Dodağı nəğməli bahar olsaydım
Ömrünə, gününə hopub qalardım.

Ya rübab, ya kaman, ya tar olsaydım
Sevgindən mən dilə gələrdim inan.
Yaz əriylə dolu rüzgar olsaydım
İlk özüm öpərdim o saçlarından.

Fəqət nə baharam, nə günəş, nə ay,
Nə çinar, nə rübab, nə kamanam mən.
Nə ulduz, nə dəniz, nə kükrəyən çay,
Məhəbbət yolçusu bir insanam mən.

Bircə ürəyim var, sənindir o da,
Bir də ki, nəğməmdir sovqatım mənim.
Məhəbbətsiz ömür nədir dünyada,
Sevgidən yaranmış həyatım mənim...

*1962*

## ELLƏR ÇAĞIRIR MƏNİ

Əriyir qışın qarı,
Qalxır yerin buxarı.
Geyinib yaz paltarı
Çöllər çağırır məni.

Açdı bənövşə, lalə,
Yayıldı döşə lalə.
Küləklərin diliylə
Güllər çağırır məni.

Quşlar qayıdır yenə,
Göy dolur dönə-dönə.
Düşüb nəğmə eşqinə
Göllər çağırır məni.

Ətirləndi dağ-dərə,
Təbiət döndü şerə.
Bir yaz da gəldi ömrə,
İllər çağırır məni.

İldırım çaxıb keçir,
Bulud darıxıb keçir.
Dağlardan axıb keçir,
Sellər çağırır məni.

Baxıram dönə-dönə
Obaların köçünə.
Dönüb ağ göyərçinə
Əllər çağırır məni.

Arzular dalğa-dalğa,
Nəğməmə eldir arxa.
Alqış bu doğmalığa,
*Ellər çağırır məni,*
Ellər çağırır məni...

*1970*

## QƏLƏMİM VƏ KÖRPƏM

Axşamdır...
Otağımda oturmuşam yenə tək,
Bir şeir həvəsilə sinəmdə çarpır ürək.
Xəyalım dost elləri gəzib, dolanır mənim,
İntizar içindədir, əlimdəki qələmim.
Mən yazmaq istəyirəm, tükənməyən həvəslə,
Kağızın üzərində qələm gəzməmiş hələ
Körpəm açır gözünü.
Ağlayır için-için,
Qışqırır, sanki deyir:
"Gəl yemək ver mənimçün".
Xəyal, uçur, qələmim hərəkətsiz qalır bax,



Ürəyimdə iki eşq üz-üzə gəlir ancaq.
Hər ikisi əzizdir mənimçün həyat kimi,
Hər ikisi ruh verir mənə nəqarət kimi.
Hər ikisi balamdır ömrümün meyvəsidir.
Tükənməyən ilhamım, ürəyimin səsidir.
Bir əlimdə qələmim, bir əlimdə körpə, mən
Masamın arxasında əyləşirəm təzədən.
Körpəm baxır üzümə, gülümsünür arabir,
Onun bu gülüşləri artıq şerə çevrilir.

*1954*

## HƏRDƏN

Kimsə bir dost kimi yad edir məni,
Hardasa nəğməmi oxuyan olur.
Elə bil dünyanın məhəbbətini
Mənə bəxş edirlər, ürəyim dolur.

Bəzən məclislərdə düşürəm yada,
Deyirəm əməyim getməmiş hədər,
Damlayam bu dərin, coşqun sularda,
Haqqım var sevinim bir damla qədər...

Bəzən həzin-həzin çalıb ötürəm,
Hardasa kiminsə kövrəlir qəlbi.
Bəzən müjdələrə çevrilir nəğməm,
Döyür qapıları qaranquş kimi...

Dönüb təbəssümə qonuram bəzən
Kiminsə üzünə, yox olur qəmim.
Kiminsə qəlbində yaşayıram mən,
Demək yaşamağa haqqım var mənim...

Mənim sevinməyə haqqım var, haqqım,
Damlayam, yaşadar nəhrlər məni.
Sevin, sən də sevin, vətən torpağım,
Kim isə, hardasa yad edər məni...

*1971*

## NAĞILLI GÜNLƏR

Yadındamı, ağaclar
Əlimizdən zar idi.
Budaqlar dilə gəlib
Az qala ağlar idi.
Deyərdik görəsən kim
Tez qalxar bu ağaca.
Qalxardıq budaqlara
Quş kimi uça-uça.
Körpə qaranquşlara
Bəzən yuva qurardıq.
Daş atıb sərçələri
Arabir qorxudardıq.
Yadındamı qovardıq
Lək-lək kəpənəkləri:
Xallı kəpənəkləri,
Göyçək kəpənəkləri.
Yadındamı çimərdik
Çayda hay-harayla biz.
Dəyib çaylaq daşına
Əzizlərdi, qanardı
Ayağımız, əlimiz.
"Qaçdı-tutdu" oynardıq,
Oynardıq "Gizlənpaç" da.
Gizlənərdik çardaqda,
Gizlənərdik ağacda.
Yamacdan gül toplayar,
Dağnanəsi dərərdik.
Güllərdən çələng hörər,
Dağnanəsini qoca
Nənəmizə verərdik
Nənəmiz sığal çəkər,
Saçımızı oxşardı.
Boyumuza nə qədər
Şirin sözlər qoşardı.
O Nurulla babanın



Nağılı yadındamı?
O nağıl elə bil ki,
Sehrli bir aləmə
Aparırdı adamı.
Artıq nağıla dönüb
O nənə də, baba da
Bir zaman bir nənəylə,
Bir baba yaşayardı
Deyirik bu dünyada...

*1974*

## BİZİM YAYLAQLAR

Bu ellərlə ömür sürər,
Neçə qəlbi sevindirər.
Neçə qəlbə şəfa verər,
Bizim yaylaqlar, yaylaqlar.

Yaşıllanır çinar-çinar,
Hər çinar bir yaşıl fanar.
Yaz gələndə havalanar
Bizim yaylaqlar, yaylaqlar.

Nəğməni sellərdən alar,
İlhamı ellərdən alar.
Müjdəni yollardan alar,
Bizim yaylaqlar, yaylaqlar.

Keçənləri yoldan eylər,
Sinəsində mehman eylər.
Ayrılıqdan aman eylər
Bizim yaylaqlar, yaylaqlar.

Qardaşlaşıb bu dağlarla,
Nəğmələnər bulaqlarla.
İstilənər ocaqlarla
Bizim yaylaqlar, yaylaqlar.

Hər güldə bir dərman saxlar,
Nanə, yarpız, reyhan saxlar.
Qocaları cavan saxlar
Bizim yaylaqlar, yaylaqlar.

"İsti su"lu, "Turş su"ludur,
Xatirələrlə doludur.
Neçə ömür-gün yoludur
Bizim yaylaqlar, yaylaqlar.

Yolu, izi unutmarıq,
Əhdimizi unutmarıq.
Heç vaxt sizi unutmarıq,
Bizim yaylaqlar, yaylaqlar.

*1982*

## GÖZ DƏ HEYRAN OLUR...

Baxıram Xəzərə mən dönə-dönə,
Göz də heyran olur, könül də heyran.
Coşqun dalğaların əzəmətinə
Göz də heyran olur, könül də heyran.

Açıb qanadını ləpələr dinir,
Ləpələr bir duzlu nəğməyə dönür.
Sulara qızılı şəfəqlər enir,
Göz də heyran olur, könül də heyran.

Sahil qumlarına can atır sular,
Nə rahatlıq bilir, nə yatır, sular.
Coşur, qayıqları oynadır sular,
Göz də heyran olur, könül də heyran.

Min ilham alıram hər bir zərrədən,
Bir məna duyuram hər zərrədə mən.



Baxdıqca doymuram bu mənzərədən,
Göz də heyran olur, könül də heyran.

Gözəlsən ey Xəzər hər anda mənə,
Əzizdir ləpən də, dalğan da mənə.
Mavi gözlərinə baxanda mənə,
Göz də heyran olur, könül də heyran.

Coşqun sularında yuyunanda mən,
Laylanın altında uyuyanda mən,
İlıq qumlar üstə baş qoyanda mən
Göz də heyran olur, könül də heyran.

Gələrəm, könlümə səsin düşəndə,
Gələrəm, gəlməyim söylə neçin də?
Hər dalğan ey Xəzər, nəğmələşəndə
Göz də heyran olur, könül də heyran.

Günəş çimər səndə, ay çimər səndə,
Ulduzlar tökülüb, ay çimər səndə.
Sulardan sahilə bir meh əsəndə
Göz də heyran olur, könül də heyran.

Hələ də Xəzərlə həsbhaldayam,
Xəzər coşub daşır, mən xəyaldayam.
Hər coşub daşdıqca bu sözlü dünyam
Göz də heyran olur, könül də heyran.

Getmək istəyirəm, ləpələr coşur,
Bir anda göy sular min hala düşür.
Uzaqda dənizlə üfüq qovuşur,
Göz də heyran olur, könül də heyran,
Göz də heyran olur, könül də heyran...

*1982*

## BİR YAY SƏNSİZ

Bu yay görüşünə gələ bilmədim,
Səninlə danışıb gülə bilmədim.
Həsrətin ağırmış belə, bilmədim,
Xəzər, ay Xəzər.

Həm şirin, həm duzlu, laylayımsan sən,
Səsimsən, özümsən, harayımsan sən.
Bir dəniz qəsrimsən, sarayımsan sən,
Xəzər, ay Xəzər.

Uçar qağayılar, açar ağ yelkən,
Gözəl görünürsən bu yelkəndə sən.
Saçların ağarar elə bil dən-dən,
Xəzər, ay Xəzər.

Səhərlər suların zərlə yuyunar,
Axşamlar ulduzlar köksünə qonar.
Ay keşikçin olar, sübhəcən yanar,
Xəzər, ay Xəzər.

Yenə ürəyimdə gəlmisən dilə,
Sanki danışıram indi səninlə.
Ehey, bu nəğməmi bir anlıq dinlə,
Xəzər, ay Xəzər.

Dinlə bu nəğməmi, sənindir nəğməm,
Mən kiçik zərrənəm, sənsə bir aləm.
Bu ülvi sevgidən doyan deyiləm,
Xəzər, ay Xəzər.

Bu ani həsrətdir, ani ayrılıq,
Səndən ayırarmı məni ayrılıq.
Heç zaman, heç zaman biz ayrılmarıq
Xəzər, ay Xəzər.



İsitsin o qızıl günəş sinəmi,
Tərk etməz qəhqəhə, gülüş sinəmi.
Nəğmələr bəzəsin gümüş sinəni,
Xəzər, ay Xəzər...

*1976*

## DAĞLARIN

Yenə də gül açdı cığırlar, yollar,
Başlandı söhbəti, sözü dağların.
Bizim ömrümüzə bir məlhəm oldu
Bənövşə ətirli yazı dağların.

Ocaqlar çatıldı, ocaqlar yandı,
Hər tərəf işığa, nura boyandı.
Köksündə bir dünya şəfqət oyandı,
Güldü şəfəqlənən üzü dağların.

Söz-sözə qarışdı, nağıl-nağıla,
Hər kəlmə elə bil döndü noğula.
Həyat ibrət olsun pisə, paxıla,
Yaşasın oğulu, qızı dağların.

Aşıqlar dayansın yenə üz-üzə,
Bu şirin ömrümüz gəlməsin gözə.
Bizim sazlı, sözlü məclisimizə
Bir də şahid olsun özü dağların.

Havası məlhəmdir ürəyə, cana,
Açar qucağını şəfa umana.
Sevgisi, sevdası düşüb dastana,
Sönməsin ocağı, gözü dağların.

Dillərdə həmişə əzbər olubdur,
Hər dolay bir canlı əsər olubdur.
İgid Nəbilərə səngər olubdur,
Heç vaxt əyilməsin dizi dağların.

O ağ yapıncısı sürüşər hərdən,
Dövrəsində quşlar ötüşər hərdən.
Qarlı zirvəsinə gün düşər hərdən,
Parıldar almaztək tozu dağların.

Tərifi qurtarmaz sözlə, söhbətlə,
Adı yada düşər bir məhəbbətlə.
Açılar süfrəsi dosta hörmətlə,
Tükənməz çörəyi, duzu dağların.
Yaşasın oğulu, qızı dağların.

*1982*

## QƏLBİM O GÜNLƏRİ UNUDAN DEYİL

Mənə sevgimizdən bir həzin nəğmə,
Bir də tənha söyüd yadigar qaldı.
Söyüd də mənimtək büründü qəmə,
Saçları bir anda pərişan oldu.

Mənə sevgimizdən bir qumlu sahil,
Bir dəniz dalğası, harayı qaldı.
Qəlbim o günləri unudan deyil,
Qəlbə unut demək əmri mahaldı.

Mənə sevgimizdən bir sinə dəftər,
Bir sinə dolusu yaddaşlar qaldı.
Baxdıqca yollara hər axşam-səhər
Mənə həsrət dolu baxışlar qaldı.

Mənə sevgimizdən dünənli dünya,
Bir də dünənimin xəyalı qaldı.
Gözümdə bir şirin, ümidli röya,
Ürəyim göylərtək boşaldı, doldu.

Mənə sevgimizdən sənə can atmaq,
Sənli günlərimi aramaq qaldı.



İlqarı yaşatmaq, andı yaşatmaq,
Kövrək sevgimizi qorumaq qaldı.

Mənə sevgimizdən bir bulaq başı,
Bir qaya üstündə yazılar qaldı.
Gözümdə ikicə damla göz yaşı,
Sinəmdə nə qədər arzular qaldı.

Mənə sevgimizdən bir dağ dözümü,
Bir də dağa qalxan dolaylar qaldı.
Hayana getdimsə tutub üzümü,
Qəlbimdə o illər, o aylar qaldı.

Mənə sevgimizdən inamım qaldı,
İnamla açıram hər səhəri mən.
Səninlə görüşmək gümanım qaldı,
Doğdu bu inamlar məhəbbətimdən.

Mənə sevgimizdən rəngi solmayan
Qoşa hördüyümüz bir çələng qaldı.
Gecəli, gündüzlü rahat olmayan
Coşan, dalğalanan bir ürək qaldı...

*1978*

## XƏZƏRƏ AXŞAM DÜŞÜR

Qaş qaralır, günəşin qürubuna az qalır,
Sahil kimsəsizləşir, qumlar, üstə iz qalır.
Bir mənim xəyallarım, bir də göy dəniz qalır.
Xəzərə axşam düşür.

Ləpələr uşaq kimi qovurlar bir-birini,
Yuyurlar neçə-neçə ayaq ləpirlərini.
Dalğalar öz dilində yenə səsləyir məni.
Xəzərə axşam düşür.

Günəş hörüklərini yığır suların üstdən,
Dəniz coşub, daşmaqda yenə düşmür həvəsdən.
Bir mahnı eşidirəm, kimsə oxuyur pəsdən,
Xəzərə axşam düşür.

Dalğaların qoynundan yenə ay çıxır üzə,
Ulduzlar qucaq-qucaq səpilir göy dənizə.
Sular dindikcə, qəlbim qanadlanır bu səsə,
Xəzərə axşam düşür.

Saçlarımı oxşayır axşam küləyi mənim,
Könlümdə bir dənizdir şeir, nəğmə aləmim.
Üzür qırçın sularda fərəhlə xəyal gəmim
Xəzərə axşam düşür.

Duzlu dodaqlarıyla dəniz bir laylay çalır,
Bu layla dənizdənmi, könlümdənmi ucalır?
Mən gedirəm, sahildə ayaq izlərim qalır.
Xəzərə axşam düşür.
Xəzərə axşam düşür.

*1973*

## BULAQLAR BAŞLADI ÖZ NAĞILINI

Bahar yenə gəldi köksündə atəş,
Bulaqlar başladı öz nağılını.
Gəzdi qapı-qapı anamız günəş,
Elə bil payladı yaz noğulu.

Yaşıl səmənilər çəmən-çəməndi,
Lalələr çəmənin qızıl düyməsi.
İlıq meh əsdikcə budaqlar dindi,
Düşdü bağçalara quşların səsi.

Güllərin ətrindən məst olan torpaq
Yuyundu neçə yol yaz yağışında.



Öz qış yuxusundan ayılan torpaq
Göründü bir bahar yaraşığında.

Göylər quş dünyası oldu necə də,
Quşların sorağı səmadan gəldi.
Durnalar qatarla ötüb keçəndə
Onların müjdəsi havadan gəldi.

Zərif tumurcuqlar güldülər bir-bir
Yaşıl ağacların budaqlarından.
Təzəcə diş yaran körpələrimdir,
Çıxdılar elə bil qundaqlarından.

Sürüşdü dağların o boz cunası,
Yağışlar nərdivan yaratdı göyə.
Dəyişdi dərənin, düzün havası,
Yağışlar başladı mahnı deməyə.

Sonra ətək-ətək tökülən dolu
Yağış nərdivanı qırıb dağıtdı.
Yağışdan da şirin oxuyan dolu
Bir duzlu, məzəli mahnı yaratdı...

Yığıb ətəyini göylər də artıq,
Qoymadı dağıla dolular daha.
Sanki bir səs gəldi hey qırıq-qırıq;
Nağılın qalanı qaldı sabaha.

Nağılın qalanı qaldı sabaha,
Səhər olacaqdır yol, yoxuş nağıl.
Bu gündən nəğməli yoldu sabaha,
Bu olmuş həqiqət, bu olmuş nağıl.

Dəyişir təbiət öz görkəmini,
Baharlı çağları başlayır ömrün.
Quşlar qanadına alsınlar məni,
Müjdəçisi olum bu xoş günlərin.

Gəzim zəmi-zəmi, mən tarla-tarla,
Yaşıllıq içində dinsin nəğməm də.
O tumurcuqlar kimi gəlib ilhama
Sözlər qönçələnsin, güsün sinəmdə.

*1978*

## GÖY GÖL

Sən yaşıl dağlardan, sulu dağlardan
Axdın damcı-damcı torpağa, Göygöl.
Sinəsi söhbətli, ulu dağlardan
Yenə də düşmədin uzağa, Göygöl.

Deyirlər göllərin dilbəri sənsən,
Kəpəzin incisi, gövhəri sənsən.
O yaşıl otların cövhəri sənsən,
Yaşıl bir süfrə aç qonağa, Göygöl.

Mənim Urmi gölüm sənə vurğundur,
Onu öz dilinlə dindir, ovundur.
İntizar çəkməkdən qəlbi yorğundur,
Daha dözə bilmir fərağa, Göygöl.

İlhamı hüsnündən almışdır bahar,
Ulduzdan mirvarin, aydan tacın var.
Üzünü görməyə tələsən dostlar
Düşmüşlər sevgidən sorağa, Göygöl.

Şəfqətlə baş əyər o dağlar sənə,
Çatmaz axar çaylar, bulaqlar sənə.
Ülvi gözəlliyin şöhrətdir mənə,
Getmərəm gözündən irağa, Göygöl.

*1964*



## ƏLVAN XALI SƏRDİ YOLLAR...

Göylər açdı yaxasını,
Bənövşələr səpələndi.
Duyub yazın havasını,
Durğun göllər ləpələndi.

Çaylar şirin bir nəğmətək
Oba-oba axıb keçdi.
Körpə quşlar ürpək-ürpək
Pəncərəmdən baxıb keçdi.

Vəcdə gəlib sanki, birdən
Girdim bahar yağışına.
Səslədilər yerbəyerdən
Məni nəğmə yarışına.

Göyqurşağı göydə güldü,
Yerdə tarla, zəmi, bağça.
Dağlardan sellər töküldü
Dərin dərələr boyunca.

Çinarların yaz havalı
Kölgəsinə girdi yollar.
Gül naxışlı, gül butalı
Əlvan xalı sərdi yollar.

Meh əsdikcə yırğalandı,
Bir-birinə dəydi güllər.
Göy üzündə günəş yandı,
Zərdən paltar geydi yollar.

Havalanan kəpənəklər
Güldən-gülə yol saldılar.
Uçmaq üçün axşam-səhər
Çiçəklərdən güc aldılar.

Bulaqların gözü güldü,
Nəğmələndi hər zəmisi.
Ətirləndi, dada gəldi
Yarpız naxışlı süfrəsi.

Ellər yenə dağa qalxdı,
Cavanlaşdı qoca dağlar.
Sinəsinə çiçək taxdı,
Tutdu təzə xonça, dağlar.

Oba-oba, oymaq-oymaq,
Səslədi təbiət məni.
İnandım ki, yaşadacaq
Bu sevgi, bu şəfqət məni.

Arzularımümman-ümman,
Yol gedərəm səhər-axşam.
Mən həyatdan, insanlardan
Doymamışam, doymamışam.

*1980*

## BİR SƏHƏR...

Bir səhər
itirdim səni –
gözümdən uçan
bir şirin yuxu kimi.
Bu səhər
yadıma düşdün,
təşnə insana gərək
bir içim su kimi.
Bu səhər səni andım,
Quzeydə
günəş axtaran bir yolçutək.
bir mahnı ötdüm



bir az dözümlü,
Bir az kövrək.
Bu səhər
Səni istədim
laylaya həsrət
körpə kimi.
Axı sən özünlə aparmısan
ümidimi, təsəllimi...
bu səhər
yollara çıxdım.
Bir az ümid,
bir az həsrət,
bir az inamla.
Səni görmək arzusuyla
boylanıram
sağa, sola...
Elə bil kimsə pıçıldayır:
– O gələcək.
Bir mahnı oxuyuram.
Bir az dözümlü,
bir az kövrək...

*1970*

## ƏLVİDA, ƏLVİDA...

Əlvida, əlvida, ey çöllər, düzlər,
Əlvida, əlvida, körpə nərgizlər.
Əlvida, ey qızıl laləli dağlar,
Əlvida, ey yaşıl bağçalar, bağlar.
Əlvida, ey göyün qövsü-qüzehi,
Əlvida, ey yazın ətirli mehi.
Əlvida, ey doğma yollar, yoxuşlar,
Əlvida, sizə də ey qaranquşlar.
Əlvida, ey suyu məlhəm bulaqlar,
Əlvida, ey şirin nəğməm bulaqlar,

Əlvida, sizə də ocaq daşları,
Əlvida, sizə də yaz yağışları.
Qalsın görüşümüz gələn bahara,
İndi qızıl payız çıxıb yollara.
İndi payız açmış öz sərgisini,
Payız nəğmələri səsləyir məni...

*1976*

## BACARSAN...

Bacarsan baharı əylə,
Payz özü gələcəkdir.
Ömrə yağışla, küləklə
Payız özü gələcəkdir.

Düşəcəkdir haldan-hala,
Çıxacaqdır yoldan-yola.
Bir gün kövrək addımlarla
Payız özü gələcəkdir.

Ötən günə edib vida,
Naxış salıb, yerə, yurda.
Qızıl əsa tuta-tuta,
Payız özü gələcəkdir.

Sinəsində söz dünyası,
Od dünyası, köz dünyası,
Nağıl olub yaz dünyası,
Payız özü gələcəkdir.

Yoxuşları aşa-aşa,
İli ilə qoşa-qoşa.
Dönüb qanadlı bir quşa
Payız özü gələcəkdir.



Çatdıq ömrün yarısına,
Qalan ömrü ayrı sına.
Saçımızın qarasına
Payız özü gələcəkdir.

Alovlanıb yana-yana,
Yanıb, sönüb, dona-dona.
Səni, məni ana-ana
Payız özü gələcəkdir.

Bacarsan baharı əylə,
İlləri, ayları əylə.
Ömrə yağışla, küləklə
Payız özü gələcəkdir.
Payız özü gələcəkdir...

*1982*

## ÇAĞIR MƏNİ

Nə zaman ki, bir həsrətdən yandı sinən,
Nə zaman ki, yollar üstə dayandın sən,
Nə zaman ki, gözlərindən uçdu röyan,
Nə zaman ki, dara düşdü arzu dünyan,
*Nə zaman ki, dodağında dondu gülüş,*
Sənin üçün bir nağıla döndü gülüş,
Nə zaman ki, itib getdi rahatlığın,
Sinən üstə qəm qalandı yığın-yığın,
Nə zaman ki, nəğmələrin kövrək oldu,
Nə zaman ki, bir dərd bilən gərək oldu,
Könlündəki dərdi, qəmi bölmək üçün,
Gözündəki o yaşları silmək üçün,
Çağır, ey dost, mən gələrəm olsam harda,
Kəsə bilməz yolumuzu tufanlar da.
Çağır ey dost, dar ayaqda sına məni,
Bu həyatda, bu torpaqda sına məni.

*1973*

## KÖNLÜM İSTƏR

Könlüm istər bir yol salam,
Yenə ellərdən-ellərə.
Salam verəm, salam alam,
Şirin dillərdən-dillərdən.

Tər çiçəklər yada düşə,
Sinəm bir də oda düşə.
Çöllərə səs-səda düşə,
Coşan sellərdən-sellərdən.

Sönməz olsun kaş bu odum,
Çəmənlərdə şehə batım.
Çələng hörüm, dəstə tutum,
Əlvan güllərdən-güllərdən.

Çadır-çadır dağlar gülsün,
Üstümüzə nur tökülsün.
Nəğmə-nəğmə səsim gəlsin
Mənim illərdən-illərdən.

Dinsin cavanlaşan könlüm,
Haldan-hala düşən könlüm.
İlham alsın coşan könlüm
Gülən çöllərdən-çöllərdən,
Şirin dillərdən-dillərdən.

*1982*

## BAĞLARIN BAR VAXTI GƏL

Yazda gələ bilmədin,
Bağların bar vaxtı gəl.
Dedin hələ gəlmədin,
Bağların bar vaxtı gəl.



Dözümüm var hələ ki,
Döndük aya, ilə ki.
Gülüm, elə elə ki,
Bağların bar vaxtı gəl.

Salma saya çəni sən,
Ömürdən keçəni sən.
Xatırlayıb məni sən
Bağların bar vaxtı gəl.

Hər ağacın öz barı,
Bəzəyibdir bağları.
Unutma sən ilqarı,
Bağların bar vaxtı gəl.

Yol onu seçənindir,
Yol, müşkül açanındır.
Yol, onu keçənindir,
Bağların bar vaxtı gəl.

Yolları nura boya,
Sevgin düşsün dünyaya.
Körpü sal ilə, aya
Bağların bar vaxtı gəl.

Gəl, dağılsın həsrətim,
Quşlartək dil-dil ötüm.
Ay mənim səadətim,
Bağların bar vaxtı gəl.

Gəlməliydin baharda,
Gözüm qaldı yollarda.
Könlümü qoyma darda,
Bağların bar vaxtı gəl,
Bağların bar vaxtı gəl...

*1982*

## BU ÖMÜR YOLUNDA ZARAFAT OLMAZ

Bir odlu nəfəssən neyi dindirən,
Bəs nədən könlümü dindirməyirsən.
Bir içimlik susan təşnə söndürən,
Bu ürək yanğını söndürməyirsən.

Sən aylı, ulduzlu bir asimansan,
Bəs nədən ömrümə salmırsan işıq.
Mən kiçik zərrənəm, sənsə bir ümman,
İndi bəs nə üçün başqalaşmışıq.

Sən bir bahar mehi ətrin, rahiyən...
Bəs hanı saçımda əlinin odu.
Qışın qarı yağır saçıma dən-dən,
Yazıq mən, sənin heç xəbərin yoxdu...

"Bir əsim küləyə" dönmə yolumda,
Bu, ömür yoludur, zarafat olmaz.
Yandınmı, elə yan, sönmə yolumda,
Adımı odunla bu yollara yaz...

Payıza bənzərsən səxavətində,
Mənsə ülfətindən uzaq kimiyəm.
Dənizə bənzərsən məhəbbətində,
Mən yelkənsiz qalan tənha gəmiyəm...

Beləcə gedirəm. Nə səs, nə səda,
Saya salmayıram mən tufanları.
Köksü enib-qalxan coşqun dəryada
Yenə can atıram sahilə sarı.

Bəlkə qumlar üstə tənha iz qalıb,
Bəlkə qoşa qalır izimiz yenə.
Bəlkə bu sahildə səsimiz qalıb,
Qarışıb dənizin nəğmələrinə.



Beləcə sahilə can atıram mən,
Ömrümün, günümün bu xəzan vaxtı.
Yağır qışın qarı saçıma dən-dən,
Yazıq mən, səninsə xəbərin yoxdu.

*1982*

## TORPAĞIN ÜRƏK DÖYÜNTÜSÜ

Qış qaraldı, axşam qəribliyi çökdü sinəmə,
Kövrəldim yaman.
Quşların nəğmə səsi
Eşidildi uzaqlardan.
Quşlar yuvalarına çəkildilər
Nəğmələrlə açmaqçün səhəri.
Ulduzlar nizamlı, nizamsız
Səpildilər göy üzünə.
Ulduzlar
öz məhəbbətlərini yazdılar
göyün sinəsinə.
Ay bu məhəbbəti
işıq selinə qərq etdi haləhalə.
Ay bu məhəbbəti
İşıq selində yaşadacaq belə
Ayın şüası altda
rəngdən-rəngə çaldı dəniz
Dalğasıyla, ləpəsiylə.
Ləpələr sahil qumlarına sığal çəkdi
bir uşaq həvəsiylə.
Bu da bir məhəbbət idi,
suların sahil qumlarına məhəbbəti.
Bu da bir ülfət idi,
suların sahil qumları ilə
Pıçıltılı,
nəhayətsiz ülfəti...
Meh əsdi,
söyüdlərin saçları darandı

aram-aram,
asta-asta.
Meh əsdi,
elə bil söyüdlərçün
məhəbbət mahnısı oxudu.
bu axşam
asta-asta...
Körpə bənövşələr
yumdular körpə gözlərini
sübhədək.
Bulaqlar saxladılar söhbətlərini,
sözlərini sübhədək.
Torpağa həzin bir sükut çökdü,
dincəlsin deyə.
Fəqət torpağın böyük qəlbi
yenə başladı döyünməyə,
döyünməyə...
Hər vurğu sanki laylasıydı
çöllərin, ormanların.
Hər vurğu yaşamaq haqqıydı
torpağa bağlı insanların.
Təbiət bürünsə də
həzin bir sükuta,
Yenə qəlbimdə odlu bir məhəbbət
gözlərimdən qovub yuxumu,
dinləyirdim ana torpağın
ürək döyüntüsünü.
Dinləyirdim
illərdən keçib gələn,
sabaha körpü olan
hikmət dolu səsini,
hikmət dolu sözünü.
Dinləyirdim
ana torpağın
Ürək döyüntüsünü...
Ürək döyüntüsünü.

*1976*



## ABŞERON BAĞLARINDA

Şirin xatirələrim təzədən dilə gəldi,
Çiçəklər ləçək-ləçək nəğmələrimdə güldü.
Yarpaqların üstünə səhər şehi töküldü
Abşeron bağlarında.

Çinar, söyüd, qələmə, qovaq cərgə-cərgədir,
Quşlar budaqlar üstə nəğmə deyir, rəqs edir.
Hər ağac elə bil ki, bir yaşıl düşərgədir
Abşeron bağlarında.

Əncir yarpaqlarını açar, bizə gəl deyər,
Gəl, isti qumlar üstə bir uzan, dincəl deyər.
Əncirin hər dənəsi min-min məlhəmə dəyər
Abşeron bağlarında.

Xəzri də bir nəğmədir, gilavar da bir nəğmə,
Oxuyar bu nəğməni Xəzər də ləpə-ləpə.
Qonağın yollarında külək qızıl qum səpər
Abşeron bağlarında.

Meynələr qumlar üstə yatarlar şirin-şirin,
Titrədir yarpaqları küləklər sərin-sərin.
Bir şəfa qaynağıdır hər qarışın bu yerin
Abşeron bağlarında.

Yayar neftin ətrini əsən meh sola, sağa,
Günəş oyadar eli dənizdən qalxa-qalxa.
Görəndə bu lövhəni ürəyim dönər dağa
Abşeron bağlarında.

Uzaqdan buruqların sırası gülər üzə,
İşıq seli, nur seli tökülər qəlbimizə.
Göylər açar köksünü təzə nəğməyə, sözə
Abşeron bağlarında.

Bir şeirdi o çinar, o körpə zərif ot da,
O zümrüd səmadakı bəyaz, pəmbə bulud da.
Bir şeirdir haray da, bir şeirdir sükut da
Abşeron bağlarında.

Gözəldir göy suların o zərif ağ yelkəni,
Gözəldir dalğalarda süzüb gedən o gəmi.
Gözəldir şirin-şirin xəyal aparsın məni
Abşeron bağlarında.
Abşeron bağlarında...

*1973*

## QIZLAR GƏLİN KÖÇÜRLƏR

Qızlar bir-bir uçurlar,
Tələsin, oğlanlarım.
Qızlar gəlin köçürlər,
Tələsin, oğlanlarım.

Gedim "gəlingörmə"yə,
Arxayınlıq verməyə.
Məni sevindirməyə
Tələsin, oğlanlarım.

Tələsirəm yamanca,
Oynayım bir doyunca.
Tutmuşam sizə xonça,
Tələsin, oğlanlarım.

Anamız təkdir deyə,
Qəlbi kövrəkdir deyə.
Məni nənə etməyə
Tələsin, oğlanlarım.

Siz də bir çiçək dərin,
Evimizə gətirin.



Ömr edək şirin-şirin,
Tələsin, oğlanlarım.

Çıraqlar qoşa yansın,
Verib baş-başa, yansın.
Evmiz nura boyansın,
Tələsin, oğlanlarım.

Durmayın belə gendə,
Ötür ömür də, gün də.
Qaynana olum mən də,
Tələsin, oğlanlarım.

Gəlini tez gətirin,
Şadlanaq biz, gətirin.
Qızım yox, qız gətirin,
Tələsin, oğlanlarım.

Çağıraq dost, tanışı,
Toy edək yaxşı-yaxşı.
"Ətəkdən tökün daşı"
Tələsin, oğlanlarım.

Sevgi birdi, yüz olmaz,
Ürək sevgisiz olmaz
Sevən qəlbə söz olmaz
Tələsin, oğlanlarım,
Tələsin, oğlanlarım...

*1978*

## DESƏM DÜNYA QƏDƏR...

Desəm dünya qədər sevirəm səni, inanma,
Desəm səma qədər sevirəm səni, inanma.
Desəm sellər qədər sevirəm səni, inanma
Desəm güllər qədər sevirəm səni, inanma.

Bəzən dil yanılar, dil çaşa bilər,
Ürəkdən sorğusuz danışa bilər.
Gəlməz nə hesaba, nə saya sevgim,
Sığışmaz bu geniş dünyaya sevgim.
Dünyaya sığmayan bu sevgim ki, var
Mənim ürəyimdə yaşayar, qalar.
Ürəyimdə çatar əbədiyyətə,
İnan bu sevgiyə, bu məhəbbətə...

*1976*

## APAR MƏNİ

Bir ömürəm, yazım sənsən,
Bir nəğməyəm, sazım sənsən,
Bir ürəyim, arzum sənsən,
Hara getsən apar məni.

Bir çiçəyim, şehim sənsən,
Bir söhbətəm, neyim sənsən,
Bir budağam, mehim sənsən,
Hara getsən apar məni.

Bir laylayam, dünya sənsən,
Bir cüt gözəm, röyam sənsən.
Bir sevgiyəm, sevdam sənsən,
Hara getsən apar məni.

Bir meşəyəm, dağım sənsən,
Bir dağam, növrağım sənsən.
Bir güləm, budağım sənsən,
Hara getsən apar məni.

Bir bağçayam, barım sənsən,
Bir zirvəyəm, qarım sənsən.
Bir sinəyəm, tarım sənsən,
Hara getsən apar məni.



Bir ocağam, odum sənsən,
Bir ünvanam, adım sənsən
Bir quşam, qanadım sənsən
Hara getsən apar məni.

Geniş göylər quşa qalsın,
Ayrılıq dağ–daşa qalsın.
İzlərimiz qoşa qalsın.
Hara getsən apar məni.
Apar məni...

*1976*

## SƏNƏ GÖZÜM DEMƏRƏM

Sənə gözüm deməram,
Gözüm tovdan düşəcək.
Sənə ömrüm demərəm,
Ömür–gün ötüşəcək.
Sənə ürək demərəm,
Bir gün yorular o da.
Sənə qanad demərəm.
Birdən qırılar o da.
Sən nə adi bir nağıl,
Sən mənim dağılmayan
Bir məhəbbət dünyamsan.

*1976*

## SÖYLƏ, BU SƏADƏT DEYİLMİ...

Könlüm darıxanda çatırsan dada,
Az qala özünü atırsan oda.
Qoymursan qərq olum fırtınalarda,
Söylə, bu səadət deyilmi, gülüm?!

Yoxuşlu yolları qoşa qalxırıq,
Dönürük qanadlı quşa, qalxırıq.
Nə ürək təngiyir, nə darıxırıq,
Söylə, bu səadət deyilmi, gülüm?!

İçirik yarpızlı bulaqlardan biz,
Bir sərinlik tapır təşnə qəlbimiz.
Torpağa salırıq yenə təzə iz,
Söylə, bu səadət deyilmi, gülüm?!

Bir el məclisində əzizlənirdik,
Biz də danışırıq, biz də dinirik.
Təpədən-dırnağa şerə dönürük,
Söylə, bu səadət deyilmi, gülüm?!

Bir dost gəlişindən ev işıqlanır,
Sanki otaq boyu qəndillər yanır.
Həsrət gözümüzə bir sevinc qonur,
Söylə, bu səadət deyilmi, gülüm?!

Bəzən ötən günü yada salırıq,
Buludtək gah dolur, gah boşalırıq.
Şirin xəyallarla tək də qalırıq,
Söylə, bu səadət deyilmi, gülüm?!

Ünvanımız da bir, arzumuz da bir,
Ocağımız da bir, közümüz də bir.
Payızımız da bir, yazımız da bir,
Söylə, bu səadət deyilmi, gülüm?!

Ümidsiz olmadıq bu yer üzündə,
Bizdə inam da var, bizdə dözüm də
Ümiddir yelkəni ömrümüzün də,
Söylə, bu səadət deyilmi, gülüm?!

Gedirik, yenə də yollardayıq biz,
Ürəyin barıdır hər doğulan söz.



Vətən torpağıdır ilham çeşməmiz,
Söylə, bu səadət deyilmi, gülüm?!

Bir el məclisində əzizlənirik,
Biz də danışırıq, biz də dinirik.
Təpədən-dırnağa şerə dönürük,
Söylə, bu səadət deyilmi, gülüm?!

*1979*

## SINA MƏNİ

Hamar deyil ömrün yolu bilirəm,
Bu yollarda sına məni, sına sən.
Hara getsən, harda olsan gələrəm,
Bu yollarda sına məni, sına sən.

Səfər üstə haçan olsan, darıxma,
Köç çatıb, köç açan olsan, darıxma.
Yoxuşlardan keçən olsan, darıxma,
Bu yollarda sına məni, sına sən.

Başın üstə tufan qopsa, yel əssə,
Bu könlümlə yaşa nəfəs-nəfəsə.
Zaman səni qocaltmağa tələssə,
Bu yollarda sına məni, sına sən.

Təşnə olsan, çeşmə ollam səninçin,
Çinar olub, kölgə sallam səninçin.
Dağlarda tonqaltək qallam səninçin.
Bu yollarda sına məni, sına sən.

Zəmi-zəmi dənə dolan sünbüləm,
Mən ümmanam. Nə kəhrizəm, nə göləm.
Sevda dolu, sevgi dolu könüləm,
Bu yollarda sına məni, sına sən.

Nəğmə desən, nəğmələnim bir anda,
Dəniz kimi ləpələnim bir anda.
Saçlarına səpələnim bir anda,
Bu yollarda sına məni, sına sən.

Vida demə sən ömrünün yazına,
İnanmıram mən tale, bəxt yazana.
Qovuşmaqçün istəyinə, arzuna
Bu yollarda sına məni, sına sən.

Ümidlərin üşüsə od olaram,
Fikrə dalsan, dönüb sükut olaram.
Yağış desən, dolmuş bulud olaram,
Bu yollarda sına məni, sına sən.

Qəribləşən günlərinə yoldaşam,
Könlündəki nisgillərə sirdaşam.
Qadın deyil, mən səninçin qardaşam.
Bu yollarda sına məni, sına sən.

*1982*

## PAYIZ

Yaşıl yarpaqlara düşdü qızıl xal,
Çöllərə, düzlərə həzinlik gəldi.
Göy üzü bir anda oldu halbahal,
Dərələr kövrəldi, düzlər kövrəldi.

Yenə tənhalaşdı o buz bulaqlar,
Yenə də soyudu ocaq daşları.
Yenə də dumana büründü dağlar,
Əyləmək olmadı gedən quşları.

Əssə də payızın sərin küləyi,
Yenə ülfətdəyəm təbiətlə mən.



Dolub boşaldıqca şair ürəyi,
Ayrıla bilmirəm bu aləmimdən.

Mavi sular üstə üzən yarpaqlar
Qızıl qayıqları andırır mənə.
Fikrimə yaddaşlar yazan yarpaqlar.
Fikrimi ardınca aparır yenə.

Düşüb xəyalımın kövrək izinə
Könlüm bu aləmdən ayrılma deyir.
Buludlar doyduqca göyün üzünə
Saçıma, üzümə yağış ələyir.

Yağışı, küləyi salmayır saya
Bağlar öz barından sovqat bağlayır.
Küləklər elə bil bütün dünyaya
Bu qızıl payızın ətrini yayır...

Bir payız yağışı yağdıqca, yağır,
Payızı pişvaza çıxıb yol, yoxuş.
Ürəyimə təzə nəğmələr axır,
Saçıma, üzümə yağdıqca yağış...

*1983*

* * *

Ayrılıq əlindən sözlüyəm yenə,
Könlüm haray eylər, ay ellər, ellər.
Üzümü tutmuşam Araz səmtinə,
Dolubdur lal göylər, ay ellər, ellər.

Bir yanım hicrandır, bir yanım vüsal,
Bir yanım sevincdir, bir yanım məlal.
Məni yenə aldı, apardı xəyal,
Hanı o xoş illər, ay ellər, ellər.

Düşdü tufanlara baharım mənim,
Qaldı yad əllərdə diyarım mənim.
Yoxdur daha səbrim, qərarım mənim,
Dərdimi el bilər, ay ellər, ellər.

Sinəmdə nə qədər gör nisgilim var,
Hardasan, ay bahar, bahar, ay bahar.
Mənim gülüşümü oğurladılar
Coşqun çaylar, sellər, ay ellər, ellər.

Dar gündə köməkdir bacıya qardaş,
Gülgün bu ellərdən gen düşməsin kaş.
Elə ki, üzümdə giləlİənər yaş
Göz yaşımı silər, ay ellər, ellər.
Dərdimi el bilər, ay ellər, ellər.

*1969*

## İLLƏR YAMAN TƏLƏSDİ

Saçlarıma ağ cığırlar salmağa,
Günlər, aylar, illər yaman tələsdi.
Gəncliyimi əllərimdən almağa
Günlər, aylar, illər yaman tələsdi.

Gen dərələr əks edərdi səsimi,
Dağdan-dağa göndərərdi səsimi.
Soldurmaqçün sulardakı əksimi
Günlər, aylar, illər yaman tələsdi.

Qayalara nəqş edərdim adımı,
Məni mənsiz o qayalar andımı?
Söndürməkçün inadımı, odumu
Günlər, aylar, illər yaman tələsdi.

Ömrün yaşıl dünyasından uzağam,
Yarpağına xallar düşən budağam.



Mən deməzdim bir gedəri qonağam,
Günlər, aylar, illər yaman tələsdi.

Anam vardı laylaları bal dadan,
Qoruyardı məni dərddən, qadadan.
Ayırmaqçün o analı dünyamdan
Günlər, aylar, illər yaman tələsdi.

Azalıbdır ürəyimin dözümü,
Qınayıram bəzən özüm-özümü.
Öz tovundan salmaq üçün gözümü
Günlər, aylar, illər yaman tələsdi.

Dağ yolları, mən hardayam, siz harda,
Odum harda, külüm harda, köz harda.
Sınamaqçün məni bu sərt yollarda
Günlər, aylar, illər yaman tələsdi.

Heç gəlməzdi xəyalıma, ağlıma,
Zaman necə naxış salar alnıma.
Bir yanmadı, kövrəlmədi halıma
Günlər, aylar, illər yaman tələsdi.

El-obama qovuşsaydım nə dərdim,
Bir canımı yüz yol qurban verərdim.
Heç bilmədi mən nə əkdim, nə dərdim
Günlər, aylar, illər yaman tələsdi.

*1983*

* * *

Sinəmdə min sözlü bir kamanım var,
Əl vursan danışar ay şirin-şirin.
Hər teldə tükənməz, bitməz arzular
Hey coşar, hey daşar, ay şirin-şirin.

Hər teldə sevincim, kədərim mənim,
Təbrizim, Mərəndim, Əhərim mənim.

Neçə doğma kəndim, şəhərim mənim
Ürəyimdə yaşar, ay şirin-şirin.

Hərdən yaz yağışı üzümdən axar,
Xəyalım vüsaldan bir qanad taxar.
Gözlərim ümidlə yollara baxar,
Dilim nəğmə qoşar, ay şirin-şirin.

Durna qatarında görünər nəğməm,
Göydə şəfəqlərə bürünər nəğməm.
Nə susar, nə də ki, sürünər nəğməm
Qarlı dağlar aşar, ay şirin-şirin.

Mənim də nəğməmdən ərməğanım var,
Sözlərdən bir isti aşiyanım var.
Sinəmdə min sözlü bir kamanım var.
Əl vursan danışar, ay şirin-şirin,
Hey coşar, hey daşar ay şirin-şirin...

*1969*

## UŞAQLIQ DA HƏYATDIR...

Ömür var, qismətinə
Əzəldən bahar düşüb.
Ömür var, günlərinə
Yoxuşlu yollar düşüb.
Uşaqlıq da bir ömür,
Uşaqlıq da həyatdır.
Qəm dolu, sevinc dolu
Nəğmədir, xatirətdir...
Kiminin uşaqlığı
Sıldırım qayalarda,
Aranda, dağda qaldı.
Kiminin uşaqlığı



İlişib yarpızlara
O buz bulaqda qaldı.
Kiminin uşaqlığı
Sərin, göy meşələrdə
Ocaq başında qaldı.
Kiminin uşaqlığı
Göz yaşlarında deyil,
Yaz yağışında qaldı.
Kiminin uşaqlığı
Ərköyün dalğaların
Nəğmə səsində qaldı.
Ağ göyərçin qanadlı
Ləpə səsində qaldı.
Kiminin uşaqlığı
Əlçatmaz ağacların
Yaşıllığında qaldı.
Gecə tonqal başında,
Ay işığında qaldı.
Kiminin uşaqlığı
Vaxtsız sınan, qırılan
Həzin laylada qaldı.
Kiminin uşaqlığı
Rəngbərəg daşlar kimi
Töküldü, çayda qaldı...
Kiminin uşaqlığı
Dəcəl kəpənəklərlə,
Güllər içində qaldı.
Kiminin uşaqlığı
Dağa, yaylağa qalxan
Bir el köçündə qaldı...
Mənim uşaqlığım
Təlatümlərdə keçdi,
Boranda, qarda qaldı.
Köksü həsrət yazılı
Dilsiz yollarda qaldı,
Dilsiz yollarda qaldı...

*1972*

## YADIMA XƏZƏR DÜŞÜR

Nə zaman ki, saçımı darayıram, hörürəm
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.
Nə zaman yarpaqları pıçıldaşan görürəm
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.

Elə ki, göylər qızı yuxusundan oyanır,
Səmanın ətəkləri qızıl rəngə boyanır.
Bir ani ayrılıqdan sinəm od tutub yanır,
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.

Karvan-karvan buludlar ağarır ləpələrtək.
Onlar yəqin bir azdan uzaqlara gedəcək...
Qaş qaralır, səmada ulduzlar yanır tək-tək,
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.

Uzaqdan pərdə-pərdə mahnı səsi yüksəlir,
Könlümün aynasından kədəri, qəmi silir.
Şirin xatirələrim təzədən dilə gəlir;
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.

Bakı bu görkəmiylə nəğməyə, sözə dönür,
Yer nura qərq olduqca göydə ulduzlar sönür.
Şəhərin sinəsində sanki dəniz döyünür,
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.

Fikrim qanadlanıbdır bir şeir həsrətiylə,
Ürəyim çox yanıbdır bir şeir həsrətiylə.
Bir insan ülfətiylə, bir dəniz şəfqətiylə
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.

Xəzər duzlu, sən duzlu, ikiniz də çağlayan,
İkiniz də sevgini daim əziz saxlayan.
İstər uzaqda olum, istər yaxında inan
Yadıma Xəzər düşür, yadıma sən düşürsən.

*1964*



## QUŞLARA DAŞ ATMAYIN

Quşlara daş atmayın,
Quşlar, ürkər, dağılar.
Nağıllı nəğmələri
Birdən yarıda qalar.

Quşlara daş atmayın,
Qoy qonsunlar ağaca.
Könül mahnılarını
Oxusunlar doyunca.

Quşlara daş atmayın,
Qırılar qanadları.
Bir cüt qanadlardadır
Onların həyatları.

Quşlara daş atmayın,
Balası var quşun da.
Anasız balaları
Zar-zar ağlar quşun da.

Quşlara daş atmayın,
Belə zarafat olmaz.
Zarafat dağıdanı
Bəzən top da dağıtmaz.

Quşlara daş atmayın,
Quş dünyası ayrıdır.
Quşlar çiçəkli yazın
Gözəl bəstəkarıdır.

Quşlara daş atmayın,
Güllərin gözü dolar.
Quşlara daş atmayın
Yuvalar quşsuz qalar.

Quşlara daş atmayın,
Nəğmələnsin bağ-bağça.
Sinəmi nişan alın
Quşlara daş atınca.

*1976*

## YAZILI NAĞILLAR

Yaşıl yarpaqlara xal düşdü yenə,
Yaşıl yarpaqların növrağı getdi.
Yarpaqlar bir nağıl danışdı mənə,
O nağılı əsən küləklər ötdü.

Eşitdi qayalar, eşitdi dağlar,
Payızın qızılı nağıllarını.
Şərbətə döndərdi bağçalar, bağlar
Torpağa yazılı nağıllarını.

Nizamlı, nizamsız düşsə də ancaq
Yerdə bir ahənglə dindi yarpaqlar.
Sinədəftərini bir-bir açaraq
Ömründən, günündən dedi yarpaqlar.

Elə bir ömür ki, əmib kökünü
Budaqlarda yaşıl ələ döndülər.
İlıq bahar günü, isti yay günü
Gələnə, gedənə nəğmə dedilər.

Elə bir ömür ki, başsız küləklər
Onun vüqarını poza bilmədi.
Elə bir ömür ki, çaxan şimşəklər
Ona ölüm hökmü yaza bilmədi.

Elə bir ömür ki, bu xəzan çağı
Onunçün ötəri bir haldı ancaq.



Yaz mehi öpəndə daşı, torpağı
Yenə budaqlarda sıralanacaq.

Hərə bir cür yozdu bu ömrü, günü,
Adamlar özü də başqa-başqadır.
Adam var bir dağın böyüklüyünü
Görsə də, söylədi təpə yaxşıdır.

Dərk edə bilmədi o əzəməti,
Dağın zirvəsinə qalxa bilmədi.
O meyar tutmadı əsl qiyməti,
Məncə elə təpə yaxşıdır, dedi.

Fəqət qiymətində arif olan da
Qəlbini meyara döndərən də var.
Ədalət yolunda, haqqın yolunda
Sabitqədəm olmuş əsl insanlar!

Zaman da hökmünü dəyişməz olub,
Çaya, çay deyibdir, dənizə, dəniz.
Neçə yol yer üzü boşalıb, dolub,
İllər də ötməyib səssiz, səmirsiz.

Dağ öz vüqarında qalıb, qalacaq,
Təpə, təpə kimi görünəcəkdir.
Hər bahar bir təzə doğum olacaq,
Budaqlar yaşıla bürünəcəkdir.

Hərə bir cür baxır bu ömrə, günə,
Mənimsə qəlbimdə başqadır aləm.
Həyatın, insanın ölməzliyinə
İnanıb həmişə nəğmə demişəm.

*1978*

## NƏ YAXŞI Kİ...

Mən dənizi görəndə
Gözlərin düşür yada,
Mavi, qaynar gözlərin.
Axşam ulduz yerinə
Elə bil göy sularda
Yanar, yanar, gözlərin...

Mən dənizi görəndə
Səsinin ahənginə
Dalıram bir də, bir də.
Vurulub elə bil ki,
Saçlarının rənginə
Oxuyur ləpələr də...

Mən dənizi görəndə
Söz dolu ürəyinin.
Vurğusunu duyuram.
Mən dənizi görəndə
Dəniztək şirin-şirin
Nəğmələr oxuyuram.

Mən dənizi görəndə
Dilə gəlir hər damla,
Səndən söz açır ancaq.
Dəniz bir məhəbbətlə,
Dəniz sonsuz ilhamla
Səndən söz açır ancaq...
Nə yaxşı, nə yaxşı ki,
Sadiqik andımıza.
Pozulmamış əhdimiz.
Bizimçün qumlar üstə
Nəğmələr yaza-yaza
Ötür, ötür göy dəniz...

Nə yaxşı, nə yaxşı ki,
Məhəbbət var, sevgi var.



Nə yaxşı ki, dənizin
Bir mahnısı da bizik.
Keçsə də ömrümüzdən
Günlər, həftələr, aylar
Məhəbbətdə biz yenə
Bir dalğalı dənizik,
Bir dalğalı dənizik...

*1970*

## SUSA BİLMİRƏM

Göydə qövsi-qüzeh naxışlananda,
Otlar şeh altında par-par yananda,
Quşlar budaq-budaq uçub qonanda,
Mən susa bilmirəm, susa bilmirəm.

Dərələr aşağı axanda sellər,
Arandan dağlara qalxanda ellər,
Çöllərdə ulduztək yananda güllər
Mən susa bilmirəm, susa bilmirəm.

Xallı kəpənəklər uçanda lək-lək,
Yazın xoş ətrini yayanda külək,
Bir nəğmə eşqiylə coşanda ürək
Mən susa bilmirəm, susa bilmirəm.

Körpəcə ağaclar pöhrələnəndə,
Durnalar vətənə sarı dönəndə,
Hardasa, hardasa bir ney dinəndə
Mən susa bilmirəm, susa bilmirəm.

Girəndə yol-yoxuş hərdən dumana,
Bənövşə boynunu əyəndə yana,
Bu pərişan halı yaraşmır ona,
Mən susa bilmirəm, susa bilmirəm.

Mən bilirəm nədir sevinc də, qəm də,
Dünya ağlar, gülər sanki sinəmdə.
Gah zildə ötürəm, gah da ki, bəmdə,
Mən susa bilmirəm, susa bilmirəm.

Hər daşın, qayanın öz mənası var,
Sözün könül adlı bir dünyası var.
Ömrün payızı var, ömrün yazı var...
Mən susa bilmirəm, susa bilmirəm.

Nemətlə doludur torpağın qoynu,
Şəfqətlə doludur torpağın qoynu.
Gözəldir təbiət, seyr edib onu
Mən susa bilmirəm, susa bilmirəm.

Bir quş timsallıdır, ötər nəğmələr,
İllərdən-illərə gedər nəğmələr.
Dindikcə könlümdə bu tər nəğmələr
Mən susa bilmirəm, susa bilmirəm.

*1976*

## XƏZƏRDƏ

Bir körpə uşağam, beşiyim sular,
Saçlarım gümüşə batar Xəzərdə.
Sinəmdə nə qədər şirin duyğular
Coşar, dalğalanar, artar Xəzərdə.

Sular dalğalanar, sular qabarar,
Məni fikirlərim çəkər, aparar.
Hər kiçik damlada min hekayət var
Nə qədər incilər yatar Xəzərdə.

Hərdən bir dağ kimi qalxar dalğalar,
Elə bil döyüşə çıxar dalğalar.
Ram olcaq, könlümə axar dalğalar,
Nəğməmə şirinlik qatar Xəzərdə.



Qırar cilovunu Xəzri də hərdən,
Qızılı qum yağar sulara dən-dən.
Ana dalğaların ətəklərindən
Ləpələr uşaqtək tutar Xəzərdə...

Ləpələr nəğməli, ləpələr kövrək,
Nəğmələr qanadlı, nəğmələr kövrək.
İstəsəm az qala qanadlı quştək
Əllərim üfüqə çatar Xəzərdə...

*1971*

## BAHAR LÖVHƏLƏRİ

Yenə dağlar dumanlardan üzə çıxır,
Çəmənlərdə yaşıl otlar dizə çıxır.
Bulaq üstə yarpız hələ təzə çıxır,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Zümrüd göyə kəmər çəkir qövsi-qüzeh,
Budaqlara cərgə-cərgə düzülür şeh.
Buludları sağa-sola dağıdır meh,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Baş götürüb dərələ sellər axır,
Yer oyanır yuxusundan ağır-ağır,
Boz torpağın sinəsindən buxar qalxır,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Quzeylərdə qar əriyir damcı-damcı,
Güneylərdə güllər açır göy, narıncı...
Gurladıqca şimşəklərin sərt qırmancı,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Çəmən yaşıl süfrə açır məhəbbətlə,
Quşlar ötür, nəğmə deyir hərarətlə.
Bir dünyalıq novazişlə, səxavətlə,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Köhlən kimi şahə qalxır hərdən külək,
Hərdən hava sakit olur bir quzutək.
Kəpənəklər uçuşurlar ürkək-ürkək,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Boşqablarda göy səməni cərgə-cərgə,
Axşam olur, dağlar düşür neçə rəngə.
Qapılara şirni-noğul tökə-tökə,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Novruzgülü qar altından çıxır üzə,
Şəfəqlərdən bir don geyir təzə-təzə,
Sanki ulduz səpilmişdir çölə, düzə,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

Lalə şehlə doldurmuşdur qızıl camı,
Deyir, şadlıq məclisimə gəlsin hamı.
Şerə sığmır təbiətin ehtişamı,
Yollara iz sala-sala bahar gəlir,
Qanadlanıb durnalarla bahar gəlir.

*1967*

## SƏNƏT SEHRLİDİR

Sonsuz bir nəğməsən, sən zaman-zaman
Gah bəmdə ötürsən, gah zildə, dəniz.
Səni dinləyirəm, qəlbim nigaran
Durmuşam bayaqdan sahildə, dəniz.



Səsindəki ahəng, o titrəyişlər
Şirin bir xəyaltək aparmış məni.
Sənət sehrlidir, yaxşı demişlər,
Nəğmən sahilimdən qoparmış məni.

Baş alıb getmişəm mən ümman-ümman,
Dalğalar olubdur yelkənim mənim.
Oxu, o füsunkar səsinə qurban,
Yadıma düşübdür vətənim mənim.

Oxu, ləpələri çal ud yerinə,
Hər simdə gah ağla, gah gül, ey dəniz!
Bürünüb səhərin şəfəqlərinə
Kövrəlmiş sinəmə tökül, ey dəniz.

Oxu Qara dəniz, qayna, köpür, sən,
Susma, qoy xəyalım köç etsin mənim.
Məni nəğmələrlə saxla, ötür sən,
Yadıma düşübdür vətənim mənim.

*1968*

## TƏNHALIQ

Yenə yağış yağdı, ildırım çaxdı,
Coşdu, dalğa-dalğa çağladı dəniz.
Sahili boş gördü, elə darıxdı
Tənhalıq dərdindən ağladı dəniz.

Tutuldu səmatək, dəyişdi rəngi,
Bir anda dənizin saçı ağardı.
Ləpələr əl açıb bir körpə təki
Elə bil arxadan bizi çağırdı.

Səslər qayalara dəydi, töküldü,
Dəniz hönkür-hönkür ağladı inan.
Qulağıma sınıq bir səda gəldi:
Məni tənha qoyub getmə, ey insan.

*1968*

## PAYIZ LÖVHƏSİ

Fəsillərin
payızı gəldi yenə.
Xəzan yarpaqlar
sarı simdə
mahnılar dedilər mənə.
Hər yarpaq
varağa bənzədi;
sevinc yazılı,
kədər yazılı.
Dadlı xatirələr yazılı.
Budaqlar elə bil
Dünənki budaqlar deyil.
Qızılı həmayillərini,
sırğalarını,
bilərziklərini
soyundular,
kövrək-kövrək,
aram-aram.
Payız yağışlarında
çimdilər,
yuyundular,
kövrək-kövrək,
aram-aram.
yerdə qızıl yarpaqlardan
sanki bir tonqal yandı,
şəfəqi ucaldı göyə.
Elə bil yarpaqlar atəşə döndülər,
Ağaclar üşüməsinlər deyə...

*1968*

## BAHARIN SORAĞINDA...

Yamanca tələsir günlərim mənim,
Mənsə yoxuşları çətin qalxıram.
Ey tale yelkənim, ümid yelkənim,
Yenə də səninçin mən darıxıram.



Gec-tez yoxuşları qalxaram yəqin,
Yenə də çıxaram sınaqlardan mən.
Fəqət, səni görmək çətindir, çətin,
Günlər yarpaq-yarpaq düşür ömürdən.

Günlər aman vermir, günlərə nə var,
Sənsiz qar ələdi zaman başıma.
Səndən bu həsrətin yaşın sorsalar
Torpağı danışdır, özün danışma.

Qoy torpaq danışsın, sakit dəryanın
Coşub, daşmağı da çox yaman olur.
Vətəndən aralı qalan insanın
Ürəyi həmişə nigaran olur.

Dərdliyəm, dönmüşəm bir sarı simə,
Vətənə həsrətəm, sənə həsrətəm.
Çarə gəzsələr də bu həsrətimə
Mən yenə həsrətəm, yenə həsrətəm...

Gec-tez açılacaq müşküllər bir-bir,
Heyif ki, tələsir bu ömür dünyam.
Dövrəmdə payızın yelləri əsir,
Mən isə baharın sorağındayam...

*1982*

## DƏNİZƏ PUL ATIRLAR

Gedirəm, razıyam məhəbbətindən,
Dosta hörmətindən, səxavətindən.
Hələ, doymamışam hekayətindən,
Qəlbi sözlə dolu, ay Qara dəniz.

Sən hər gün günəşlə birgə oyandın,
Şəfəqdən qızılı rəngə boyandın.
Qara saçlarımda zər kimi yandın,
Məhəbbəti odlu, ay Qara dəniz.

Sinənə baş qoydum, uyudum bir an,
Ayrıla bilmədim mahnılarından.
Oxu, o füsunkar səsinə qurban,
Nəğməsi uğurlu, ay Qara dəniz.

Ulduzlar göylərdə alışdı tək-tək,
Hər şey gözəl olur duyanda ürək.
Mənim körpəm kimi, axşam düşəntək
Olursan yuxulu, ay Qara dəniz.

Hicran qorxutmayır bizi bu yerdə,
Nə gözəl adət var bu dost ellərdə.
Suya pul atırıq görüşək bir də,
Qucağı ağ pullu, ay Qara dəniz.
Nəğməsi uğurlu ay Qara dəniz.

*1968*

## SARALMIŞ YARPAQLAR

Əsdi payız küləyi,
Nə dincəldi, nə yatdı.
Saralmış yarpaqları
Sağa-sola dağıtdı.
Xəzəlləri quş kimi
Bəzən alıb apardı.
Bağlara, bağçalara
Haray salıb apardı.
Boz gövdələr buz kimi,
Budaqlar yarpaqsızdı.
Ağaclar qulağıma
Pıçıldadı: payızdı.
Saraldı torpaq üstə
Xalı salmış göy otlar.
Haldan-hala düşdülər
Göydə yorğun buludlar.
Küləyin bu halına
Yaman qəzəbləndilər.



Ah çəkib, gilə-gilə
Torpaq üstə endilər.
Bu munis qəribliyi
Bağlar yenə saxladı.
Hər ağac, körpəsindən
Ayrılan analartək
Dizini qucaqladı...
Kim ayrılır söyləyin
Öz ömrünün barından?
Ayrılmaq istəmirdi
Ağac yarpaqlarından.
Bəlkə elə bununçün
Küləyin qabağında
Əyilib titrəyirdi.
Saralmış yarpağı da
Saxlamaq istəyirdi.
Bu an çılpaq ağacda
Bir yarpaq qalmışdı tək.
Küləyin təmasından
Titrəyib, əyilərək,
Budaqları tərk edib
Ayrılmaq istəyirdi.
Başqa yarpaqlar kimi
Qırılmaq istəyirdi.
İstəyirdi qoşulsun
Xəzəllər yığınına.
Tənhalıq hər bir dərddən
Ağır gəlirdi ona.
Dili olsaydı əgər
Çığırardı: əs, külək,
Amandır tələs, külək!
Çatdır həmyaşlarıma,
Sıxdı bu bağlar məni.
Neçə ağır ayaqlar
Çıxıb ağacın üstə,
Sanki ayaqlar məni.
Tənha yüksəkdə durmaq
Nə şöhrət, nə həyatdır.

Əs, ey külək, dayanma,
Məni dostlara çatdır.
O quru xəzəllərlə
Qarışım torpağa mən.
Torpağın qüdrətilə,
İnsanın şəfqətilə
Yaşıllanım təzədən,
Yaşıllanım təzədən...

*1963*

## YAŞILLANDI BİÇƏNƏKLƏR

Baharın tər nəfəsində
Güllər xoş gəldi, xoş gəldi.
Coşub, daşmaq həvəsində
Sellər xoş gəldi, xoş gəldi.

Yaşıllandı biçənəklər,
Qanadlandı kəpənəklər.
Dalğalandıqca çiçəklər
Çöllər xoş gəldi, xoş gəldi.

Dağlar doğma, dağlar uca,
Köç elədi cavan, qoca...
Köç yığıb köç aça-aça
Ellər xoş gəldi, xoş gəldi...

Ayna kimi par-par yandı
Elə sandım sular yandı.
Şəfəqlərdən naxışlandı,
Göllər xoş gəldi, xoş gəldi...

Obalardan keçə-keçə,
Quşlar ötdü incə-incə,
Gün keçdikcə, ay keçdikcə
İllər xoş gəldi, xoş gəldi...

*1972*



## GÖZƏLLİK

Daş-qaşlda axtarma gözəlliyi sən,
Gözəllik çəməndə, çiçəkdə olar.
İnsanın ömründə məşələ dönən
Bir halal zəhmətdə, əməkdə olar.

Gözəllik bir şirin kəlamda, sözdə,
Alışan ocaqda, qızaran közdə,
Gözəllik qaranquş nəfəsli yazda,
Gözəllik ən şirin diləkdə olar.

Gözəllik zirvəsi dumanlı dağda,
Sinəsi bəhərli, barlı torpaqda.
Gözəllik dənizdə, çayda, bulaqda
Nəğmətək səslənən ahəngdə olar.

Gözəllik deyilmi o daş, o kəsək,
Gözəllik deyilmi hər boya, hər rəng.
Gözəllik məhəbbət, sevgi rəmzitək
Güllərdən hörülmüş çələngdə olar.

Gözəllik sevginin, sevdanın ilki,
Hər yaşıl ağacın torpaqda kökü.
Gözəllik bu halal süfrəmizdəki
O suda, o duzda, çörəkdə olar.

Gözəllik nəğmədir, dinlə onu bir,
Gör nələr söyləyir bizə səma, yer.
Sevgi də ürəyin gözəlliyidir,
Sevgi sözdə deyil, ürəkdə olar.

*1979*

## LALƏLƏRİN BAĞRI YANDI...

Yol üstündə gəlin söyüd boylandı,
Hörükləri qızıl zərə boyandı.
Sənsiz həsrət duyğularım oyandı,
Lalələrin bağrı yandı təzədən.

Kəlmə-kəlmə ürəyimi mən açdım,
Nə yanıldım, nə tutuldum, nə çaşdım.
Sevgimizin nağılını danışdım,
Qoca dağlar lal dayandı təzədən.

Xəyalımdı danışan da, dinən də,
Sevgimizdi xatirəyə dönən də.
Urəyimi havalanan görəndə
Sal buzlar da sanki dondu təzədən.

Səma doldu, şimşək çaxdı, nə çaxdı,
Bulud-bulud gözlərimdən yaş axdı.
Körpə quşlar görünməyir nə vaxtdı,
Hara uçdu, hara qondu təzədən?

Ömrüm-günüm, gözüm üstə yerindi,
Ömrüm-günüm, yerin necə göründü.
Ömrüm-günüm, nələr çəkdim gör indi,
Qarsdı məni həsrət odu təzədən.

Unutmaram ilk andımı, əhdimi,
Tufanlara sinə gərdim dağ kimi.
Ürəyimin dilə gəldi hər simi,
Yada saldım o ilk andı təzədən.

Dağlar mənə arxa oldu yenə də,
Dağ vüqarı dağda qaldı yenə də.
Ürəyimə işıq doldu yenə də,
Sandım həsrət buzu sındı təzədən.

*1978*

## NAZI ARTIR GÜLLƏRİN

Dağ başına duman gəlsə danışma,
Dağ başından bir gün duman düşər bil.
Ömrə-günə hicran gəlsə darıxma,
Bu hicranın yolu bizdən dönər, bil.



Göy üzünü göy buludlar alarsa,
Buludlarda çaxnaşmalar olarsa.
İldırımlar göyə lərzə salarsa,
İldırımlar çaxıb, axır sönər, bil.

Bahar gələr, nazı artar güllərin,
Yuxuları sona çatar güllərin.
Sinəsində şəbnəm yatar güllərin,
Susan könlüm nəğmələrlə dinər bil,
Ürək nəğmə dünyasına dönər, bil.

*1981*

## QAYITDIN

Canım, gözüm, nə yaxşı ki, qayıtdın,
Nə yaxşı ki, bu yollara düşdü gün.
Bu ömrümə şəkər qatdın, bal qatdın,
Darıxmışdım nə zamandı səninçün.

Pozulmuşdu rahatlığım, dincliyim,
Sinəm üstə elə bil qor dolmuşdu.
Sənsiz keçən günə, aya nə deyim,
Yuxularım pərən-pərən olmuşdu.

Nə yaxşı ki, yuxularım cəm oldu,
Gəldin, gözüm işıqlandı bir anda.
Həsrət qəmim duman kimi dağıldı,
Çətin olur göz yollarda qalanda.

Sevincimdən pay götürdü quşlar da,
Nəğmələri şirinləşdi bir az da.
Nəğmələndi qayalar da, daşlar da,
Sinəmdə söz aşdı, daşdı bir az da.

Nə yaxşı ki, səsin doldu evimə,
Nə yaxşı ki, ürəyimi ovutdun.
Həsrət qəmi üz verməsin heç kimə,
Nə yaxşı ki, nə yaxşı ki, qayıtdın...

*1983*

## İNDİ

Dağıldı cəlalı üzü boz qışın,
Yazın taxta çıxan vaxtıdı indi.
O çölün, o düzün, yolun, yoxuşun
Köksünə gül taxan vaxtıdır indi.

O bahar diləkli novruzgülünün
Bahar gələcəkli novruzgülünün,
O ipək köynəkli novruzgülünün
Qar altından çıxan vaxtıdır indi.

Dolmuş buludların min hala düşən,
Nəğməli könlümün nəğmələr qoşan,
Sellərin, suların kükrəyib coşan,
Şimşəklərin çaxan vaxtıdır indi.

Bir an unutmayıb əhdi, ilqarı,
Yarıb qayaları, yarıb daşları,
Döndərib boynunu yollara sarı
Bənövşənin baxan vaxtıdır indi.

Könüldən söz deyib, söz bilənlərin,
Bir şirin kəlməni yüz bilənlərin,
Bulağa getməkçün qız-gəlinlərin
Tələsib, darıxan vaxtıdır indi.

Tarlaya, zəmiyə, bağçaya, bağa,
Başı qarlı dağa, dumanlı dağa,
Quşlar yuva quran xola, budağa
Yağışların yağan vaxtıdır indi.
Yazın taxta çıxan vaxtıdır indi.

*1982*



# Poema

## APARDI SELLƏR SARANI

Deyirlər ki, qədimlərdə
Arzu adlı bir el varmış.
O el Araz qırağında
Məskən salıb yaşayırmış.
Zəhmət çəkib, səhər-axşam
Yer şumlar, yer əkərmişlər.
Hər ağacın, hər budağın
Öz nazını çəkərmişlər.
Yaşıl-yaşıl, bağça-bağlar
Bir gözəllik dünyasıymış.
Deyirlər bu yerlər sanki
Bağça-bağça obasıymış.
Payız fəsli, məhsul vaxtı
Sevinərmiş cavan, qoca.
Bəhərlərdən pay gedərmiş,
Pay gələrmiş xonça-xonça.
Bu obanın torpaq eşqi
Gül açarmış bağça-bağça,
Göyərərmiş çəmən-çəmən.
Tarlalarda, zəmilərdə
Çalışarmış uşaq, böyük.
Hamı sanki bir ananın
Əziz, doğma övladıymış.
Burda hamı bir-birinin
Arxasıymış, qanadıymış.
Bir evdə toy qurulanda
Sevinərmiş buna hamı.
Bir evin toy təntənəsi
Olarmış bir el bayramı.
Dostun dosta sədaqəti
Bir and imiş pozulmayan.
Bu obada haqqı yoxdu
Yaşamağa
Öz sözündə düz olmayan.

Sədaqətə, böyük anda
El inanıb yaşayarmış.
Dar ayaqda bir-birinə
Arxalanıb yaşayarmış.
"El gücü-sel gücü" deyib
Çıxarmışlar hər çətindən.
Bu obaya yolu düşən
Danışarmış bu ellərin
Qüdrətindən, şəfqətindən.
Deyirlər ki, bu obada
Ümid adlı qoca varmış.
Qocalsa da fəqət yenə
Zəhmətilə yaşayarmış.
O deyərmiş: – Bir məsəl var:
Zəhmət canın cövhəridir.
Əməyə xor baxan kəsin
Ömrü-günü hədər gedir.
Torpaq səni yaşadırsa,
Zəhmət çəkib zaman-zaman
Sən də gərək bu torpağı
Yaşadasan, yaşadasan.
Ekiz imiş, doğma imiş
Adı ilə xasiyyəti.
Dünyalara dəyişməzmiş
Bircə günlük səadəti.
Onun adi güzəranı
Şirin imiş baldan belə
O bu şirin həyatını
Qurmuşdu öz əllərilə.
Lazım olsa nəfəsilə
İsidərmiş hər budağı.
Canından da çox sevərmiş
Doğulduğu bu torpağı.
Bu torpaqda doğulmuşdu
Sevinci də, kədəri də.
Bu torpaqda yazılmışdı
Onun sinə dəftəri də.



Yaşıl tarla, qızıl zəmi,
Barlı bağlar vüqarıymış.
Öləndə də bu torpaqda
Ölmək onun qərarıymış.
Deyirlər ki, o heç kəsdən
Heç nə umub istəməzdi.
Bu torpağın səadəti
Söyləyərmiş mənə bəsdi.
Qoxlayardı torpağı o,
Dönə-dönə, aram-aram.
Söyləyərdi bu obanın
Pozulmayan sevgisini
Zaman-zaman yaşadaram.
Hamı onu Ümid baba,
Ümid baba çağırarmış.
Onun saçı, saqqalı da
Elə bil ki, bəyaz qarmış.
Alnındakı o qırışlar
Bir ömürün yazısıymış.
Zaman hələ neçə-neçə
Hekayətlər yazasıymış...
O görmüşdü bu həyatın
Yaxşısını, pisini də.
O görmüşdü zəmanənin
Avandını, tərsini də.
Deyirlər ki, o qocanın,
Vüqarı dağdan ucanın
Neçə-neçə insan kimi
Öz dərdi, nisgili vardı.
Neçə-neçə xatiratla
Bağlı ayı, ili vardı.
O bir saz da düzəltmişdi,
Şöhrəti varmış hər yerdə.
Danışarmış arzusunu,
Həsrətini bu tellərdə...
Ümid baba doqquz telə
Neçə həsrət calamışdı.

Doqquz telin nəfəsində
Kövrəlmişdi, ağlamışdı.
Göz yaşını gizlətsə də
El-obanı,
Göz yaşını ürəyinə
Axıtmışdı zaman-zaman.
Deyirlər ki, ilk sevgisi
Vaxtsız solub saralmışdı.
Qadınını dəfn edəndə
Elə bil ki, hər tərəfə
Şaxta düşmüş,
Hər tərəfi qar almışdı.
Deyirlər ki, qara saçı
Ağarmışdı bircə anda.
Deyib, insan qocalmazmı
Öz-özündən ayrılanda...
Mənim ömür baharımı
Xəzan vurdu, yaman vurdu.
Deyirlər ki, o gəlindən
Nişan qalır bircə qızı.
Ümid baba ana kimi
Böyüdür bu anasızı.
Laylay çalır balasına,
Hər laylası həzin, kövrək.
*Körpəsinin keşiyini*
Çəkir, yatmır o sübhədək.
Qızının hər təbəssümü
Ürəyinə olur dayaq.
O, bu uşaq dünyasında
Bir təsəlli tapır ancaq.
Deyirlər çox üz vurublar,
Subay qalma, evlən daha.
Onun dolmuş gözlərindən
Odlu yaşlar axa-axa
Söyləmişdir:
Bu dünyada
Mənim bir Tərgülüm vardı.



O təzəcə kama çatıb,
O təzəcə yaşayırdı.
Hər tərəfdə sanıram ki,
Odu qalmış əllərinin.
Biş-düşdə də sanıram ki,
Dadı qalmış əllərinin.
And içmişəm, sadiq qalam
Bu andımda gərək ona.
Qoymaram yad əl toxuna
Bu evimin sahmanına.
Keçmiş ola, könlüm quşu
Qona bir də başqasına.
Əhd-peyman bağlamışdıq,
Söz vermişdim o vaxt ona.
Evlənmərəm yüz il keçsə,
Can yandırar özgə köynək.
Ögeyliklə böyüməsin
Bu yadigar balam gərək.
Düzün desəm o mənimçin
Həm oğuldur, yol verməərəm
O hiss edə anasızdır...

Günlər keçir, Ümid baba
Qanadlanır ümidlərlə.
Arzulardan körpü salır,
Yol eləyir, yanır ilə...
O əriyir, yanır şamtək
Bir balası Sara üçün.
Şölələnir xısın-xısın,
Şölələnir için-için...
Aylar keçir, illər keçir,
Bu dünyaya kimi gəlir,
Bu dünyadan kimi köçür.
Sara çatır boya, başa,
Ürəyində işıq yanır.
Çöhrəsində elə bil ki,
Çiçəklərin rəngi qonur.

Onun nurlu ürəyində
Qönçə-qönçə arzu gülür.
Hər arzuda elə bil ki,
Dan sökür, yer üzü gülür...
Deyirlər ki, uca boyu,
Uzun hörükləri varmış.
Hərdən o da atasıtək
Saz çalıb söz oxuyarmış.
O payıztək səxavətli,
Bahar kimi gözəl idi.
Yun darayar, hana qurar,
Hərdən ip də əyirərdi.
Həyətləri başdan-başa
Bir yaşıllıq dünyasıydı.
O güllərin, çiçəklərin
Sanki doğma anasıydı.
O ləklərə, ağaclara
Hər gün səhər su verərmiş.
Hər çiçəyi, hər budağı
Öz diliylə dindirərmiş.
Əməyilə fərəhlənib,
Sevinərmiş hər gün o da.
Ata-bala bir gedərmiş
Zəmiyə də, tarlaya da.
Dil-dil ötən quşlar kimi
Oxuyarmış Sara bəzən:
Hərdən düşür izimə.
Alışır əvəzimə.
Qonur həsrət gözümə
Ümidim mənim.

Hərdən boş həvəs olur,
Bir soyuq nəfəs olur.
Lal olur, dinməz olur
Ümidim mənim.

Hərdən yaz ətri yayır,
Ətirlənir çöl-bayır.



Saçlarımı darayır
Ümidim mənim.

Bu ılıq həlim səsi
Dərələr də, dağlar da
Əks edərdi bir anda.
Mahnılar, ay mahnılar,
Sizsiniz ürəklərə
Həmsöhbət də, dərman da.
Dağıdarsınız qəmi,
Kədəri, qubarı siz.
Xəyalım səfər eylər,
Hər gələndə səsiniz...
Həşyəsi gül naxışlı
Dəsmal tikərdi Sara.
Sanki məhəbbətini
Həkk edərdi o dilsiz,
O əlvan naxışlara.
O corab toxuyardı,
Dil açardı naxışlar.
O corab toxuyardı,
Naxışda pərvazlanan,
Qanadı kövrək quşlar...
Hərdən darıxardı da,
Bilməzdi bunu kimsə,
Ötəri quşlar kimi
Bağçanı gəzə-gəzə...
Deyirlər ki, qəlbində
Gizli həsrəti varmış.
Günlərlə, həftələrlə
Gözü yolda qalarmış.

Deyirlər ki, bir gün də
Obaya enən zaman,
Evinə dönən zaman
Xan çoban bulaq üstdə
Görmüşdü Sarasını.

Xan çoban bulaq üstdə
Tapmışdı öz məhəbbət,
Öz sevgi dünyasını.
O qızlar cərgəsindən,
Ulduzlar cərgəsindən
Saranı bəyənmişdi.
Ürəyində Saraya
Bəxt ulduzum demişdi.
Kəlmə kəsib heç biri
Danışmamışdı fəqət.
Sevənlər dinməyəndə
Yol tapır ürəklərə,
Özü dinir, danışır
O müqəddəs məhəbbət...

Bir gün el şənliyində
Qonaqmış Xan çoban da.
Tanımayan yox imiş
Xan çobanı Muğanda.
O öz məhəbbətini
Yanıqlı neydə çalmış.
O öz qoşmalarıyla
Ürəklərə yol salmış.
Ney susanda o demiş
Bayatı, gözəlləmə.
O susanda sirli ney,
Hər bəndi sehrli ney
Dinirmiş kəlmə-kəlmə...
Günlər günə calanmış,
Ötüb keçmiş qarlı qış.
Üzə güləndə hər yan,
Xan çobanın adından
Elçi gəlmiş bir səhər.
Bu xəbərə sevinmiş
Eşidənlər, bilənlər.
Xan çobana obada
Hörmət edərdi hamı.



Öz halal zəhmətilə,
Xalqa məhəbbətilə
Qazanmışdı Xan çoban
Bu böyük ehtiramı.
O aranda doğulub,
Boy atmışdı dağlarda.
Sürüsüylə dağlara
Qalxardı o, baharda...
Yazdan-yaza qalarmış
Ocaq izi çobanın.
Dağlarda əks edərmiş
Məğrur səsi çobanın.
Düşmənə baş əyməzdi,
Dosta bağlıymış candan.
Hamı, hamı razıymış
Obada Xan çobandan.
Biri dara düşdümü
Tez çatarmış dadına.
Odur ki, iftixarla
Obanın qocaları
Oğul deyərmiş ona.
Alqış belə müqəddəs,
Pak adətlərə alqış.
El üçün candan keçən
Mərd igidlərə alqış...
Xan çoban, dağlar oğlu,
Dağların balasıydı.
Qar yerə düşənədək
Dağlarda qalasıydı.
Elin qoyun, quzusu,
Elin varı ondaydı.
Neçə köçün, külfətin
Etibarı ondaydı.
Arana gələ bilmir,
Gələ bilmirdi hələ
Sevənlər dözürdülər
Görüşmək həsrətiylə...

Hər yan sanki gülür üzə,
Şəfəq qonur çölə, düzə.
Nə eyləyər hicran bizə
Əhd-peyman olan yerdə.

Sevənlərdə sədaqət var, –
Bu eldə bir rəvayət var,
Yarğanlar da körpü olar,
Əhd-peyman olan yerdə.

İnan mənə, Xan çobanım,
Sənsiz keçməz bircə anım.
Hicrana necə inanım
Əhd-peyman olan yerdə?

Bu dağlarda təksən, təksən,
Həm qoçaqsan, həm kövrəksən.
İnanıram gələcəksən
Əhd-peyman olan yerdə.

Nəğməni uca dağlar
Özündə əks etdirdi.
Nəğməni Sara bağ-bağ,
Çəmən-çəmən səpirdi...
Qovuşur günlər-günə,
Payızın yeli əsir...
Dağlara qar da düşür.
Dağların zümrüd şalı
Dolaylarda sürüşür.
Bir qərib görkəm alır
Çaylar da, kəhrizlər də.
Bulaqların dövrəsi
İndi yığnaqsız qalır.
Xan çoban sürüsüylə
Obasına yollanır.

Oba çıxır pişvaza,
Bu da bir adət idi.
Elin dağlar oğluna



Sonsuz məhəbbətiydi.
Neçə doğmanın, dostun
Əziz qonağı olur.
Qış gecəsi.
Ürəklər
Sözlə boşalır, dolur.
Nağıllar da deyilir,
Saz gəlir ehtizaza.
Gözəlləmə oxunur
Neçə gəlinə, qıza.

Neyin də o yanıqlı
Həzin səsi titrəyir.
Qəlbi kövrək olanlar
Bilirlər saz nə deyir,
Bilirlər ney nə deyir.
Hər bənd ömür dastanı,
Hər tel ömür yoluydu.
Saz da, ney də tükənməz
Hekayətlə doluydu...

Aylar aya qovuşdular,
Günlər ötən bir quşdular.
Yollar eniş, yoxuşdular,
Bunu sazdan, neydən soruş.

Yenə aldı xəyal məni,
Tərk etməsin bu hal məni.
Neçə qəlbin sevgisini
Sazdan soruş, neydən soruş.

Çoxu burda at oynatdı,
Nişan aldı, kəmənd atdı.
Sonra öz qanına batdı
Bunu sazdan, neydən soruş.

Yad önündə əymədik baş,
Səngər oldu bizə dağ, daş.

Nədir sazda, neydə təlaş,
Onu sazdan, neydən soruş.

Qorqud baba ötdü dil-dil,
Səsi gəldi mənzil-mənzil.
Ömr eləyir nəsil-nəsil,
Bunu sazdan, neydən soruş.

Düz sözü, düz ilqarı da,
Pozulmayan qərarı da.
Koroğlunu, Nigarı da,
Sazdan soruş, neydən soruş.

Dostun dosta vəfasını,
Bu dağların səfasını,
Xalqımın söz dünyasını
Sazdan soruş, neydən soruş...

Bir tərcüman olmuş bizə
Saz da, ney də zaman-zaman.
Keçmişlərə yol salmışıq
Sazın, neyin sədasından.
Elə bil ki, indi də
Çatır o səslər mənə.
Baş əyirəm sənətin
Bu ulu qüdrətinə.
Baş əyirəm Qorqudun,
Koroğlunun sazına.
Baş əyirəm xalqımın
Bitməz söz dünyasına...
Baş əyirəm o böyük
Füzuli nəfəsinə.
Bənd-bənd yanmış, kəsilmiş
Neyin odlu səsinə.
Günlər, ay sözlü günlər,
Gecə, gündüzlü günlər.
Həyatda siz də ağlı,



Qaralı doğuldunuz,
Bu ömür yollarında
Bizimlə bir oldunuz.
Bir oldunuz bizimlə,
Həmişə də varsınız.
Siz unudulmazsınız.
Siz bizdə yaşarsınız...
Günlərdən söhbət açdım,
Saranı andı fikrim.
Saranın xəyalıyla
Qoşa dayandı fikrim.
Deyirlər Xan çobanın
Arana dönməsinə
Saz çaldı, söz oxudu
Sara da dönə-dönə.
Oxudu şirin-şirin,
Oxudu həzin-həzin.
Elə oxudu ancaq
Məhəbbət mahnısını
Atası eşitməsin.
Çəkilib bağda uca
Bir çinara söykəndi.
Sözlə dolu sinəsi
Fərəhdən qalxdı, endi.
Nəğmələrlə bəzədi
Sevdiyinin yolunu.
Dinlədi sinələri
Nəğməli quşlar onu.
Üşümüş ağacların
Budaqları isindi.
Vəcdə gəlib ağaclar
Sanki yaşıl geyindi.
Elə bil ki, duruldu
Səmanın da çöhrəsi.
Elə bil şam ağacı
Bir qədər də ucaldı
Eşidəndə bu səsi...

Deyirlər bir gün yenə
Kəndin ağsaqqalları
Sözbir olub gəlirlər
Ümidin mənzilinə.
Söhbətlər rəng-rəng olur
Söhbətlər naxış-naxış.
Deyirlər, Ümid baba,
Artıq yaza az qalmış.
Qızın da, oğlanın da
Sənsən əsl atası,
Harda olsalar onlar.
İcazə ver, gəlini
Aparaq biz bu bahar
Xan çoban sürüsüylə
Səhər yola düşəcək.
Ona xeyir-dua da
Özün verəsən gərək.
İcazə ver, aranda,
Dağda mağar quraq biz.
Toy çaldırıb, Saranı
Dağlara aparaq biz.
Aparaq, qoy dağlara
Onunla bahar gəlsin.
Aparaq, Xan çobanın
Həsrət qəlbi dincəlsin...
Ümid baba dinmədi,
Gözündə parladı yaş.
Bir yanıqlı bayatı
Söylədi yavaş-yavaş:
"Aşıq, qar daşa düşər,
Yağar qar, daşa düşər.
Qardaşın müşkül işi
Yenə qardaşa düşər".
Arzuda da, sözdə də
Bir olmuşuq, birik biz.
Məndən də qüdrətlidir
Müqəddəs adətimiz.



Mən çoxdan söz vermişəm,
Bir qız bir oğlanındır.
Kişi olan söz verdi,
Demək, sözü qanundur.
Fəqət nə edim yenə,
Ayrılığa yox tabım.
Sarasız artacaqdır
Dərdim, qəmim, əzabım.
Təsəllini, dincliyi
Onda tapmışdım ancaq.
Onsuz bu bağça-bağım,
Evim yetim qalacaq.
Ovutmaq olmur düzü
Dolan ürəyi bəzən.
Eh, nə deyim dünyanın
Dolaşıq işinə mən.
Ümid baba duruxdu,
Bir anlıq getdi fikrə.
Eh, – dedi, – qanınızı
Qaraltdım nahaq yerə.
Gərək alam boynuma
Qocalmışam deyəsən.
Ay qocalıq, qocalıq,
Axır tapdın məni sən.
O, heç kəsin ürəyi
İstəmədi kövrələ.
Neçə məzəli söz də
Danışdı gülə-gülə.
Səsinin axarında.
Yenə də bir titrəyiş, –
Dedi, – bilirəm, gərək
Gecikməsin xeyir iş.
Bu el adətlərini
Mən yaxşıca bilirəm.
Köçəri quş vaxtında
Gərək uça, bilirəm.
İşiniz avand olsun,

Gün doğsun bəxtinizə.
Sizdən bir təvəqqəm var:
Sara balamı tez-tez
Qonaq gətirin bizə.
Bilirəm, bu obada
Oğul, qız əvəzim var.
Bilər nədir dediyim
Ata, ana olanlar...
Gün düşsün üstünüzə,
Günlər uğurlu olsun.
Yollar, yoxuşlar tamam
Gün kimi nurlu olsun.
Hamı oğul-uşaqlı,
Hamı nəvəli olsun.
Deyin dağda, aranda...
Yeddi gün toy qurulsun...
Toy qurulur, aşıqlar
Dayanırlar üz-üzə,
Qıfılbəndlər, qoşmalar
Oxunur təzə-təzə.
Obanın cavanları
Cıdıra da çıxırlar.
"Qurşaqtutdu" oynayıb
Yıxırlar, yıxılırlar.
Gətirirlər Saranı,
Bir bəzəkli at üstə.
Başına gül səpirlər
Uşaqlar dəstə-dəstə.
Onun çıxdığı yola
Ayna tuturlar hələ.
Sara gəlin gedirdi
Elin öz adətiylə.
Gəlinlər su atırlar
Saranın arxasınca,
Saranı yola salır
Qız, gəlin, cavan, qoca...
Deyirlər su aydınlıq,



Ayna da işıqlıqdı.
Deyirlər nurlu olsun
Aynatək qızın baxtı.
Baxan deyərmiş, gəlin
Əlvan qanadlı quşdu.
Ayağı üzəngidə,
At üstə oturmuşdu.
Günəştək parıltılı
Duvağ vardı üzündə.
Ayrılıqla vüsaldan
Doğan inci yaşları
Alışırdı gözündə.
Ulduzlartək yanırdı
Alnındakı piləklər,
İncə, zərif duvağı
Arabir titrədirdi
Xəfif əsən küləklər...
"Mübarəkbad" çalınır,
Yolçular yola düşür.
Atanın da, qızın da
Gözlərindən torpağa
İkicə damla düşür...

Yollar, yoxuşlu yollar,
Yollar, yarğanlı yollar,
Hərdən şəfəq geyinən,
Hərdən dumanlı yollar.
Deyirlər ki, gəlini
Aparırlar aramla,
Gedirlər yavaş-yavaş.
Bu narahat yollarda
Gəlin incimәsin kaş.
Qarşıda dərə vardı,
Dağ vardı, dolay vardı.
Qarşıda bir körpüsüz,
Etibarsız çay vardı.
Hərdən susar, ram olar,

Quzuya dönərmiş o.
Hərdən qırıb cilovu,
Kükrəyən dalğaların
Diliylə dinərmiş o.
Saya salmaz heç kəsi,
Yaxın, yad birmiş ona.
Təki dəli dalğalar
Nöqtə qoysun bir ömrün,
Bir həyatın sonuna...
Atlılar yol gedirmiş,
Hər tərəf suymuş tamam,
Atlılar tələsirmiş.
Sulara, dalğalara
Nə etibar, nə inam,
Birdən aşarlar səddi.
Atlılar tələsirlər
Çatdırsınlar sahilə
Bu gəlin – əmanəti...
Sara neçə atlının
Arasında gedirmiş.
Hərdən qalxan dalğalar
Elə bil rəqs edirmiş.
Suların duru rəngi
Bulanır bircə anda.
Yaman olurmuş çaylar
Öz səddini aşanda.
Qəzəbləndikcə sular
Dalğa-dalğanı tutub
Qalxmağa can atırmış.
Bu qənirsiz gözələ
Elə bil ki, sular da
Baxmağa can atırmış.
Yox-yox, baxmaq nədir ki,
O bizim olsun gərək.
Dalğalar bir-birini
Qovur haray çəkərək.
"Gərək o bizim olsun" –



Sahilə dəyir sular.
Elə bil ki, qırılır,
Sınır bütün arzular.
"Gərək o bizim olsun" –
Sular daşır, nə daşır.
Bu qəfil çaxnaşmada
Yazıq atlar da çaşır.
Atlılar dalğalarla
Olurlar əlbəyaxa.
Sular hücum edirlər
Dörd yandan dalğa-dalğa...
Köpüklənən dalğalar
Divar çəkir araya.
Sular namərd ovçutək
Kəmənd atır Saraya...
Batır dəli sularda
Saranın haray səsi.
Ucalır dörd tərəfdən
Aman səsi, vay səsi...
Saranı dalğaların
Əlindən olmur almaq.
Qızarır sular üstə
Tənha qalmış bir duvaq.
Duvaq yaralı quştək
Çırpınır sağa, sola...
Sel Saranı aparır...
Qayıtmaz... Keçmiş yola...
Duvağın qan rənginə
Bürünür dağ, dərə, düz,
Sularda bir çırpınan
Duvaq qalır gəlinsiz...

Sara sularda batdı,
Sara sularda batdı...
Bu xəbər dağları da
Hönkür-hönkür ağlatdı.
Saranın əvəzinə

Dağlara güman gəldi.
O təngiyə-təngiyə
Dağlara saldı haray.
Elə bil ki, dağlarda
Həkk olub qaldı haray.
Deyirlər Sarasını
O, yollardan soruşdu.
Yollar qəmdən tutuldu.
Bir səs gəldi yollardan
Sara qayıtmaz oldu.
Deyirlər ki, Xan çoban
Güllərdən, çiçəklərdən
Saranı xəbər aldı.
Güllər, çiçəklər dindi,
Sara qayıtmaz oldu.
Bənövşələrin doldu
O intizar gözləri.
Üşütdü bu ayrılıq
Körpəcə nərgizləri.
Sanki göy də tutuldu
Duman gəldi hər yana.
Təbiət də ağladı
O gəlinin halına,
Haray çəkir Xan çoban,
Dünya nə vəfasızmış.
Odlu nəfəsiylə o,
Deyirlər bu dərdini
Uca dağlara yazmış.
Saranın yoxluğuna
O inana bilməyir.
Soruşur dönə-dönə:
Bir cavab verin mənə,
Saram niyə gəlməyir?!
Bu vaxt bir mahnı səsi
Ucalır qırıq-qırıq.
Mahnıda bir təlatüm,
Mahnıda bir hıçqırıq.



Mahnı ağlayır dərddən,
Söz açır hər kəlməsi
Bir nakam məhəbbətdən.
Səs düşür çəmən-çəmən,
Səs düşür çölə, düzə.
O mahnı zaman-zaman
Babaların sözündə,
Sazında çatır bizə...
"Arpa çayı aşdı, daşdı,
Sel Saranı aldı qaçdı.
Xəbər verin Xan çobana,
Gəlməsin bu il Muğana,
Muğan batıb qızıl qana"

## EPİLOQ

İndi neçə kükrəyən,
Coşan çaylar ram olmuş.
Neçə-neçə çayların
Üstdə körpü qurulmuş.
Sular cilovsuz qaçan
Köhlən deyildir daha
Bəzən həddini aşıb,
Sular qalxsa da şaha,
Yenə bəndlər, bərələr
Seli, suyu ram etmiş.
İndi zaman dəyişmiş,
İndi dövran dəyişmiş,
Xarüqələr yaratmış
İndi insan zəkası.
Həqiqətə çevrilmiş
Neçə xəyal dünyası.
Dünən bizə sirr olan
Bu gün artıq sirr deyil.
İnsanlar təbiətin
Əlində əsir deyil...

Fəqət hərdən xəyalım
Köç edir uzaqlara,
Baxıram o nanəli,
O çiçəkli dağlara.
Baxıram...
Arpa çayı
Axır aramla, ancaq
Elə bil ki, hələ də
Titrəyir sular üstdə
Sarasız qalan duvaq...
Kövrək ləpələriylə
Sahili öpə-öpə
Sular günahkar kimi
Pıçıldayır bir nəğmə.
"Gedin deyin Xan çobana,
Gəlməsin bu il Muğana,
Apardı sellər Saranı.
Bir uca boylu balanı..."
Kövrək ləpələriylə
Sahili öpə-öpə
Sular günahkar kimi
Pıçıldayır bir nəğmə;
Apardı...
Sellər...
*Saranı...*

*1970*



## MÜNDƏRİCAT

Əbədi gün sorağında ....4

SABAHINIZ XEYİR OLSUN

Azərbaycan ....11
Sabahınız xeyir olsun ....12
Yora bilməz yollar məni ....13
İnsanam mən ....15
Şerim mənim ....16
Harda bir ateş görsən ....17
Sizi deyib yaşaram ....18
Dünyamızın sabahı ....20
Nəğmələrimin ünvanı ....21
Düşmüşəm bir təzə nəğmə eşqinə ....23
Mənim gözlərimlə baxın bakıya ....24
Qızıl rəngli səhərlərim ....26
Şirin bir laylayam ....27
Qalır ocağımız, közümüz ....27
Ömür kitaba bənzər ....29
İtirməyim bu qisməti ....30
Mən tənha deyiləm ....31
On səkkiz yaşınız qayıdır geri ....32
Çağır ....34
Həyatdan istəyim ....36
Yer üzündə bir evim var... ....36
Ailə kiçik bir dünyaya oxşar ....37
Bir tara bənzəyirəm ....38
Hər obada bayram ola ....40
Atamın məktubuna cavab ....41
Narahat dünya ....45

ƏBƏDİYYƏT NƏĞMƏM

Sevincim, kədərim ....49
Əbədiyyət nəğməm ....50

Arzularım, ümidlərim .....52
Telefon xətlərində .....54
Çağla, Arazım, çağla .....55
Sizə uğurlar dedim .....56
Bir də yuxularda görüşməyək biz... .....57
Əs, ey yaz küləyi .....59
Çinar olaydı xitabat kürsümüz .....60
Dizlərim əyilsə .....63
Dözə bilməsəm də .....65
Birlik istəyirəm .....66
Çalınmamış toylarım var... .....67
Səsimə səs verər... .....68
Könül dünyam .....68
Eldən vüqar alaram .....69
Qurban olum .....70
Ərk qalası .....72
Xatirələrim .....73
Təbrizim .....74
Ağ badam çiçəkləri .....75
Ayrıla bilmərəm .....77
Təbrizi görməyincə .....78
Dünyanın sevinci, dünyanın dərdi .....79
Gələcəyəm .....81
Qaragilə .....83

**QƏLBİMDƏ BAHAR DOĞMASA**

Bir damlayam .....87
Dənizin sahili var .....87
Kaş durna olaydım .....89
Savalan .....90
İnanar birdən .....91
İlk yurdum, ilk nəğməm .....92
Nazim Hikmətə .....94
Bilər .....95
Bir ovuc qar .....96



Amandır toxunma qəlbimə qafil .....97
Hicran ağla dedi, vüsal gül dedi .....97
Soruş .....98
Vətən ola bilmirəm .....99
Bu dünyada .....100
Yollar hamar olsaydı... .....101
Hələ yorulmamışam .....102
Ömrün payız dayanacağı .....102
Öyrən istiyə, soyuğa .....104
Şair ömrü .....105
Mən kiməm .....107
Dünyaya şeir gəlir... .....108
Təbrizim mənim .....109
Beşik başında .....110
Mən yaşa dolduqca .....111
Arzularım... .....112
Sevincim, umudum .....114
Qoşa qalır izlərimiz .....115
Səni görsəydim .....115
Yollar, yollar .....117
Fəsillər qarışmış biri-birinə .....118
Bu inam qəlbimdə işıq yandırır .....120
Təbrizin küçələri .....122
Balıqçı .....123

**DURNALAR QAYIDANDA**

Amandır, toxunma yasəmənlərə .....127
Elə əvvəlki kimiyəm .....128
Durnalar qayıdanda .....129
Mən elə sandım ki... .....131
Sevinc yaşları .....133
Bayramda barışanlar .....134
Yuxuma gəlsəydin .....135
Mən çiçək olsaydım... .....136
Ellər çağırır məni .....137

**MƏDİNƏ GÜLGÜN**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

"ŞƏRQ-QƏRB"

BAKI-2004

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Ceyran Abbasova*

Yığılmağa verilmişdir 3.06.2004. Çapa imzalanmışdır 24.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 14. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 234.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.